**Hüseynbala MİRƏLƏMOV**

# TALEDƏN QAÇMAQ OLMUR

*(Povest)*

Aprel ayının sonuncu şənbə gecəsi idi. Dəniz səmtdən əsən sərt külək sahil parkı ilə üzbəüz yerləşən köhnə dördmərtəbəli binanın dəmir damını aramsız döyəcləyirdi. Zəhlətökən cırıltıdan nəinki yuxarı mərtəbədə, eləcə də çardaqda yaşayan təzə sakinlər – küləklər şəhərinin özünəxas təbiətinə nabələd əcnəbi qonaqlar qara-qorxudan təşvişə düşmüşdülər, elə bil həqiqətən əli çəkicli-baltalı bir dəstə adam yuxarıda zühür eləmişdi, takka-tarakla metal örtüyü yerli-dibli sökürdü. Yaraşıqlı memarlıq üslubu ilə diqqət çəkən bu qədim imarət təxminən bir əsr əvvəl yerli neft maqnatlarından birinin sifarişi ilə gözünün ağı-qarası yeganə qızına toy cehizi – hədiyyəsi kimi inşa edilmişdi. O zamanlar Qızlar Gimnaziyasında oxuyan həmyaşıdları həmin qızı yəqin dünyanın ən bəxtəvəri sanıb, dalınca qibtə eləməyi də unutmamışdılar. Sonra hamı şahid oldu ki, həyatda xoşbəxtlik, bəxtəvərlik, gəlinin cehizinin azlığıyla-çoxluğuyla ölçülmür. Allah-təala hansı zümrədən olursa-olsun – istə varlı, istər kasıb dünyaya təşrif gətirən hər bir zərif məxluğu xoşbəxtliyə yetmək üçün yaradır. Həyatsa bəzən öz qeyri-standart qanunlarıyla adamı mat-məəttəl qoyur. Min bir dürlü naz-nemət, əlahiddə qayğı içində böyümüş milyonçu qızının taleyi üzünə gülməmişdi, deyilənə görə yalnız zifaf gecəsini atasının hədiyyə elədiyi malikanədə keçirən o “bəxtəvər gəlin” ertəsi gün həmin ali təbəqəyə məxsus kübar sarayı, hətta şəhəri gizlincə tərk etmək məcburiyyətində qalıbmış. (Məlum Qırmızı inqilab zamanı əmlakı qeydsiz-şərtsiz müsadirə edilən varlı-karlı maqnat yeni hökumət tərəfindən Sibirə sürgünə göndəriləcəyindən

ehtiyatlanıb, ailəsilə birgə Avropaya üz tutmuş, ömrünün sonunacan orada yaşayıbmış. Parisda dünyasını dəyişən neft milyonçusunun qızı uzun bir mühacir ömrü sürsə də, ona doğma Bakıya dönmək səadəti heç vaxt nəsib olmamışdı).

Qədim Qız Qalasının yaxınlığında yerləşən əski bina dənizin sahilindən doğrudan da möhtəşəm qala kimi görünürdü. Köklü-köməcli şəhərli sayılan qanuni ev-eşik sahiblərinin əksəriyyəti elanlarından bütün şıltaqlığı ilə dəniz mənzərəsi görünən bu yaraşıqlı evdə xeyli müddətdi yaşamırdılar. Hündür talanlı, dəhlizli, geniş otaqlı mənzillərini əcnəbilərə kirayəyə verib, kimisi bağ evinə, kimisi də şəhərin ucqar yerlərində ucuz qiymətə tutduğu gecəqondulara köçmüşdülər.

Dördüncü mərtəbədə it hürürdü, gecənin bu vədəsində Allah bilir nəyə hürür, bəlkə binanın dəmir damını aramsız döyəcləyən, mənzilin dəniz tərəfinə baxan pəncərələrini taybatay açan küləyə acığı tutmuşdu? Yoxsa gecə barında əylənən harın sahibinin yolunu gözləməkdən təngə gəlmişdi? Həmin mənzili bir ildən çox idi ki, Cek adlı cılız, sısqa bir ingilis kirayələmişdi. Qonşular bu vaxtacan yaşı çoxdan otuzu haqlamış o adamın nə arvad-uşağının, nə də məşuqəsinin üzünü görmüşdülər. Gördükləri əzizləyə-əzizləyə saxladığı bu hürən boz it idi, bir də ağ rəngli qaşqa pişik. Cekin ingilissayağı yeritdiyi əmin-amanlıq siyasəti sayəsində itlə pişik mənzildə mütəffik kimi, dostluq şəraitində yola gedirdilər... Necə deyərlər, aralarından su keçmirdi. Bəs görəsən, o gecə niyə Cekin iti qapının ağzında bərkdən hürür, pişiyi açıq qalmış pəncərənin qabağında miyoldayır, dil-boğaza qoymurdu?

Bu sualı qədim binanın üçüncü qatında yaşayan Səlimzadələr ailəsinin böyük qızı Fidan özünə verdi, nədənsə, qızın gözlərinə dan yeri sökülənəcən yuxu getmədi, o gecə Növrəstə qız səksəkə içində idi, qəlbi tələyə düşmüş quş kimi çırpınır, yatağında tez-tez qıvrınır, ilanvuran yatır, o, yatmırdı. Sanki uzaqdan naməlum bir səs onu köməyə çağırırdı. Gecənin bu aləmində hətta qalxıb yorğan-döşəyin içində oturdu. Yata bilməyəcəyini görüb pəncərəyə yaxınlaşdı. Göy üzünə təkəm-seyrək ulduzlar görünsə də, Ayın qabağını karvanbasan

quldur kimi bulud kəsmişdi. Şəhərin lap ucqarında axşama yaxın sönən işıqlar gecə yarıdan ötmüş yandı. Ətrafda tək-tük taksilər, yük maşınları o yan, bu yana şütüyürdü. Küçələr çırağban idi, ən kiçik dalanlar da işıq selinə bürünmüşdü. Yamyaşıl qol-budağı Fidangilin şüşəbənd eyvanına çırpılan ucaboylu çinarın qapqara kölgəsi binanın həyətində var-gəl edən keşikçi əsgəri xatırladırdı. Qız pəncərəyə söykənib bir xeyli dəniz tərəfə tamaşa etdi. Sahilə yan alan köhnə balıqçı gəmisini beşik kimi yırğalayan dalğaların səsini ana laylası tək dinlədi, azca əvvəl qəlbinə hakim kəsilən qəribə hisslər əriyib yoxa çıxdı. İt daha hürmür, pişik də nəfəsini içinə çəkmişdi. Yəqin cənab Cek evə qayıtmış, dilsiz-ağızsız dostlarına nəvaziş göstərib ovutmuş, əsəbilərini sakitləşdirmişdi.

Fidan əllərini sinəsində çarpazladı, nə düşündüsə başını bulayıb:

- Axmaq ingilis, deyəsən, gəlib çıxdı, - dedi, - özünü ağıllı, hamıdan mədəni sayır, amma gecənin bu vədəsində ac-yalavac qoyduğu ev heyvanlarının qonşuları necə narahat elədiyinin fərqində belə deyil.

Birdən iri qara gözlərini qıyıb şübhəli-şübhəli pıçıldadı:

- Bəlkə... bəlkə o, bu gecəni...

* * *

Üç ay öncə ən yaxın rəfiqəsi Natəvanla evə qayıdan zaman itini dənizkənarı parka gəzdirməyə aparan Ceklə təsadüfən rastlaşmışdılar. Natəvan azərbaycanlıya yaraşmayan gözlənilməz jestlə əyilib boz itin başını sığallayaraq süni naz-qəmzəylə sahibinin üzünə gülümsəmiş, ilk dəfə gördüyü bu yad millətin nümayəndəsinə komplement söyləməkdən də çəkinməmişdi:

- Ooo, mən bu iti çox sevdim.

Onda Fidanın rəfiqəsinə bərk acığı tutmuş, ona təpinmişdi. Ceksə türkcə "mərhəba" deyib ədəb-ərkanla onların hər ikisinə təşəkkür edib gedər-getməz Natəvan hisslərini cilovlaya bilməmiş, çılğıncasına Fidanı dümsükləmişdi:

- Ay qız, sir-sifət turşutma, öz aramızdı, təzə qonşunuz bomba oğlandı, - deyə qəlbindən keçənləri açıq-saçıq şəkildə dilinə gətirməyə çəkinməmişdi, - bax, ərə gedəndə beləsinə gedəsən, o dəqiqə bilinir, həm subaydı, həm də imkanlıdı. Hə, hə zənnim məni aldatmır, subay adama oxşayır, səncə, o məni alar?

Fidan Natəvanın hərəkətindən diksinmiş, rəfiqəsini ciddi baxışlarla xeyli süzüb təəccüblə demişdi:

- Dəlisən, Nata, yəni sən doğrudan da bunu ürəkdən deyirsən?

Natəvan dərindən "ah" çəkib özünü sındırmamışdı:

- Ürəkdən, ya böyrəkdən, nə dəxli var, canım. Mən səndən fərqli surətdə sevib-sevilmədən də ailə həyatı qurub xoşbəxt olmağın mümkünlüyünü bilirəm. Sənin geniş təxəyyülün, zəngin fantaziyan var, xəyalplovla yaşayırsan, gözləyirsən ki, ürəyində tutduğun ağ atlı oğlana həyatda rast gələcəysən. Unudursan, beləsi ya köhnə nağıllarda, ya da elə köhnə ağ-qara kino fimlərdə olur. İndiki oğlanlar varlı qızla, qızlarsa varlı oğlanla ailə qurmaq arzusuyla yaşayır, alışıb-yanırlar.

- Hamının adından danışma, günaha batarsan, məni çıx. Deyirsən, yəni həqiqi eşqdən, məhəbbətdən əsər-əlamət qalmayıb?

- Fida, inan mənə, məhəbbət dediyin cəfəngiyat adama ağrı-acıdan, göz yaşından savayı heç nə vəd etmir. Eşq xəstəliyinə mübtəla qızların çoxu ərə gedəndən uzağı dörd-beş ay sonra peşman olurlar. Məhəbbəti ehtiyacın iti qılıncı elə doğrayıb-tökür ki, heç aşiq-məşuq cınqırını da çıxara bilmir. Ailədə hər xırda məsələyə görə söz-söhbətlər uzanıb-böyüyür, bu da gec-tez boşanmalara gətirib çıxarır.

- Elə danışırsan, sanki bu həyatı üç-dörd dəfə yaşamısan. Yaxşı bilirsən ki, çox var-dövlət, pul, qızıl-gümüş, sənin düşündüyün kimi imkanlı adama ərə getmək xoşbəxtlik qapılarını hər bəxtəvər qızın üzünə taybatay açmır. Bəzən

bəxtəvərliyilə öyünən, yaxud çoxunun xoşbəxt sandığı qadınlar da bitib-tükənməyən zənginlik içində öz əbədi bədbəxtliklərinə yas saxlayırlar. Mal-mülk, var sahibi olmaq hələ əsl xoşbəxtlik deyil. Fikir ver, gördüyün bu gözəl binanı imkanlı bir kişi qızına cehiz vermişdi, bəlkə sən demişkən, onunla ilə həyatı quran oğlan da qızın özündən çox var-dövlətinə aşiq imiş, demək çətindi, amma onlara nə burada rahat yaşamaq, nə də milyonçunun topdağıtmaz mülkü qismət oldu.

Natəvan səbirsizliklə həmsöhbətinin sözünü kəsdi:

- O zaman başqa, indi bambaşqa, indi hər kəs müstəqildi, istədiyi kimi yaşaya bilər. Mənim ağlıma görə əsl həyat yaşamağı bacaranındı, tale yollarını istədiyi kimi seçənlər imkanlı, yaxşı vəzifəli-pullu mənsəb sahibləridi, gec-tez sən də bu fikrimlə barışacaqsan, xoşbəxtlik də, bədbəxtlik də nisbidir, hər bir qızın, qadının özündən asılıdır... Fidan xanım, yoxsa sən də bəziləri kimi dini ayrıseçkiliyi əsas tutub müsəlman qızının ingilisə, almana, fransıza ərə getməyini qəbahət sayırsan? İnanmıram avropalaşmış böyük bir mədəniyyət mərkəzinin göbəyində yaşayan təhsilli rəfiqəm bu cür bəsit düşünsün...

Fidanın gücü özünə çatmış, susmuşdu. Natəvanla aralarında ilk dəfəydi belə qəribə fikir ayrılığı ciddi mübahisəyə səbəb olurdu. Məgər insanları tanımaq mümkündü? Neçə illərin mehriban münasibətləri, dostluğu da kifayət deyil. Xətrini dünyalar qədər istədiyi, yaxın bilib qəlb açdığı rəfiqəsinin belə boş məntiqlə özünü haqqa çıxarmasına həm təəccüblənir, həm də təəssüflənirdi. “Lənət kor şeytana” deyib, gecəki maraqlı yuxusunu yadına saldı. Yuxusunda ağ gəlinlik paltarını köksünə sıxan, ağlayan qız görmüşdü. Hamının gözü qarşısında onun qolundan tutub faytona mindirdilər, o, nəmli kirpiklərini qaldırıb, həsrət içində son dəfə yaraşıqlı malikanəsinə baxıb pıçıldayırdı: “İlahi, kaş mənim bu qarmaqarışıq şəhərdə rahat ömür-gün keçirə biləcəyim hisli-paslı bir darısqal daxmam olaydı...” Qoca faytonçunun da halı özündə deyildi, dərin kədər içində dodaqaltı mızıldanırdı: “fəlakətin gücünə bax, xudaya, yersiz gəlir yerli baş götürüb qaçır. Halalı haram gözlə-qaş arasında üstələyir... Bu zülmü necə götürürsən?”

Bir istədi yuxusunu açıb Natəvana danışsın, bundan vaz keçdi. Çünki rəfiqəsi özgə hava üstə köklənmişdi, baxışı, duruşu qəlbinin sirli-soraqlı dünyasını indicə faş eləmişdi:

- Vallah, mənə gülmə, əgər əcnəbi qonşun razı olsa, bu saat uça-uça ona ərə gedərəm. Nəyim artığdı, niyə də getməyim. Düzünü desəm, mən ilk baxışdan vurulmuşam. İndən belə Ceki görmək üçün tez-tez sizə gəlməli olacağam. Bilirsən, utanmağın yeri deyil, Fida, deyirəm, bəlkə bir dəfə evdə olanda yuxarı qalxım, qapısını döyüm, lap rəsmi deyim cənab Cek, mən sənə aşiq olmuşam. Bizim bir həzin mahnımızda deyildiyi kimi

“Bir gün qapını döysəm,
Sənə sevirəm, desəm,
Neylərsən mənə, neylərsən?”

Fidan iztehzaya keçdi:

- Özü də ona aşiq olmamışdan qabaq, itinə-pişiyinə bərk-bərk vurulduğunu söyləməyi də unutma! O da qayıdıb ağzından vura ki, gözəl qız, aşiqlik ağılsızlığın birinci əlamətidir... Get, özünü həkimə göstər, yaxşıca yoxlatdır.

Natəvan ciddiləşdi:

- Bura bax, sən məni məsxərəyə qoyursan? Yoxsa Ceki “ələ keçirəcəyimə” şübhən var?

Fidan bu dəfə rəfiqəsinin gözlərinin içinə baxıb təəssüflə:

- Bayaqdan dediklərinin ciddi olduğuna inanmağım gəlmirdi, zarafat hesab eləyib əhəmiyyət vermirdim. İndi belə oldu, məni yaxşı eşit, əgər Cekin qapısını döyəcəksənsə, daha bizim qapını açma, - dedi...

Fidanın sərt sözlərindən inciyən Natəvan dönüb getməzdən qabaq:

- Sən də gözünü düz-əməlli aç, ətrafına yaxşı-yaxşı bax, yuxulu-yuxulu yox, - dedi – indi iyirmi birinci əsrdi, motal iyi verən köhnə fikirlərindən əl çək, axı nə səni, nə də məni anamız təzədən dünyaya gətirməyəcək. Əfəllik, ütülü əxlaq

bizi əli aşından da edir, vəli aşından da. Yadında saxla, ailəmizin bundan sonrakı taleyi bizim doğru-dürüst ər seçimimizdən asılıdır...

Bu əhvalatdan heç bir həftə keçməmiş kollecin yaxınlığında Natəvanı Cekin maşınında görən Fidanın daxili dünyası alt-üst olmuşdu. “Aman Allah, sən saxla, heç demə, bu qız cadügərmiş, ağlına gələni etməyə qadirmiş...”. Sübh çağı isə yuxarı mərtəbədəki mənzilin dənizə açılan pəncərələri şaqqıltıyla bağlananda Fidan “Allah bilir, bəlkə də Cek bu gecəni Natəvanla birgə keçirib?” – düşündü. “Axı, mənə nə olub, başıma at təpib, niyə gecənin bu vədəsi onun haqqında düşünürəm? Özümü tox tutmalıyam, nə olsun ki, bu qız elə bil hər şeyi mənim acığıma edir. O ağlıseyrək hələ anlamır, taleyiylə oyun oynayır. Nə edir-etsin, cəhənnəmə, özü bilər... mənə nə”. Ağır düşüncə boşluğuna düşən qızı dəhlizdə öz-özünə gileylənən anasının cod səsi ayırdı:

- Zəmanənin boz üzü çönüb, vallah, bizimkilər bir tikə çörək dalınca dünyanın o başına gedir, iti-pişiyilə zəhləmizi aparan bir ingilis gədəsi neft iyinə dünyanın o başından durub Bakıya gəlib...

Görünür, bir az əvvəl yuxarı mərtəbədən gələn səs-küy arvadın da yuxusuna haram qatmış, qaçırmışdı. Ahıl qadın deyinə-deyinə mətbəxə keçdi. Sanki ana qızının oyaq olduğunu, bir an ürəyindən nələr keçdiyini qabaqcadan duymuşdu. Fidan barmaqlarının ucunda tez yatağına tərəf döndü. Anası yaxın rəfiqəsindən üz döndərməsinin səbəbini öyrənən zaman onu bərk qınamışdı: “Nə olsun, a bala. Neçə illik rəfiqənə niyə acığın tutduğunu anlamıram. Yazıq qız kənd uşağıdır, nə vaxtacan cavan ömrünü kirayədə yaşadığı zirzəmidə çürüdəcək? Sən gözünü şəhərin mərkəzində, hər cür şəraitə malik ünvanda açmısan, o qızın nələr çəkdiyini duya bilməzsən... Məncə, elə sən də imkanlı oğlana ərə getmək barədə düşünsən, pis olmaz!”. O gündən özünün dediyi kimi, pul iyinə dünyanın o başına getməyə hazırlaşan Natəvana haqq qazandıran anasıyla söhbət etməkdən çəkinirdi. Çünki fürsət düşən kimi anası ərə getmək vaxtının yetişdiyini eyhamla qandırır, qanqaraçılıq yaradırdı. İndi yenə ana mətbəxdən yatağına dönəndə qızlarının otağına baş çəkdi, hər ikisinin şirin-şirin yatdığına əmin olub otağına çəkildi.

* * *

... Səhərin gözü açılandan buludların arasından təbəssümünü əsirgəməyən günəş hərarətlə adamları evdən bayıra çıxmağa, mavi dənizin sahilində, güllü-çiçəkli xiyabanlarda gəzib-dolaşmağa çağırırdı. Yatağından həmişəki vaxtdan gec qalxan Fidan əl-üzünü yuyub, saçlarını daradı. Mətbəxə keçəndə anası nəvazişlə:

- Doyunca yata bildin, qızım? – soruşdu.

- Hə...

Anası mətbəxdə qutab bişirirdi. Kiçik bacısı Aynaz da ona kömək edirdi.

- Bu gün yaxşı hava var, gecə dəhşətli külək vardı, dedim, yatan kimi yağış başlayacaq, gəl otur, yeməyini ye, sonra get gəz-dolan, belə havada evdə oturmaq günahdı, - ana asta-asta danışırdı, qızı pəncərə önündə dayanıb xəyala dalmışdı. Mətbəxin dəmir çərçivəli pəncərəsindən həyət baxçası görünürdü. Bir azdan təzəcə tumurcuqlanmış ərik ağacının altındakı dairəvi taxta masanın ətrafına yığışan bekar kişilər həvəslə domino oynamağa başladılar. Fidanın atası məhəllənin bu daimi müştərilərinin arasında yox idi, çünki o, bazar günü də küçənin tinindəki dədə-babadan yadigar qalan köhnə ayaqqabı təmiri daxmasında iş başındaydı. Uzun illərdən bəri sakit həyat tərzi keçirən Səlim kişi pinəçiliklə ailəsinin ruzusunu qazanmağa vərdiş eləmişdi.

Halal zəhmətlə dolanan, namuslu ömür sürən, heç kəsə dəyib-dolaşmayan, valideynləri ilə həmişə fəxr edən, ağlı kəsən gündən onların bir sözünü iki eləməyən Fidan ən adi günlərdə belə dərsdən sonra vaxtının çoxunu evlərində, dörd divar arasında keçirirdi. Bu yaşda adətən, qızlar özlərinə sığmır, sevib-sevilməyi, bəzənib-düzənməyi, rəfiqələri ilə birlikdə vaxt əritməyi xoşlayırlar. Anası qeyri-adi təbiətilə seçilən, yaşıdlarından fərqlənən Fidana baxır, dinməzcə köks ötürür, qəlbində qara qanlar axır, ərgən yaşına çatan qızının gələcəyini düşünür, nigarançılıq çəkirdi.

Rəfiqəsi ilə araları pozulandan sonra Fidan evdə, məktəbdə özünü qəribə tərzdə aparırdı, saatlarla öz dünyasına çəkilməsi, susub xəyala dalması onu ətrafda baş verən real hadisələrdən uzaq salmışdı; ona elə gəlirdi ki, yaşadığı dünyada hər şey yalan üstə qurulub, nə əsl sevgiyə etibar qalıb, nə təmənnasız dostluğa. Anasının tez-tez "üzü dönük" dediyi zəmanə adamları dəyişmişdi. Pul qazanmaq, var-dövlət sahibi olmaq ehtirası mənəvi dəyərləri kölgədə qoymuşdu. Həyatda ən müqəddəs varlıq bildiyi anası da Fidanı pulu-parası olan adama ərə vermək niyyətini gizləmirdi:

- "Eh, ay qızım, sevgi, məhəbbət indiyəcən heç kəsin qarnını doyurmayıb, ərə getdiyin Allah bəndəsiylə bir-iki il eyni yastığa baş qoyandan sonra, arxada sevgi də yaranacaq, xətir-hörmət də, çətini uşaq doğulanacandı. Əsas odur ki, ailə quracağın adam lütün biri deyil, evi-eşiyi, pulu-parası var". Fidansa cavab vermir, zahirən özünü elə aparırdı ki, guya hələlik ərə getmək barədə düşünmür.

Əslində isə xəyala dalanda qız ən çox ailə quracağı Allah bəndəsinin kimliyi barədə düşünür, çağrılmayan qonaq kimi qəlbinin qapısını vaxtsız döyən duyğular ağlını başından alır, onu həyəcana gətirirdi. Düşüncələr aləmindən qopmayan qızcığaz get-gedə o qədər xəyalpərvər bəndəyə çevrilmişdi ki, tənhalığa çəkiləndə xəyalında obrazını yaratdığı oğlanla danışırdı. Bu yaraşıqlı, baxışından ciddilik, ötkəmlik yağan, erkən yaşında həyatın hər üzünə bələd oğlanı Fidan hardan tanıyırdı, ilahi? Tanıyırdı deyəndə, oğlanı son dəfə baxdığı "Qeyb olan illər" adlı türk teleserialındakı Əsmərə bənzədirdi. Bu filmə baxan günədək Fidan elə bilirdi ki, Əsmər yalnız qız adıdır. Ancaq bu ad filmin əsas qəhrəmanlarından hesab olunan qarabəniz oğlana yaraşırdı ki, sanki vücuduna, mütənasib qəddi-qamətinə, simasına həqiqətən biçilmişdi. Fidan gələcəkdə həyat yollarında birgə addımlayacağı oğlanı da o cür təsəvvür edirdi: "İnanıram, bir gün Əsmərə bənzəyən bir oğlan küçədə, yolda, hardasa qəfildən qarşımı kəsib:

- Fidan, canım-gözüm, axtardığın mənəm, deyəcək! Sənin xəyalında yaşatdığın oğlanam, həm sənin, həm də valideynlərinin arzuladığı Allahın sevimli bəndəsiyəm. Bəli, Fidan düşüncələr aləmində aşiq olduğu gəncə

həyatda rast gələcəyinə inanır, şirin xəyallar aləmiylə yaşayırdı... Axı, elə bir oğlan hardasa var, sadəcə tanışmaq, ürcah olmaq, rast gəlmək tale məsələsidir. Natəvandan sonra Fidanın ürək sirrini danışmağa rəfiqəsi yox idi, kiçik bacısı ilə aralarında xeyli yaş fərqi vardı, qəlbini aça bilmirdi. Anasıyla bir-iki kəlmə kəsən kimi söhbət gah hərlənib-fırlanıb ingilis oğlana ərə getməyə hazırlaşan Natəvanın üstünə çıxır, gah da Fidanın varlı-karlı ailəyə gəlin getməyinin üstünə. Açıq-aşkar ana qızını tezliklə ərə verməyə tələsdirirdi. Ona görə Fidanın son vaxtlar anasıyla söhbəti tutmur, mövzusu sanki tükənmişdi.

Bişirdiyi isti qutabları Aynazla ərinə göndərəndən sonra anası ona yaxınlaşıb:

- Ay qızım, qadan alım, nigarançılığın nədir? Xəlvətə çəkilib öz-özünə nə danışırsan? – deyə astaca soruşurdu. Fidan anasının bu gözlənilməz gedişindən çaşıb qaldı, nə cavab verəcəyini bilmədi, elə bil hansısa bir xoşagəlməz iş üstündə yaxalanmışdı. Gözlərini sevimli anasının baxışlarından yayındırmağa çalışdı.

- Heç, heç ay ana, burda nə var, elə-belə bağ-bağçaya baxa-baxa fikrə dalmışam.

Anası saçlarını sığallaya-sığallaya məni dilə tutdu:

- Ağıllı, qəşən balam, bəsdi göylərdə gəzib-dolaşdın, yerə enməyin, ətrafa baxmağın vaxtıdı. Sən indicə nəsə danışırdın, mən pıçıltılarını eşidirdim, nə dərd-sərin varsa, gəl məndən gizlətmə, aç ürəyini anana, bəlkə istədiyin var?

Fidan xəfifcə gülümsündü:

- Yox anam, mənim aşiq ola biləcəyim şəxs yoxdu. Özün də yaxşı bilirsən ki, küçə iti kimi qızların arxasınca sülənən kəslərdən zəndi-zəhləm gedir. Axı, sən özün də deyirsən, sevsəm də, məni elə-belə təsadüfi oğlana ərə vermək fikriniz yoxdu.

- Ey, ay qızım, qız yükü, duz yükü: deyiblər, kaş, Allah qarşına halal süd əmmiş birini çıxaraydı, bizim də yükümüz azalaydı. Onda təhsil haqqını ödəmək bizə çətin gəlməzdi.

Fidan anasını qucaqladı:

- Darıxma ana, vədəsi var, çalışıb sizi bu qayğıdan qurtaracağam, inşallah. Anası pörtmüş sifətində puçurlanan tər damcılarını önlüyünün ətəyi ilə silib sözünə ara verdi:

- Bəlkə Natəvanla o ingilis gədəsinin eşq macərası barədə xəyala qapılmısan? Özünü boş-boş yoranacan, rəfiqənlə barışsan, məsləhətdi. “Niyyətin hara, mənzilin də ora” – deyiblər, ay qızım, sağ əli sənin başına. Allah bütün subay qızları xoşbəxt eləsin, Natəvan da onların içində. Məncə, o qız ailəsini əzab-əziyyətdən, maddi-mənəvi bataqlıqdan, kasıbçılıqdan qurtarmaq naminə fədakarlıq edir. Təki Allah bu fədakarlığının əvəzini min qat artıq versin, çox zirək qızmış, xoşbəxt olsun!

- Ana, öz işidi, mənə “nə istisi soyuğu”, başlama. Açma sandığı, tökmə pambığı.

- Başlama, başlama, deyirsən, məgər özünü bu dünyanın adamı kimi aparırsan, mən nəsə başlayım? Mən istəyirəm sən də yaxşı yerə gedəsən. Yağ-bal içində yaşayasan, neynim, necə edim, deməyəsən, heç nədən korluğun olmaya.

Natəvan söhbətin yaxşı nəticələnməyəcəyini bildiyi üçün anasının xətrinə dəymədən aradan çırmaq istədi:

- Yaxşı, yaxşı, mən gedib imtahanlara hazırlaşım...

- Otur rahatca yeməyini ye, mənim o qədər iş-gücüm var ki... Atanın məxmər pencəyini bayaqdan sabunlu islağa qoymuşam, gedim onu yuyum.

* * *

... Günlərin bir günüydü, adəti üzrə Fidan öz otağına çəkilmişdi. Yastığına dirsəklənib yenə şirin xəyallara dalmışdı. Anası evdə yox idi, daha doğrusu, aşağı mərtəbədə yaşayan qonşu qadınla həyətə enmişdi. Aynaz da bayırdaydı, öz tay-

tuşları ilə oynayırdı. Göldə həzin meh əsir, sakit hava hökm sürürdü. Kiçik nəfəslikdən otağa daxil olan bayır havası pəncərənin tül pərdəsini asta-asta yellədirdi. Fidan qəfildən öz-özünə səksəndi, ona elə gəldi ki, eyvanda kimsə gəzişir, onun hərəkətlərinə göz qoyur, durub balkona baxdı, sonra nəfəsliyi bağladı.

- Bəlkə nostalji duyğulardır, doğrudan da yanılıram, indi heç kəs xəyalında nəzərdə tutduğu sevgiylə həyatda rastlaşmır, mənsə yarpaqlar titrəşəndə, pəncərəmi xəfif meh döyəndə, elə bilirəm, bu odur, illərlə gözlədiyim şəxsdir, oğlanın nurlu surəti böyür-başımda pərvaz edir, yağışın, küləyin diliylə mənə öz məhəbbətini bəyan edir – deyə pıçıldadı. Sonra dərindən köks ötürdü, qəlbində: “Yox, Fidan, yox, belə getsə, sən mütləq xəstəlik tapacaqsan. Bəlkə təcrübəli anam haqlıdır, göydən yerə enib ətrafıma baxmalıyam, ya yox, axı həyatda gözlənilməz hadisələr nə qədər desən olur.” – düşündü.

Gözlərini yumub heç nə, heç kim barədə düşünmək istəmirdi. Özünü əbəs yerə “bəlkə”lərlə yorduğunu yaxşı başa düşürdü. Amma narahat qəlbi ilə bacara bilmirdi. Ürəyə hökm etmək doğrudan da asan deyilmiş. Düşüncələr yenə onu qoynuna alıb uzaqlara çəkib apardı...

Budur, telefonuna gələn səsli mesaj onu şirin-şəkər xəyallardan ayırdı. Barışmaq naminə dəridən-qabıqdan çıxan Natəvanın kövrək səsiydi:

- Fida, sənə qurban, incikliyi bir yana burax, yaxında toyum olacaq, çox istəyirəm, bu xoşbəxt anımda yanımda olasan, başımın üstündən atdığım gül çələngini sən tutarsan...

Fidanın bütün vücudu oyandı, təsəvvüründə bir anlıq rəfiqəsini ağ gəlinlik paltarında canlandırdı. O, xoşbəxtcəsinə hamıya xoş təbəssüm göstərir, Cekin verdiyi gül dəstəsini “Vağzalı” sədası altında başının üstündən geri atırdı, bir dəstə yeniyetmə qız onu tutmağa çalışsa da, gül dəstəsi axırda Fidanın qucağına düşürdü. Bu hal həmişə təkrarlanır, sevinən məhz Fidan olurdu. Həyəcandan yanaqları od tutub alışan qız nə edəcəyini bilmirdi. Bu dəfə elə bil qucağına bir dəstə köz düşmüşdü. Amma bədənini bürüyən təravətli hərarətdən xoşhallanırdı, ətrafdakılar

sevinc içində əl çalıb onu təbrik edirdi. Natəvansa gülə-gülə rəfiqəsinin boynuna sarılıb, ərkyana:

- Gördün, bilirdim axı, növbə sənindir! – söyləyirdi.

Ürəyinin döyüntüsünə Fidan diksinib xəyaldan ayrıldı. Rəfiqəsinin toyuna gedib-getməyəcəyinə hələ də qəti qərar verməkdə çətinlik çəkirdi.

- Ah, Natəvan, Natəvan, - deyə pıçıldadı, - bir-birimizin toyunda iştirak etməyi o qədər arzu eləmişdik ki, indi nə qərar qəbul edəcəyimi özüm də bilmirdim. Dörd yol ayrıcındayam, çaşıb qalmışam. Deyəsən, anam haqlıdır, sən ailənin xatirinə bu seçimi etdin. Xoşbəxt ol bacım, toyun mübarək olsun!..

Güzgünün qarşısına keçib heyranlıqla boy-buxununa baxırdı – onun boyasız dodaqları, alışıb-yanan ənlik-kirşansız yanaqları çiyələk kimi qızarmışdı. Köynəyinin düz yaxası dik döşlərinin giləsinəcən açılmışdı. Əllərini həsrətlə sinəsində, belində, yupyumşaq saçlarında gəzdirdi. Öz gözəlliyinə tamaşa edən növrəstə qız elə bil ağappaq, yarıqlı gəlinlik paltarında xoşbəxtliyinin astanasında dayanmışdı. Xəyalında canlandırdığı ağ bənizli, çinar qamətli oğlana bəylik kostyumu bərk yaraşırdı. “Vağzalı” oyun havası altında onlar qol-qola girib böyük toy zalına daxil olurdular. Natəvan da ingilis əri ilə birlikdə onları təbrikə gəlmişdi. Şorgöz ingilissayağı Cek heyrətlə: “İlahi, mən kor olmuşam, qonşuluqda belə mələksimanı görməmişəm” – deyirdi. Natəvan qısqanclıqla, naz-qəmzəylə ərini süzürdü: “Əzizim, gəlinlik paltarında bütün qızlar mələyə bənzəyirlər...”. Cek nəzakətlə razılaşmır, etiraz edirdi: “Sən bir ətrafa bax, bu zalda gəlinlik paltarı geyməyən gör nə qədər mələk var!”. Çinar boylu, qədd-qamətli Əsmər bəy də nədənsə əsəbiləşirdi. Elə bil toyda iştirak edən bütün gözəl-göyçək xanımları ingilisə qısqanırdı. “Axı, mən onları toya dəvət eləməmişəm” – deyə Fidan özünə haqq qazandırdı, gileylənmək istəyəndə xəyalında canlandırdığı toy səhnəsi büsbütün dağıldı, güzgüdə yazıq görkəminə baxıb başını buladı. “Yəni doğrudanmı, belə bir oğlan hardasa var? Əlbəttə, var, ay yazıq, di gəl ki, onun sənin qismətinə yazılıb-yazılmadığını Tanrıdan başqa kimsə bilmir”.

Günlər su kimi axıb keçdi. Fidan anasının ciddi təkidinə baxmadı, min cür səbəb gətirdi, Natəvanın toyuna getməyə razı olmadı. Amma Natəvan alicənablıq

göstərdi, rəfiqəsindən buna görə incimədi. Xoşbəxtlik göyünün yeddinci qatında, qanad açıb süzən bəxtəvər gəlinin inciklik barədə düşünməyə nə vaxtı vardı, nə də həvəsi. Cekin aldığı təzə mənzilə köçüb, Antaliyada keçirdikləri bal ayından dönəndən sonra bir müddət kollecə ayaq basmasa da, Fidanla barışmağa can atırdı. Gözlə qaş arasında vaxt tapıb rəfiqəsinə səmimi bir məktub da göndərmişdi: "Biz ağır günlərin dostu-rəfiqəsi olmuşuq, toyuma gəlmədiyinə görə incimirəm, indi mənim üçün həmin gün geridə qalıb, zirzəmidə kirayədə yaşadığım illər kimi... Öz ailə biznesimi qurmaq niyyətim var, tanınmış bir iş adamı olacağıma zərrəcə şübhən olmasın. İstəyirəm sən də mənə qoşulasan, kolleci qurtarmaq, hələ qayğılardan azad olmaq demək deyil, bacım, bir də istəyirəm səni yaxşı bir adamla tanış edəm, bəlkə elə o sənin axtardığın, arzuladığın insan olacaq!.. Evimin də, ofisimin də, qəlbimin də qapıları üzünə daim açıqdır. Səmimiyyətimə inan. Yolunu həmişə gözləyən, Nata".

Hərdən hissə qapılanda özü özünü anlamırdı. Elə bil rəfiqəsinin toyuna getmədiyinə görə bir qədər peşman olmuşdu...

Anası Güləfşan xanım qonum-qonşudan eşitmişdi ki, Natəvanın əri ona toy hədiyyəsi kimi qırmızı rəngdə "Mercedes" markalı maşın bağışlayıb. "Görürsən, mən deyirdim axı, bu icdivacla o qız özünü də, ailəsini də kasıbçılığın pəncəsindən qurtaracaq!"... Kollec yoldaşları başqa hadisə uydurmuşdular: Natəvan şəhərin mərkəzində gözəllik salonu, yanında kiçik porfimeriya ətriyyat dükanı, aptek açıb. İşləri başından aşdığına görə heç kollecə də ayaq basmır. Təki ortada pul olsun. Bəziləri mənasız hərəkətlərin üstündə Natəvandan küsdüyünə görə qınayırdılar. Bəlkə də kim bilir, əvvəlki münasibət qalsaydı, indi Fidan da ən yaxın rəfiqəsinin hesabına yaxşı qazanclı işin qulpundan yapışıb imkan sahibi olmuşdu, özünü də, ailəsini də maddi sıxıntının pəncəsindən qurtarmışdı...

O isə kitab oxuyanda, yatanda-duranda, qısası, tənash qaldığı anlarda xəyalında aşiq olduğu çinarboylu, əsmərbənizli oğlan barədə düşünürdü: görəsən, həyatda qarşısında belə bir oğlan çıxsaydı, ata-anası onu həmin oğlana ərə verməyə razı olardılarmı? Bu cür fikirlər qızın yuxusunu ərşə çəkir, onu rahat buraxmırdı.

Bir gün evə gələndə isə çox qorxduğu əhvalat baş verdi. Qapının astanasında ata-anasının üzündəki məsum ifadənin təsirindən heyrətləndi, bir azdan işin nə yerdə olduğunu yaxşı anlasa da özünü o yerə qoymadı. Kirimişcə otağına keçdi, paltarını dəyişmək istəyəndə anası içəri girən kimi üzündən öpüb bağrına basdı:

- Fidan, qızım, Allah səni xoşbəxt eləsin! İlahi, sənə min şükür, ölmədik, bu günü də gördük.

Sevincdən, fərəhdən anasının gözlərinin içi də gülürdü, çölü də.

- Nə olub, ana, niyə belə pörtmüsən?

- Qızım, Allahdan gizlin deyil, daha səndən nə gizlin, onsuz açılmalıdı, atan səni əslən içərişəhərli oğlana ərə verir. And-aman edir ki, yaxşı oğlandır. Valideynləri xaricdə yaşayır, özünün ayrıca evi, maşını, işi...

Fidan bir az kənara çəkilib başını çiyninə əydi:

- Ana, ana, axı... – Fidan kövrəldiyindən nə deyəcəyini bilmirdi, dili topuq vururdu, çünki qızın şirin xəyalları alt-üst olmuşdu. Kirpiklərin qaldırıb anasına baxanda gözləri qeyri-ixtiyari yaşla dolur.

Yaşla dolu gözlərin qəm yükünə dözməyən ana qızına yaxınlaşdı, indi o da kövrəlmişdi, bir az əvvəl üz-gözündən yağan təbəssüm çəkilmişdi, əllərini irəli uzadıb Fidanın saçlarını sığalladı, acizanə yalvarışla:

- Qızım, qurban olum, biz sənin xoş gələcəyini düşünürük, sən də atanı, məni, kiçik bacını düşün! – dedi.

Fidanın boğazı qəhərdən qurudu, udqundu, özünü ələ alıb:

- Ana, axı niyə belə düşünürsüz? – deyəndə səsi yenə titrədi, amma ağlamadı, - indi iyirmi birinci əsrdi, Məşədi İbad zəmanəsi deyil, ata qızını tanımadığı, görmədiyi, sevmədiyi, xasiyyətinə bələd olmadığı bir pullu yaşlı adama ərə versin?

- Məni də sənin bu pinəçi atana ərə verəndə, nə üzünü görmüşdüm, nə də adını eşitmişdim, üstəlik, yaşı da qırxı çoxdan ötüb keçmişdi. Allaha gündə min kərə şükür eləyirəm ki, nə yaxşı, mənim qismətimə onun kimisini çıxardıb, insafən bu vaxtacan pis yaşamamışıq, heç nəyin xiffətini çəkməmişik, son günlər dəb dəyişilib, zövqlər artıb, atanın müştəriləri azalıb, dolanışıq sarıdan bir az sıxıntımız var, inşallah, yenə hər şey düzələr, pis günün ömrü az olar...

Fidan səsinin ahəngini qaldıra bilmirdi, çünki yan otaqda atası həmişəki adəti üzrə televizorun qarşısında oturub kriminal xəbərləri dinləyirdi: kimsə öz doğma qızının bədəninə on yeddi bıçaq zərbəsi vurub öldürmüşdü, başqa birisi narkotik maddə satarkən yaxalanmışdı, yetmiş yaşlı bir kişi isə ov tüfəngiylə intihar edib özünü öldürmüşdü. Aparıcı anonslardan sonra kriminal olayların ətraflı şərhinə başladı.

Fidan başını buladı:

- Ay ana, sən nə danışırsan, sizin zəmanədə adamların bir-birinə etibarı vardı, indi tamam fərqli zamandı, yalançılar, riyakarlar o qədər artıb ki... bəlkə xarici görünüşü atamın xoşuna gələn o adam daxilən şikəst, bəlkə də nadürüstün biridir, atamın qılığına girməyi bacarıb?

Güləfşan xanım səsini lap yavaşıtdı:

- Allah eləməsin qızım, gül kimi oğlandı, atan adam sərrafdı, belə məsləhət bilir, o ailənin başçısıdır, nə desə odur. Biz onun əksinə gedə bilmərik, - oğlan zəng edib valideynlərinə bildirib, tezliklə xaricdən gəlib, sənə elçi düşəcəklər.

- Könlün istəməyən adama ərə gedincə ata evində qız qarımaq məsləhətdir...

- Ağlını başına yığ qızım, indiki zəmanədə hər qızın qapısını elçi döymür. Atan o adama kişi sözü verib, özün də yaxşı bilirsən, onu dediyi sözdən daşındırmaq asan deyil, ən çətin anımızda, bu evi satmağa razı olmadı, qeyrəti götürmədi, halbuki satsaydı, biz də başqaları kimi şəhər kənarında ev alıb, pulun artığına sizi bəy balası kimi dolandırardıq. Amma bir kəlmə kişiyanə söz dedi, üstündə də durdu: “Bu ev mənə atamdan qalıb, məndən də övladlarıma qalacaq...”Ağladım, yalvarıb-yaxardım, ay kişi, göz qalıb bu evin dalınca, o vaxt şura hökuməti mülkün sahibindən halallıq-xoşluq almayıb, bədbəxt tərki-vətən olub, yad ölkələrə düşüb, ona görə də o boyda hökumət də dağıldı, burda yaşayanların da hərəsi bir tərəfə köçüb getdi, bu yerin xeyrini heç kim axıracan görmədi. Di gəl, “iki ayağını bir başmağa dirədi”, atanı yola gətirə bilmədim ki, bilmədim.

Fidan bayaqdan söykənib, çinar ağacına baxa-baxa dərin xəyala dalmışdı. Daha anasının danışdıqlarının fərqində deyildi; nə vaxtsa gördüyü qəribə yuxunu dumanlı şəkildə xatırladı, o yuxuda ağ gəlinlik paltarını köksünə sıxan qaraqaş,

qaragöz bir qız ağlayırdı. Onun qolundan tutub zor-xoş faytona mindirirdilər. Qız nəmli kirpiklərini ağır-ağır qaldırıb həsrətlə atasının cehiz verdiyi yaraşıqlı malikanəyə baxırdı. Onun ailəsi bu məmləkətdən, bu şəhərdən baş götürüb getməyə məhkum idi. Qızsa köksündən qopan yanıqlı səslə taleyini pıçıldayırdı: "İlahi, kaş mənim bu şəhərdə rahat yaşaya biləcəyim hisli-paslı kasıb bircə daxmam olaydı". Görkəmindən, çöhrəsindən öz aqibətini heç bir qıza arzulamayan bir ifadə vardı. Hamının bəxtəvər sandığı o milyonçu qızı sanki illərin o üzündən indi də hərarətlə Fidana boylanırdı. O qəmli baxışlarıyla Fidana sanki nəsə demək istəyirdi.

Qız gah Natəvana oxşayırdı, gah da elə Fidanın özünə. Eynən Natəvanın səsiylə tez-tez danışır, bir ucdan uydururdu: "Yaxşı fikirləş, unutma ki, sən milyonçu qızı deyilsən, oğlanlar dərdindən dəli-divanə olsunlar, naşükürlük eləmə, Fidan, qismətinə çıxan oğlandan üz döndərmə!". Yox, yox deyəsən, bu, həmin qız deyildi. Əslində onların heç birinin oxşar cəhətləri yox idi.

Fidan həyatında baş verəcək arzuolunmaz, mənasız "toy-nişan" əhvalatından savayı heç nə barədə düşünə bilmirdi. Ciddi ailə qayda-qanunlarına kor-koranə tabeçilik onu bezib-usandırsa da ayrı çıxış yolu tapa bilməməsi bir o qədər əzabverici idi. Sanki qaranlıq, dar bir dalana sıxışmışdı, hara gedəcəyini müəyyənləşdirməmişdi. Həyatının, taleyinin bu həlledici anında qərar vermək iqtidarında olmaması qəlbində inanılmaz işgəncəyə çevrilmişdi.

Elə bil havası çatmırdı. Tez-tez eyvana çıxıb dənizə sarı boylanır, ümman dərdinə ümmanlardan əlac umurdu. Günəşin rəngbərəng şüaları altında bərq vuran sular Fidanın dərdindən xəbərsiz-ətərsiz sayrışırdı. Əslində qanı qaralan adamın dənizi seyr etmək, sahilyanı bulvarda gəzib-dolaşmaq əhvalını duruldurdu. Fidanınsa lil,-- ovqatı durulmur, qəlbində atasını qınayır, - axı niyə bu addımı atdı, - düşünürdü.

Məgər atam-anam bilmirlər ki, ehtiyac üzündən qızlarını ağına-bozuna baxmadan ərə verən valideynlərin sonrakı peşmançılıqları daha ağır olur?! Atasına tərəddüd içində haqq qazandırdı, vaxtında mənzillərini satsaydı, bəlkə onu belə tələm-tələsik, tanımadığı adama ərə verməyə razı olmazdı. Amma daha gec idi,

ehtiyac boğaza çökmüş, iş-işdən keçmişdi. Atasının verdiyi sözdən dönməzliyini dərk edirdi. Köhnə kişilərdə verilən söz qanun qədər güclü, “Quran” ayəsi qədər müqəddəs olur. Həyat Fidan üçün gözlənilməz, qəribə sürprizlər hazırlayırdı. Təki Allah axırın xeyirə calasın.

- İnsan yaşa dolduqca daha çox keçmişiylə yaşayır, nəinki gələcəyilə - anası qızının ürəyindən keçənləri dalğın baxışlarından, əzgin-yorğun duruşundan oxumuşdu...

“Desənə mən öz gələcəyimi atamın keçmişinə qurban verməliyəm”. Anası kimi Fidan da yaxşı başa düşürdü, atası ilə mübahisə etməyin heç bir faydası və mənası yoxdu...

- Ana, o oğlanı atam hardan tanıyır?

- Atanın daimi müştərisidir, deyir həmişə təzə ayaqqabılarının dabanını düzəltdirmək üçün yanıma gələndə ordan-burdan söhbət edərdik. Necə olubsa, ortaya söz düşüb, məsələ açılıb, kişinin qılığına girib, etibarını qazanıb. Atan da köhnə kişidir bala, uşaq deyil, yaxşını yamandan ayırmaqda pərgardır. Ata-anası xaricdə yaşadığından tifil mehrini atana salıb, hətta ona “atam” deyə müraciət edib... Bu xaric söhbəti də çox yerinə düşdü, kimdən əskiksən, Natəvan kimi sən də bal ayını başqa ölkədə keçirərsən. Lap kinolarda olduğu kimi...

Fidan dodaqaltı acı-acı mızıldandı:

- Zəhər qədər acı dadan bal ayını...

- Ananın hər sözünə istehza etmək sənə yaraşmır, qızım. Belə məyus olmaq sənə yaraşmır. Bəlkə hər şey düşündüyümüzdən qat-qat yaxşıdır.

Yeniyetmə çağlarından tez-tez eşitdiyi “Fidan çox ağıllı qızdır, tərbiyəlidir, qanacaqlıdır” kəlmələri valideynlərlə pərdəni aradan götürməməyə vadar etmişdi. Ona görə döyüşdə məğlub olacağını qabaqcadan bilən əsgər kimi ağ bayraq qaldırmağa məcbur idi:

- Nə deyirəm, təki siz məyus olmayın, ana, təki kürəkən seçimində yanılmayasınız.

-İnşallah, yanılmarıq.

Qızın həyəcanı-filanı bir yana, həftə çəkmədi ki, oğlan evindən elçilər gəldi. Fidan məsələnin üstünü vurmadı, heç nə bilmirmiş kimi öz otağına çəkildi. Anası qəribə təlaşla canfəşanlıq etdi:

- Ay qızım, dur, hazırlaş, qonaqlar səni gözləyir. Hələ saçlarını düzəltməmisən, bəzənib-düzənməyin xeyli vaxt aparacaq.

Fidan elə bil ağır yuxudan ayıldı; könülsüz ayağa qalxıb tələsmədən üst-başını dəyişməyə başladı.

- Oğlan özü də gəlib. Adı Əfqandı. Boylu-buxunlu, yaraşıqlıdı. İnanıram ki, sən onunla xoşbəxt olacaqsan.

Fidan başını aşağı salıb cavab vermədi, qalan işləri taleyin ixtiyarına buraxdı, daha ayrı yol yoxdur. Qoy valideynlərinin istədiyi kimi olsun! Bəlkə də sevdiyi adamın obrazını xəyalında yaratmasaydı, yeni həyatında tanıdığı sevdiyi olsaydı, özündə cəsarət tapıb, iki ayağını bir başmağa dirəyər, tanımadığı adama ərə getməyə razılıq verməzdi.

O gün nişan xonçalarında gələn allı-güllü paltar dəstlərini, qızıl-ziynət əşyalarını görəndə ana sevincini gizlədə bilmirdi. Fidan üçün isə ən təəccüblüsü Əfqanın – nişanlandığı oğlanın qız kimi bəzənib-düzənməsi, ətirlənməsi idi. Ağzını açıb salam verəndə qızıl təbəqə çəkilmiş ön dişləri parıldayan bu oğlan boynundan zəncir asmış, bir qoluna qızıl saat, o birinə qolbaq taxmışdı. Barmağında brilliant qaşlı üzük vardı. Zahirən zərgərlik mallarını reklam eləyən müqəvva-adama bənzəyirdi. Təkəbbürlə, özündənrazı halda tez-tez başını tərpədib: “Bəli, xeyr, baş üstə...” deyirdi. Bəydən tamam fərqli görünən ata-anası sadə kənd adamına bənzəyirdilər, sanki xaricdə deyil, paytaxta yaxın kəndlərinin birində yaşayırdılar. Həyəcanlı olduqları gözlərindən oxunurdu. Özlərini milli adət-ənənənin tələb elədiyi şəkildə aparmağa cəhd etsələr də alınmırdı. Ancaq yeganə oğullarına sərbəstlik verdikləri ilə öyünür, buna müasirlik donu geyindirməyə çalışır, gələcəkdə bütün işlərin gedəcəyinə vəd edirlər... Üstəlik artıq cer-cehizə - xüsusilə mebellərə ehtiyac olmadığını bildirirdilər. Əslində ata-analıq ortada heç nə qalmamışdı. Elçiliyi oğlan özü eləmişdi.

Həmin gündən Səlimzadələr ailəsində toya ciddi hazırlıq başladı.

Əfqan dil boğaza qoymurdu, deyirdi ki, valideynləri toydan sonra yenə xaricə dönəcəklər.

* * *

Gəlinlik paltarını birtəhər geyinib, güzgüdə əksinə baxa-baxa fikrə getmişdi. Bu libası əyninə geyən andan sevinc hissini itirən, qəlbi qana dönən onun kimisi həyatda varmı görən? Düşünürdü ki, nəinki ərə getdiyi adam, heç gəlinlik paltarı da öz seçimi deyil.

Hamı heyranlıqla baxırdı.

- Ağ gəlinlik donuna ağ göyərçinə oxşayırsan, Fidan... – bacısı söz atdı.

- Hə, hə, göyərçinə, özü də qanadları sınmış, bir daha uça bilməyəcək yaralı ağ göyərçinə - deyə pıçıldadı.

Qəlbindən gələn səs ona deyirdi: “Get, Fidan, get. Arxana baxmadan irəli addımla. Tanrı belə buyurub. Bu sənin nəsibi-qismətindi, qismətdən artıq yemək olmaz. Valideynlərinin sevinci aşıb-daşır, həyəcan keçirirlər, səni xoşbəxt görmək istəyirlər, get... get özünü naza qoyma, ələ al...”

... Pilləkənlərlə dalğa-dalğa yuxarı qalxan “Vağzalı”nın zahirən sehrli xeyir-duası qızın duyğularını tarıma çəkir, ovsunlayırdı. Musiqiçilərin çaldığı melodiyaya dənizdən əsən meh də qatılmışdı. Kiminsə əlləri onun belinə toxunurdu. Qırmızı lent əfi ilan kimi belinə dolanırdı. Başını qaldırıb üzbəüzdəki güzgüyə zəndlə baxdı. Nəhəng aynada onunla çiyin-çiyinə qəflətən yenə xəyalında yaratdığı çinar boylu, əsmərbənizli oğlan peyda oldu; qəmli baxışları Fidanın gözlərinə dikilmişdi, bu baxışlar onu əhdə vəfasızlıqda qınayırdı... Fidana “qayıt, getmə” deyirdi...

Fidansa yalnız ruhların eşidə biləcəyi pıçıltılı xəyalla söhbətə macal tapmışdı:

- Həyatımın mənası itib. Mən bunu dərk etdiyim andan nigaranam. Qoy bu, mənim son dəfə axmaq – tez də peşman-peşman sözünü dəyişib – yox, yox, bal

kimi şirin düşüncələrə dalmağım olsun. Sən axı harda qaldın, varmısan, yoxmusan? Bəlkə heç mən yaşadığım zamanda yaşamırsan? Mənmi erkən doğulmuşam, ya sənmi gecikmisən? Yoxsa sevib-sevilmək dönük taleyimin qismətində yoxmuş? Bəs qəlbimdə baş verən, kükrəyən, çağlayan ümman nədir? Bəlkə doğrudan da düz deyirlər, məhəbbət insana əzabdan, iztirabdan savayı heç nə vermir. Elə isə sevgi-məhəbbətlə özünü yormağın faydası varmı? Sən nə düşündüyünün fərqində deyilsən, Fidan! Bir halda ki, sənin nə "yox", nə də "hə" deməyə iradən çatmır, onda sevib-sevilmədən də yaşamağa məhkumsan... Bu ki ölüm deyil, əlvida, əsmərbənizli xəyali sevgilim...

Pilləkənlərlə aşağı enən zaman yenə o qız gəldi gözlərinin qabağına – yüz il əvvəl atasının cehiz kimi hədiyyə etdiyi bu malikanəyə gəlin gələn zəngin talesiz, bəxtsiz gözəl. Ayrı-ayrı əsrlərdə yaşayan iki gəlin qızın mərmər pilləkənlərə tökülən göz yaşları bir-birinə qarışmış, Fidanı zamansızlığın sərhədlərinə gətirib çıxartmışdı...

Binanın həyətində bir faytona, digəri müasir dəbə uyğun ağ limuzinə əyləşən gəlinlərin yanaqlarına süzülən göz yaşlarının sirrini yalnız özləri bilirdilər, bir də Allah! Tale eyni havanı çalırdı, təkcə zəmanə, dövr başqa başqaydı.

* * *

Toy mərasimi böyük təntənə ilə başladı, bəylə gəlinə mərasim iştirakçılarının alqış sədaları altında nigah şəhadətnaməsi təqdim olundu, piramidasayağı düzəlmiş badələrdən şəlaləni xatırladan şampan şərabı daşdı, fişənglər atıldı, havada rəngbərəng şarlar içuşdu. Müğənni evlənən gənclərin şəninə mahnı oxuyandan sonra bəylə gəlin onlara aid olan guşədə oturub toya gələnləri seyd edirdirlər. Birdən Fidan Ceklə Natəvanın onlara yaxınlaşdığını gördü. Düzü, Natəvandan bunu gözləmirdi. Onlar yaxınlaşıb mərasimin əsas sahibkarlarını təbrik etdilər. Natəvan Əfqanın üstündə gəzdirdiyi qır-qızıla işarəylə:

- Ay qız, qızıl kimi oğlandır, beləsini hardan tapıbsan? Vallah, göz dəyməsin lap səyyari zərgərlik mağazasına oxşayır... Bir-birinizə çox yaraşırsınız. Çalış bu səadət quşunu əlindən buraxma söylədi.

Ağ gəlinlik paltarında Fidanın həyadan qızaran üzü od tutub yanırdı. Yalnız Natəvanın eşidə biləcəyi tərzdə:

- Bu səadət quşunu mən yox, atam tapıb...

- Daha əvvəlki şıltaqlığından, yersiz qürurundan, quru-quru forsundan əl çək, atan tapıbsa, minnətin olsun, sən qorumalısan, Allaha şükür elə, hər qızın tale gəmisi təsadüflər dənizində yelkən açmır. Bunu yaxşıca dəyərləndirmək, qiymətləndirmək lazımdır. Biz bu axşam təyyarə reysiylə Londona yola düşürük. Cek məni öz valideynləri ilə tanış etmək üçün aparır. Sağ əlim sənin başına... Vallah, nə görübsən ey, bu qotur şəhərdə, çıx dünyanın seyrinə, gəz-dolan, eşitdiyimə görə Bəydadaşın valideynləri Almaniyada yaşayırlar.

Bir-iki dəqiqə ərzində dərənin suyunu qatdı bir-birinə. Görkəmi, qiyafəsi azca dəyişsə də xasiyyəti dəyişməmişdi, elə həmin Natəvan idi, anası demişkən, canı yanmış od parçası idi.

Natəvangil ayaqüstü təbrikdən və hərəyə bir qurtum şampan şərabı içəndən sonra çıxıb getdilər. Elə bil toya yox, rəfiqəsinə xaricə getmək xəbərini verməyə gəlmişdi. “Bax, Fidan xanım, görürsən ki, mən öz seçimimdə yanılmamışam. Sən isə Cekə ərə getməyimə görə məni qınayırdın, hələ bu bir yana, üstəlik məni “persona non qrata - arzuolunmaz şəxs hesab etdin. Toyuma gəlmədin, məni qınaq hədəfinə çəkirdin, amma mən sənin toyuna da gəldim, kimliyimi də sübuta yetirdim...”

Bir azdan bəylə gəlin rəqsə dəvət olundu, hamı onlara qoşuldu.

Kino ulduzlarına bənzəyən Əfqan özünü elə aparırdı ki, guya çoxdan arzusunda olduğu vüsal anının bir addımlığındadır, o, Fidanın iri qara gözlərinə aşiqanə nəzərlə baxmaqdan yorulmur, kameraların qarşısında qalibanə təbəssümlə məğrur-məğrur gülümsünürdü. Amma nədənsə heç kəsin nəzərindən qaçmadı, bəylə gəlin masa arxasında bir-biri ilə kəlmə kəsmədikləri kimi rəqs zamanı da dinib-danışmamaları. Burda hər kəs öz aləmində idi, bu

qeyri-adi aləmdən çox-çox uzaq bir aləmdə. Onlar yad adam kimi oturmuşdular. Sanki aralarında sərhəd, keçilməz sədd vardı. Bu məftil çəpəri keçməyə gücü çatmayan Fidan gecikmiş suallarla hələ də özünü dinc qoymurdu. "Fidan, sevmədiyin, tanımadığın adamla bir ömrün tarixini necə yaşayacaqsan?".

Anasının səsi gəldi qulaqlarına: "Atan köhnə kişidir bala, yaxşını-yamandan ayırmaqda təcrübəlidir... Natəvan kimi sən də bal ayını xaricdə keçirərsən, yağ bal içində, lap kinolarda olduğu kimi...".

Toy mərasimi başa çatandan sonra bəylə gəlin şadlıq sarayından birbaşa üçotaqlı, yaraşıqlı, təmirli mənzillərinə yollandılar. Əfqan deyirdi ki, mənzilə toyqabağı yenidən əl gəzdirilib, bütün əşyalar təzələnib, amma burada – bu bərli-bəzəkli, mebelləri par-par parıldayan evdə Fidan elə bil iynə üstündəydi, qorxulu yuxu görürdü.

Əfqan özünü azacıq artistsayağı, sərxoşluğa vurmuşdu, təklikdə isə ona şikarını tələyə salmış aslan kimi baxırdı.

Fidanı fikir götürmüşdü. "Deməк, burada – bu divarlar arasında mən onunla, tanımadığım, sevmədiyim insanla birgə yaşamağa məhkumam...".

Əfqan tələsik əlindən tutub otaqları bir-bir göstərdi, sonra sevgilisini yataq otağına apardı. Fidan bu isti süni qılığa öyrəşə bilmirdi, istəyirdi desin, burax əllərimi, dayan, mən səni düz-əməlli tanımaq istəyirəm. Hələ bir az özündən danış. Bu evlilik o qədər ildırım sürətiylə baş verdi ki, bir-birimizi yaxından tanımağa imkan tapmadıq. Amma elə bil səsi içində qırılıb qalmışdı. Ha çalışdı, məhbəsdə doğulan səsini azadlığa – bayıra çıxarsın, bacarmadı. Əfqanın kefi kök idi, tez-tez onu qucaqlayır, dodaqlarını, boyun-boğazını öpüşlərə qərq edirdi. Hansı qüvvəsə onu tələsdirirdi, sanki Fidan bu dəqiqə onun qolları arasından çıxıb harasa naməlum bir istiqamətə qaçacaqdı. Şikarını buraxmaq istəməyən, itirəcəyindən qorxan aslan kimi qızı özünə tərəf var gücüylə sıxdı.

Az qala nəfəsi kəsilən qız zorla oğlanın qolları arasından çıxıb:

- Dayan – dedi, - yavaş ol, əllərini çək, mən... mən... qorxuram. Birdən Fidanı ağlamaq tutdu, üzünü əlləri ilə tutub o biri otağa qaçdı. Ər-arvad, kişi-

qadın münasibətləri barədə yalnız kitablarda oxumuşdu, televizorda izlədiyi teleseriallardakı intim epizodlara baxanda isə həmişə daxilən həyəcanlanmışdı. Nə qədər həyatda təcrübəsiz olsa da, bu cür yanaşmanı bir qeyri-anormal, vəhşi əlamət sayırdı.

Hər şey daha gözəl, daha zərif, romantik ola bilərdi. Fidanın təcrübəsizliyini, keçirdiyi həyəcan hissini nəzərə almayan Əfqanın davranışı açıq-aşkar kobudluq idi: "Axı, o, mənimlə mülayim, incə davrana bilərdi, bəlkə bunu ondan mən tələb etməliyəm?".

Gecə ağır olsa da Fidan sabahın açılmasını heç istəmirdi. Bilirdi ki, belə bir gecədə nəzakət qaydalarına əməl etmək vacib deyil. Ta bineyi-qədimdən qalan adətə görə zifaf gecəsinin səhəri gəlin köçən qız həm öz doğmalarına, həm də oğlanın yaxınlarına bir növ hesabat verməlidir. Bütün bunları bilən Fidan düşünürdü ki, sabah evə gələn adamlara nə deyəcək, onu yəqin suçlayıb günahkar sayacaqlar.

Əfqan sakitcə otağa keçib televizorun pultunu basdı. Özünə şərab süzdü.

- Bəlkə sən də bir qədəh içəsən, cəsarət dərmanı kimi...

- Mənim dilimə bu günədək spirtli içki dəyməyib.

- Belə məqamda bu böyük qəbahət sayılmır, sadəcə bir qurtum...

- Buna ehtiyac yoxdu, sən mənə azca vaxt ver...

Əfqan əsəbiliklə qədəhini son damlasınacan başına çəkib kükrədi:

- Mənə yaxşı bax, vaxt istəməyini başa düşmədim. Əgər başqa səbəb olmasaydı, boş-boş bəhanə gətirməzdin, sabah səni həkimə aparacağam...

Bu sözlər güllə hədəfə dəyən kimi Fidanı qəlbindən yaraladı. Belə məqamda daxili təmkinini qorumağı bacarmaq, heysiyyətini alçaltmamaq asan deyil.

- Bu nə sözdü ağzından çıxardırsan? – dedi, əvvəl kövrəldiyindən nə söyləyəcəyini bilmədi. Əsəbiliklə fatasını başından atdı, hələ indiyə kimi onun mənliyini bu şəkildə yerə vuran olmamışdı. Əslində bu təhqirə görə Əfqan cəzalanmalı idi. Ən azından Fidan ondan da, onunla başlayan bu yeni həyatdan da üz döndərib gedə bilərdi. Evlilik həyatının ismətinə, namusuna böhtanla başlaması, mənliyinin, heysiyyətinin bu dərəcədə alçalması qızın qəlbini

parçalamış, ruhunu öldürmüşdü. Amma ağlı indi hər zamankından iti işləyirdi. Toy gecəsi ata evindən qayıdan qız haqqında eşidənlərin nələr uyduracaqlarını, hansı söz-söhbətin çözələnəcəyini bilirdi və təmiz adını qorumaq naminə ağlını qəlbinin yarasına məlhəm qoyub, özünü ələ aldı. Daxilindəki təlatümlü üsyanı soyuqqanlıqla yatırıb sakitcə libasını soyundu. Onun hərəkətlərinə heyranla baxan ərinin qarşısında başını cəllad kötüyünə könüllü qoyan qurbanlıq kimi şəstlə dayandı:

- İstədiyin budurmu? Sevdiyin qızın bədəninə sahib olmaq çox asandır, qəlbinə, ruhuna həmişəlik sahib olmaq isə qəhrəmanlıqdır. Hər qız ailə qurduğu oğlanı qəhrəman görmək istəyir, bu arzuyla yaşayır və arzusuna çatmaq üçün canından keçməyə razı olur. Mən də o qızlardan biriyəm. Amma ilk gündən arzumu öldürdün, muradımı başa çırpdın. Məni məyus və peşman etdin.

Əfqan gözləri qamaşa-qamaşa onu ehtirasla bağrına basdı:

- Dediyim sözlərə görə dönə-dönə üzr istəyirəm, bağışla, məni...

Fidan gözlərini bərk-bərk yumub özünü sevmədiyi kişiyə təslim etdi. Zorlanmış qadın hissiyyatı ilə acı göz yaşlarını tökdüyü qəlbi köksünü yandırıb-yaxırdı: “Deyəsən, lap mən özümü axmaq, avam, yüngülxasiyyət qızlar kimi apardım?!”. Bir az əvvəl ağır təhqirə məruz qoyduğu büllur kimi saf, təmiz bir qızdan böyük mükafat almış bəysə uşaq kimi sevinir, gözlərini yumub-açır hələ də: “Məni bağışla, əzizim, - deyirdi, - xətrinə dəydim, inan ki, bu zəhrimar içkinin təsirindən oldu, bağışla, bağışla, günahımdan keç”...

İnsan çiy süd əmib, bəlkə o, özünü doğrudan da günahkar sayırdı. Amma söz ağızdan çıxmışdı, daha Fidan yaralı ceyrana dönmüşdü, o buna inanmırdı və evlilik həyatının böhtanla başlamasına görə heç vaxt nə onu, nə də özünü bağışlamaq niyyətində deyildi.

Əslində həyatının ən müqəddəs varlığı saydığı qızlığını zorla təslim elədiyi Əfqana qarşı qəlbində kin və nifrətdən savayı heç nə qalmadı.

* * *

Toydan heç bir ay keçməmişdi ki, evə uzun-uzadı zənglər gəlməyə başladı. Qəribə də olsa telefon açanların çoxu qadınlar idi, kimisi həyəcanla, təlaşla Əfqanı soruşur, kimisi nömrəni səhv yığdığına görə üzr istəyir, kimisi də acıqla "yaxşı, yaxşı" deyirdi. Bəzən zəng edən şəxs susur, Fidanın səsini eşidən kimi dəstəyi yerinə qoyurdu.

Bəs qadınlar, görəsən, Əfqanı niyə axtarırlar? – deyə Fidan düşünürdü, - bəlkə eyni şirkətdə işləyirlər, yox, axı, o hər gün işə gedir, üstəlik, mobil telefonu da var, bəs niyə məhz evə zəng edib, onu dəng edirlər? Bəlkə mənimlə evlənənə qədər həyatında başqaları olub? Fidan zifaf gecəsini xatırladı. Sanki bu fərziyyəsi qəlbinə toxunmuş kimi tez də fikrini dəyişdi: "tutalım, olubsa, belə mənim nəyimə lazımdı, onu qısqanmağı özümə ar bilirəm". Ona təəccüblü gələn o idi ki, əgər həqiqətən Əfqanın xətrini istəyirlərsə, demək bu adamın hansısa yaxşı keyfiyyəti var, yoxsa qadınlar onunla canfəşanlıqla dost olmağa, ya da dərin münasibət saxlamağa can atmazdılar!?.. Zənglərə cavab verməkdən o qədər bezmişdi ki, telefonu saatlarla xəttdən ayırırdı.

Bir gün Əfqan evə gələndə cavan gəlin özünü o yerə qoymazdı:

- Biz bir-birimizə sanki yadıq, özgəyik – dedi, mən sənin nə işlə məşğul olduğunu deyə bilmərəm. Bu necə biznesdir ki, ailədən sirr kimi gizli saxlayırsan?

Onun sualına cavab vermək əvəzinə Əfqan yağlı dilini işə saldı:

- Canım-gözüm, bankdan böyük miqdarda pul götürmüşəm, amma şirkətdə işlərimi genişləndirmək üçün bu məbləğ azlıq edir, bu mənzili banka girov qoymuşam, ona görə sata bilmirəm. Əgər istəyirsən hər şey qaydasında getsin, atan, anan razı olsun o evi yaxşı pula satıb, onlara mərkəzdən nisbətən kənar bir yerdə mənzil alım, qalan pullara da yaxşıca ailə biznesi quraq. Onlar da xeyir götürər, biz də...

Fidanın ağlı başından çıxdı:

- Sən nə danışırsan?! O ev atama babamdan yadigardı. Ən ağır vaxtlarında, hətta mənim təhsil haqqımı ödəməyə imkanı olmadığı çağlarda da atam mənzili nə satmaq, nə də kirayə vermək fikrinə düşdü...

- Onda neynək, bir müddət tək qalmalı olacaqsan, mən xaricə gedirəm, görüm, bizimkilərdən daha nə qopara bilərəm.

Aradan bir müddət keçdi, Əfqan dediyi kimi bir neçə dəfə xaricə gedib-gəldi.

Bir gün:

- Mən kişini zor-xoş razı sala bildim, onsuz da bu gün-sabah biləcəksən, xahiş edirəm, bu işə sən mız qoyma... Mənim planlarımı pozma. Onlara ev almaq üçün xeyli məbləğdə pul da vermişəm...

Fidan qulaqlarına inana bilmirdi. Atası buna necə razı olmuşdu? Əfqan atasının etibarından, xeyirxahlığından sui-istifadə etmirdimi?

Dünya Əfqanın vecinə deyildi, özünü fövqəladə bir işi uğurlu həll etmiş adam kimi şən aparırdı. Şit-şit, arsız-arsız hırıldayır, ağzındakı qızıl dişləri bərq vururdu.

Onun yüngül davranışına, özünü apara bilməməsinə Fidan əsəbiləşirdi. Anasına zəng vurdu.

- Hər şey qurban olsun sənin qara gözünə, qızım, iş-işdən keçib, kişinin saqqızını necə oğurlayıbsa, satılan günəcən heç bizə də bir kəlmə deməyib.

- Nə, ev satılıb?!

- Hə, bu gün-sabah burdan köçürük. Bəs Əfqan bu barədə sənə deməyib? Mənzil həngaməsindən sonra Əfqan evə az-az, yalnız yatmağa gəlirdi. Çox vaxt qonaq otağındakı divanda yıxılıb yatırdı. Deyəsən, Fidanla üz-üzə gəlməkdən çəkinirdi. Soruşanda: "İşim başımdan aşır, zarafat deyil, böyük şirkət açıram" – deyirdi.

- Bilmirəm, amma mənə elə gəlir ki, nəyisə gizlətməyə çalışırsan.

- Mənim işlərimə qarışma – deyə Əfqan ona acıqlandı.

Əgər Fidan işin çürüyünü çıxartsaydı, mübahisəni dərinləşdirsəydi, yəqin əl də qaldırmaqdan çəkinməzdi.

Hamiləlik dövrünün xeyli hissəsini xəstəxanada keçirən Fidanın da ərinin üzünü görməyə gözü yox idi. Uşağın dünyaya gəlişi belə aralarındakı soyuqluğa son qoymadı.

Əfqan ortada yaranmış bu süni soyuqluqdan sui-istifadə edib subay oğlanlar kimi gəzib dolanır, günlərlə evə gəlmirdi. Elə bil onun üçün ailəli olmağının elə də əhəmiyyəti yox idi. Fidan gələcəyindən, taleyindən bərk nigarançılıq keçirirdi: "İlahi, rəhm et, mənim ailə həyatım səhvlər üzərində qurulub, bu səhv addımlar, qərarlar nə vaxta kimi davam edəcək? Bəlkə bu uşağı dünyaya gətirməklə daha bir səhvə imza atdım?".

Cavabsız sualların məngənəsində sıxıldıqca özünə də, həyatına da ona bu həyatı bəxş edənlərə də nifrət edirdi.

Bir dəfə Natəvan hirsli-hirsli zəng edib, Əfqanı hansı restorandasa cavan bir xanımla göründüyünü bildirdi: "Bu dünyada nə ideal sevgi var, nə ailə, Fidacan, belə şeyləri özünə dərd eləmə, vaxtın olsa, məni ara, gəl görüşüb dərdləşək...".

Fidanı yenə fikir-xəyal əsir-yesir eləmişdi, bir kimsəylə dərdləşmək fikri yox idi. Valideynlərinin onun bu məhbəs həyatından xəbər tutub, narahat olacaqlarından qorxurdu. Hər şeyi amansız taleyin ixtiyarına buraxmışdı, dönük bəxt isə xoş gələcək vəd verməkdən deyəsən, qaçırdı.

Bir payız günü Əfqan yenə adəti üzrə səfərdə idi. Fidan oğlunu yatızdırıb televizora baxırdı, ailədə, ərlə arvad arasında baş verən narazılıqlardan bəhs edən veriliş gedirdi. Gənc bir qadın narkotikə batağlığına yuvarlanan, əri tərəfindən aldadıldığını, iki körpə uşaqla kirayədə yaşadığını ürək yanğısıyla söyləyir, zarın-zarın ağlayırdı. Bir ağbirçək ana övladlarından giley-güzar edirdi, xəyanətdən, dönüklükdən danışdıqca canlı efirdə emosiyalar qızışırdı. Sarışın aparıcı qız da dərdlərinə əlac axtaranlara tez-tez "dərdini bizə danış, çünki sən tək deyilsən" deyə həyəcanla təsəlli verirdi: "Böyük hind yazıçısı Taqorun təbirincə desək, Dünya həyatı bütün insanların itirdikləri məhəbbətin hesabına zənginləşir... Qoy gölü görməyə gözləri olanlar tikanı da görsünlər...".

Bu zaman Fidana elə gəldi ki, aparıcı qız onu və ekran qarşısında oturan onun kimiləri nəzərdə tutur. Deyirlər dünyada dərdsiz insan yoxdur, görəsən, doğrudanmı, belədir?

Görünür, hər kəs həyatda bir dəfə ağılsızlıq edir, sonra ömür boyu ya ağılsızcasına atdığı addımın bəlasını çəkir, ya da bütün həyatını səhvini düzəltməyə - doğru yol axtarmağa sərf edir. Həyat yollarında büdrəmək hələ yıxılmaq deyil, amma hər yıxılanın ayağa qalxma ehtimalı da olmur.

Telefon zənginə düşüncələrdən ayrıldı. Dəstəyi qaldırıb:

- Bəli, - dedi, - eşidirəm.

Telefonun o başındakı səs xırıldadı:

- Salam, Fidan xanım, necəsiniz? Yəqin Siz də mənim kimi "Sən tək deyilsən"ə baxırsınız? Baxırsınız, öz uğursuz taleyiniz barədə düşünürsünüz! Elə mən də sizi düşünürəm, demək istəyirəm ki, siz tək deyilsiniz, Fidan xanım! Axı siz həqiqətən o adamın ucbatından çəkdiyiniz iztirablara layiq deyilsiniz.

- Yaxşı, deyin görüm, axı siz kimsiniz dərdimə şərik çıxırsınız, adımı hardan bilirsiniz?

- Sizi sevən bir kəs...

- Ailəvi olduğumu bilə-bilə bu nə sözdü işlədirsiniz, qorxmursunuz? Heç, nə qədər böyük qəbahət işlətdiyinizi bilirsiniz? Xahiş edirəm, bir daha bura zəng etməyin!

- Mən sizdən heç nə istəmirəm, xahiş edirəm, bir az məni dinləyin!

- Axı siz kimsiniz, niyə sizi dinləməliyəm?

- Adım Röyaldı.

Fidan bir andaca Röyal adında kimisə tanıyıb-tanımadığını xatırlamağa çalışdı: "Röyal kimdir, mənim belə bir tanış-bilişim yoxdu, axı?".

- Tanımırsınız məni, məhəllədəki tay-tuşlarım məni sadəcə, Qarabala çağırırlar... Uzaqdan görüb-tanımadığım bir qadının, yaxından tanıyıb-bildiyim bir fırıldaqçıyla yaşaması sadəcə əzab verirdi mənə. Sonra o gözəl qadına elə uzaqdan-uzağa dəlicəsinə vuruldum, onu düşdüyü tordan xilas etməyi qərara

aldım. O qadın sizsiniz! Evliykən tənha qadının taleyini yaşamaqdan bezmədinizmi, Fidan xanım? Mən sizinlə görüşüb söhbət etmək istəyirəm.

- Ay oğlan, deyəsən, ünvanı səhv salmısınız, burda nə sevdiyiniz qadın var, nə də görüşüb ürəyinizi boşaltmaq istədiyiniz başqa bir kəs...

Sözünü qurtaran kimi dəstəyi yerinə qoydu. Dərhal da qəlbini təəssüf hissi bürüdü: "Qarabala? Onu tay-tuşları niyə belə çağırırlar? Bəlkə əsmərbənizli olduğuna görə?! Bütün bunlar adicə təsadüf ola bilər, yalnız təəssürat da. Bəs, o bu evin telefon nömrəsini, mənim adımı, sevmədiyim adamla yaşamağımı hardan bilir? "Tanıyıb-bildiyim fırıldaqçı" deyəndə Əfqanımı nəzərdə tutur? Necə də fikrini düzgün ifadə elədi" "Evliykən tənha qadın taleyini yaşamaqdan bezmədinizmi, Fidan xanım...". Görəsən, mənimlə görüşüb nə barədə söhbət etmək istəyirdi?.."

Bir azdan yenə telefon zəng çaldı. Fidan tərəddüdlə uşaq mürgüləyən otaq tərəfə baxıb dəstəyi ehtiyatla götürdü.

Bayaqkı xırıltılı səs bu dəfə bulanıq su kimi birdən-birə durulmuşdu.

- Fidan xanım, sizi and verirəm o tək Allaha, dəstəyi tez asmayın, məni axıra qədər dinləyin, bilirəm, bu zəngi etmək üçün çox gecikmişəm, çox! Xahiş edirəm, azca səbrinizi basın, məni dinləyin, bir halda ki, görüşməyə razı deyilsiniz, onda sizə söyləyəcəklərimi telefonla da söyləyərəm, amma düzü, hardan, nədən başlayacağımı heç özüm də bilmirəm... Mən... mən sizin qəmxarınızam, həmdəminiz olub, dərdinizə şərik olmağa çalışan dünyanın bəlkə də ən bədbəxt bəndəsiyəm. Bəlkə xəyallarınızda surətini canlandırdığınız, arayıb-axtardığınız, amma həyatda qarşınıza çıxıb, sizə məhəbbətini açıb-söyləməyə cəsarəti çatmayan bəxtsiz cavanam.

Fidan bu an nə deyəcəyini bilmədi. "Sən... Sən..." – deyib duruxdu.

- Hə, mən, mən sizin xilaskarınız olmağa cürəti çatmayan qorxağın, acizin biriyəm. Mən sizi sevirəm, bir gün lap uzaqdan-uzağa görməyəndə dünyam qaralır, həyatım alt-üst olur. Mən xəstəyəm, Fidan, bəlkə sabah həyatda olmayacağam, mənimlə danışmağa razı olmağınız, ağrılı qəlbimin səsini

dinləməyiniz də bəs edə mənə, istəyirsiniz, dəstəyi anama verim, dərdimi danışsın, sizi necə sevdiyimi inandırsın...

- Yox, yox, ehtiyac yoxdu, yəqin anan mənim ailəli olduğumu bilmir. Mənim övladım var – oğlumun iki yaşı olacaq...

- Mən də, anam da sizin barənizdə hər cür məlumatımız var. Əlinizə su tökməyə yaramayan, evdən baş götürüb küçələrdə sülənən o ləyaqətsiz həyat yoldaşının uzun müddətdi ki, evə gəlməməyindən də, nə işlə məşğul olduğundan da xəbərimiz yox deyil. Amma bu haqda nə anam, nə də mən sizinlə danışmağa indiyənəcən cürət etmirdik.

- Burda başqa səbəb nədir ki, axı o tez-tez xarici ölkələrə səfərə gedir... Ata-anasına baş çəkməyə...

Telefonun o biri başındakı oğlan dərindən köks ötürdü. Sonra bərkdən öskürdü. Az sonra fikrini kəsik-kəsik anlatmağa başladı:

- Nə xaric, canım, mən o dələduzun xaricinə də, daxilinə də yaxşı bələdəm. İnanın onun haqqında danışmağı özümə sığışdıra bilmirəm. Amma sizin cismani sarsıntılarınız, əziyyətləriniz, ovqatımı xələl edir, məni özümdən çıxarır. Onu da deyim ki, həqiqəti bütün çılpaqlığı ilə bilmək sizin qəlbinizi çox ağrıdacaq – telefondakı səs birdən-birə batdı, sonra yenə elə bil quyu dibindən öskürək səsi eşidildi, deyəsən, boğazını arıtlayırdı, nəfəsini dərib, ağır-ağır danışmağa davam etdi, - Bir vaxtlar o bizim köhnə məhəllədə, gecəqondu daxmaların birində kirayədə yaşayırdı, ev sahibinin xəbəri olmadan həmin yaşadığı mənzili dəyər-dəyməzinə satıb, aradan çıxmışdı. Deyirdilər, guya imkanlı bir adamın qızı ilə nişanlanıb, amma toyundan iki-üç ay keçməmiş aldatdığı adamlar arvadını qaçırıblar, uzun sözün qısası, həmin qızın atası onu həbsə saldırdı, ordan çıxandan sonra yenə axmaq hərəkətlərindən əl çəkmədi. Qabaqlar ara-sıra qorxa-qorxa, çəkinə-çəkinə məhəlləyə gəlirdi, amma çox qalmırdı, hər dəfə də bir təzə, xarici maşın sürürdü. Tanıyanlar-bilənlər deyirdilər, yəqin yenə hansı bədbəxtəsə qulaq atıb. Sizinlə ailə qurandan sonra anama rast gəlib, atamın ölüm xəbərini eşidib, dilucu başsağlığı verib, sonra da tələsik vizit kartını verib ki, mənə çatdırsın. Guya mənə ürəyi yanırmış, yaxşı

işə düzəldəcəkmiş... Təsəvvürümə gətirirəm, fırıldaqçı bir adamın təklif edəcəyi iş necə olar. Anam soruşub ki, o nə işdi elə, deyib təzə qaynatam mənə yaxşı pul verib, şirkət açmışam... adını da "Fidan" qoymuşam, təzə arvadımın adını. Bax belə, Fidan xanım, ona görə bu söhbətləri sizə telefonda çatdırmaq yox, üzbəüz demək istəyirdim, bu dəqiqə harada olduğunu da deyim, onun gözü sizə yox, atanızın evinə düşmüşdü, arzusuna çatan kimi növbəti şikarının dalınca düşüb. Çörəyi ona-buna atmaqdan, fırıldaqçılıqdan çıxan yüngülxasiyyətdən nə gözləyirsən? Öz zahiri görünüşünə, boy-buxununa güvənərək varlı xanımları aldadıb yoldan çıxarmaq bu adamın hobbisidi... Kaş, onu vaxtında tanıya biləydiniz... Kaş... – yenə quru öskürək oğlanın danışığını yarımçıq qoydu.

Dəstəkdə qadın səsi eşidildi:

- Qızım, mən Röyalın anasıyam. O, xəstədir, həyəcanlanır, danışa bilmir, həm də sizin ailənin başına gələnləri bilən gündən sarsılıb, Əfqanın vizit kartını alan gündən məndən dönə-dönə xahiş etmişdi ki, səninlə danışım. Amma düşündüm, necə olsa, ərindi, elə qadın var, ərinin bütün elədiklərinə dözür, göz yumur. Qızım, səni xəbərdar edim, Əfqanın ata-anası xaricdə yaşamır, onların varlığını-yoxluğunu Allah bilir... Məhəlləmizdə barəsində cürbəcür xoşagəlməz söhbətlər gəzib-dolaşır, axı bu adam bir dəfə də özünə dəbdəbə ilə toy eləməmişdi. Deyilənlərə görə, sizə elçiliyə göndərdiyi yad adamlara pul paylayıbmış, muzdla tutduğu o şəxslər elə Əfqanın tayıdır. Allah pis adamların cəzasını versin.

Fidan qeyri-ixtiyari dilləndi:

- Yox, bu ola bilməz... – telefonun dəstəyi əlindən sürüşüb yerə düşdü. Halsız-halsız fincana su töküb içdi, özünü ələ almağa çalışdı, telefondakı qadın deyəsən, nəsə hiss etdi:

- Qızım, sənə nə oldu? – deyə həyəcanlandı. O, ümidsiz vəziyyətdə dəstəyi ağır-ağır qaldırıb qulağına yaxınlaşdırdı: - Narahat olmayın, mən yaxşıyam, - dedi. Dəstəyi aparatın üstünə qoyub pıçıltıyla öz dünyasına qapıldı:

- İlahi, mən bu adamları axı, yaxşı tanımıram. Dediklərinə necə inanım? Amma Əfqan barədə söylədikləri heç də yalana bənzəmir. Belə çıxır ki, hər şey

yalanmış və o, varlı kürəkən rolunu oynayan saxta aktyor bizi ələ salırmış... – dedi.

Saatlar ötüb keçir, o telefon zəngi ağlından bir an çıxmır, Fidanı həyəcanlandırırdı. Səhərəcən gözlərinə yuxu getmədi. Fikri-zikri özünü telefonda Röyal – Qarabala kimi təqdim edən oğlanın üstündə qalmışdı...

Səhər tezdən intizarla telefona baxır, hər an dünənki zəngin təkrarlanacağını gözləyirdi. Günortayadək qara telefon susdu. Uzun müddət idi, Əfqandan səs-soraq yox idi. Mobil telefonuna da zəng çatmırdı, söndürülmüşdü.

Sonuncu dəfə guya Təbrizdən zəng edib: "Dayıqızı, necəsən?" – deyə keyfini xəbər almışdı. Elə bil Fidanı ələ salırdı, "Dayımgil necədir? Darıxmasınlar, işin başa çatmağına az qalıb, bu gün-sabah İrandan dəzgahları yola salıram, iki-üç aya bütün  işlər yoluna düşəcək..." – sanki Fidanın indiki məqamda sözlərinə necə reaksiya verəcəyini müəyyənləşdirmək istəyirdi. "Dayıqızı!" – o, ilk dəfə idi, Fidana belə müraciət edirdi. "Bəs görəsən, gözünün ağı-qarası yeganə uşağını niyə xəbər almadı? Soruşmadı bəlkə bir şeyə ehtiyacın var, filan yerdə pul qoymuşam, götür, istədiyin kimi xərclə. İlahi, mən bu vaxtacan necə avam olmuşam, bu kələkbazın nəyi doğru, nəyi yalan dediyinə əhəmiyyət verməmişəm, başımı aldatmışam, guya "Fidan" adında böyük toxuculuq şirkəti açacaqmış, hamımızı bəxtəvər günə çıxaracaqmış... Eh, ata, ata, məni də bəlaya saldın, özünü də...".

* * *

Əli-ayağı evdən də, işdən də soyumuşdu. Ömür soyuq-soyuq ötür, baxıb-gördüklərindən heç cür zövq ala bilmirdi. Böyük biabırçılığın başlanğıcı göz önündəydi, Əfqanın paxırı açılmışdı, ondan ayrılmağı artıq qərara almışdı, evə dönəcəyi anı nigarançılıqla gözləyirdi.

Bir azdan uşaq üçün aptekdən dərman almağa gedən Fidana elə gəldi ki, kimsə arxasınca düşüb. “Bəlkə bu Röyaldı, mənə yaxınlaşmağa cürət etmir, görünür, gecəki telefon söhbətindən sonra uzaqdan-uzağa əhval-ruhiyyəmin necə olduğunu bilmək istəyir” – deyə düşündü. Bu onun bir vaxt xəyalında təsəvvür etdiyi çinar boylu, əsmər bənizli oğlana az oxşayırdı.. Fidanın gözünə xəyal kimi görünən oğlan qəfildən yoxa çıxdı.

“O, birdən-birə hara getdi? Niyə mənə yaxınlaşmadı? Əgər Əfqan barədə dedikləri doğrudursa, əslində mənim ona da, anasına da minnət borcum var... Görünür, “od olmasa, tüstü çıxmaz” məsəli elə sözgəlişi çəkilməyib. O adam həyatımda gözlənilmədən peyda olduğu kimi, gözlənilmədən də yoxa çıxıb. Yəqin fırıldağının üstü açılanacan ara-sıra telefon danışacaq... Bəs nə üçün telefonun nömrəsini gizlədir?”

Təzadlı düşüncələr qoynunda evə sarı döndü. Axşamüstü qapı döyüldü.

- Hə, hə, deyəsən, odur, - deyə Fidan əvvəlcə güzgüyə, sonra da qapıya yaxınlaşdı.

Qapıda yaşı qırxı ötmüş çalsaç bir kişi dayanmışdı...

“Yox, bu, o deyil, Röyal bu yaşda ola bilməz!”, - deyə düşündü.

- Kimdi?

- Evin sahibi...

- Hansı evin? – hövlanak qapını açıb, kişini başdan-ayağa diqqətlə süzdü. O, mövsümə uyğun dəbdə geyinmişdi. Təmkinli baxışlarını Fidana zilləmişdi. Bir yandan onun Röyal olmadığına sevinirdi, o biri yandan başı gicəllənmiş kimi özünü itirmişdi, əllərini çərçivəyə söykəyib, birtəhər müvazinətini saxladı, təəccüblə:

- Siz nə danışırsız? Məgər bu ev Əfqana məxsus deyil?..

- Xeyr, xanım, bu ev mənim halal evimdir, sənədli-sübutlu adımadır, təmirdən sonra iki illiyə kirayəyə vermişdim. Əgər qalmaq istəyirsinizsə buyurun, etiraz etmirəm, müqavilənin vaxtını uzatmalıyıq, həm də bilməlisiniz ki, bu cür hər şəraitli mənzillərin kirayə haqları artıb...

Fidan çaşıb qalmışdı, "deməli, şübhə və gümanlar əbəs deyilmiş, dedikləri doğruymuş, o, fırıldaqçının, dələduzun biriymiş... Zərbə dalınca daha bir ağır zərbə... Aman Allah, bu nə oyundu, düşdüm?".

- Sizə nə oldu, xanım, rənginiz-ruhunuz birdən-birə dəyişdi...

- Mən bir az möhlət istəyirəm, xahiş edirəm, özümə başqa mənzil tapanacan icazə verin elə burada qalım.

- Bəs bu evi kirləyən, dil boğaza qoymayan o cavan kürən dostumuz hardadır? Yoxsa sizi aldadıb, aradan çıxıb?

- Harda olduğunu dəqiq bilmirəm, amma aldatmağına şübhəm yoxdur, özü də tək məni yox, ata-anamı da. Onların şəhərin mərkəzindəki monolit binadakı mənzillərini dəyər-dəyməzinə satandan sonra ortada görünmür.

- Deyirəm axı, zənglərimə niyə cavab vermir, bu adamdan nə desən, gözləmək olar. Mən evdəki əşyalara göz yetirmək istəyirəm. Birdən o...

- Buyurun keçin içəri, baxın, o mənə deyirdi, guya bu mənzili girov qoyub, hansısa məşhur bankdan pul götürüb!

- Yox, çətin ki, onun buna hünəri çata, çünki mənim kim olduğumu yaxşı bilir, o sizi aldadıb, evin sahibinin imzası olmadan ona aid mülk qəti surətdə girov qoyula bilməz!

Sonra sanki öz-özünə gileylənirmiş kimi:

- Heç əvvəldən gözüm onu tutmamışdı, zər-ziba xoşlayan zənənəsifət kişilərdən zəhləm gedir. Görünür, o məni də aldadıb. Neynək, əgər bir də yolu Bayıla düşsə, bu yalana görə cəzasız qalmayacaq Əfqan. Fidan başını yellədə-yellədə aşağı dikdi, bununla həmsöhbətiylə həmfikir olduğunu təsdiqləsə də, cavab verməyə taqəti qalmadı...

- Hə, bu yaşımacan çox şeylər görmüşəm, kreditlə alınmış bahalı maşınlarda gəzib, fırıldaqla onu-bunu aldadıb ev-eşik sahibi olanı da, malını-mülkünü bir gecədə qumarda uduzanı da... İndi adını kişi qoyub qadın alveri ilə, narkotika ilə məşğul pəzəvənglər yaman çoxalıb. Bunlar hamısı kapital dünyasının balasıdı, amma bu Əfqan kimisinə ilk dəfədir, rast gəlirəm, pul qazanmaq

xatirinə əvvəlcə o dələduz sizi ələ keçirib, sonra da mərkəzdəki evinizi satıb, aradan çıxıb. Bəs ata-ananız hardadır?

- Onlara verdiyi pul ancaq şəhər kənarında iki otaqlı mənzil almağa çatdı. Kiçik bacım da valideynlərimlə yaşayır. Sadəlövh ata-anam hələ də aldadıldıqlarından xəbərsizdilər. Elə bilirlər ki, pulların qalanına vicdanını itirmiş o dələduz şirkət açıb, ailə biznesi quracaq, hərəmiz bir işin qulpundan yapışıb, məvacib alacağıq...

Otaqları gəzib, beşik arabacıqda mışıl-mışıl uyuyan körpəni gördü, ev sahibi təəssüflə köks ötürüb Fidana baxdı:

- Mən sizə ucuz qiymətə birotaqlı mənzil taparam, - dedi, - bu işə baxan makler tanışım var...

- Allah köməyiniz olsun. Uşağı bağçaya verib, mən də özümə bir iş taparam, kirayə pulunu vaxtlı-vaxtında ödəyərəm. Əyləşin, sizə bir fincan çay süzüm...

O, razılıq hissiylə başını yırğaladı:

- Sağ olun, gəlin, mətbəxə keçək, körpə qoy, rahat yatsın, - birdən nə fikirləşdisə, - yaxşı, hələlik başqa yerə getməyin, burda qalın. Narahat olmayın. Bu da mənim telefonum, adım Mehmandır, bir şeyə ehtiyacınız olsa, nədənsə korluq çəksəniz, xəbər edin, - deyə cibindən çıxartdığı vizit kartını Fidana uzatdı.

Fidan vizit kartını alıb başını yenə aşağı saldı:

- Mənim adım Fidandır, xahiş edirəm, Əfqanı tapmaqda yardımçı olun, bundan sonra onunla kəlmə kəsməyi özümə təhqir sayıram, mən tezliklə ondan boşanacağam...

- Bəs valideynləriniz...

- Məni bu adama ərə getməyə təhrik edən onlardı, heç onları bağışlamaq da mənimçün asan olmayacaq, ancaq qorxuram, atam aldadıldığını bilsə, dözməz...

- Hə, başa düşürəm, qeybə çəkilmiş belə adamdan boşanmaq asan məsələ deyil, bir tanış vəkillə bu haqda məsləhətləşərəm, belə mübahisəli məsələlərin ustasıdır, bəlkə o, həll edə, əncam çəkə bildi...

Fidan kövrələ-kövrələ köks ötürdü:

- O bizim ailə şərəfimizi yerə vurub, təhqir edib, istəyirəm, övladım nə onun adını bilsin, nə də soyadını daşısın...

* * *

Ev sahibi gedəndən sonra Fidan yuxudan oyanmış oğluna yemək verə-verə dərin düşüncələrə daldı. Bundan sonra necə yaşayacağı, nədən başlayacağı haqda fikirləşdi. Birdən telefon zəng çaldı. O, tez dəstəyi götürdü. “Tənha qadın, susma danış!” lirik musiqisi eşidildi. Röyal idi, ədəb-ərkanla salam verib, yaxından zəng etdiyini bildirdi, evə gəlmək üçün izn istədi. “vaxtınızı çox almaram, sizə deyiləsi vacib sözüm var...”. Fidan əvvəl susdu, etiraz etmək istədi, həyəcanla çırpınan qəlbinin dərinliklərində hansı hissə qadını cəsarətə gətirdi, o Röyalı yaxından görmək istəyirdi. Artıq tək-tənha yaşamağa gücü qalmamışdı. “Kaş, Röyal illər boyu xəyalımda yaşatdığım, arzuladığım adam olaydı, yoxsa başıma gələn bu müsibətə yəqin dözə bilməyəcəyəm”... Susmaq razılıq əlamətiydi. Amma buna baxmayaraq Röyal yenə soruşdu:

- İzn verirsiniz?

Fidan:

- Əgər mənə deyəcəyiniz vacib söz Əfqanla bağlıdırsa, zəhmət çəkməyin, çünki daha buna ehtiyac yoxdur.

- ...

Bir azdan qapı döyüldü. Fidanın ürəyi həyəcanla çırpınmağa başladı.

Ürəyinin döyüntüsü qulaqlarında əks-səda tapdı. Daxilindəki səsli-küylü təlatümlə qapını açdı. İçəri əlində gül dəstəsi tutmuş ucaboy, qarayanız bir oğlan daxil oldu. “Qeyb olan illər” filmindəki Əsmərə tam bənzəməsə də, onun kimi mənalı gözləri vardı. Havanın isti olmasına baxmayaraq uzunqol köynək geyinmişdi. Uşaq Röyalı görən kimi anasının qucağından özünü oğlanın üstünə atdı. Röyal uşağın bu mehribanlığından təsirlənərək bağrına basdı. Fidan bu səhnəni ürək ağrısı ilə seyr edərək kövrəldi. Göz yaşlarını gizlətmək üçün tez

gül dəstəsini Röyalın əlindən alıb otağa keçdi. Arxasınca gələn oğlanı başdan-ayağa sınayıcı nəzərlə süzüb soruşdu:

- Aptekə gedəndə arxamca düşən siz idiniz?

- Mənə, sən de, Fidan xanım, mən idim, yaxınlaşmağa yenə ürək eləmədim, elə bildim gözlərinizdən vulkan püskürüb, məni bir anda külə döndərəcək, şükür Allaha, o acı xəbərlə qəlbini yaralasam da, gözlədiyim kimi mənə acığın tutmadı.

- Sənin nə günahın var, acığım da tutsun? Taledən qaçmaq olmur, yazılan pozulmur, sağ olun ki, gec də olsa, gözümü açdınız. Hələ sizə minnətdar olmalıyam.

- Elə bilirdim siz məni heç zaman görmək istəməyəcəksiz.

Fidan ancaq qəlbinin səsinə qulaq asdı: "Əslində çox görmək istəyirdim, bəlkə də illər boyu xəyalımda axtardığım əsmər bənizli oğlan elə sənsən!".

- Fidan, bəlkə də ilk görüşdən mənim belə danışmağım sənə qəribə gələcək, ancaq illər boyu qəlbimdə saxladığım, yalnız anama bildirdiyim hisslərdən xəbərin yoxdur. Mən səni çox sevirəm, kaş, biləydin ki, sənsiz həyat mənim üçün necə cansıxıcı, mənasızdır. Gəl Əfqandan ayrıl, evlənək, uşağına öz balam kimi baxacam, sənin xoşbəxtliyin üçün canımdan belə keçərəm, Fidan! Sən mənə çox lazımsan, yalvarıram, "yox" demə, anam da səbirsizliklə o bəxtəvər günü gözləyir.

Fidan göz yaşlarını saxlaya bilmədi, elə bil çoxdan bəri gözlədiyi əziz, doğma bir adamı gəlib çıxmışdı, içində ona sarılmaq, başını çiyninə qoyub ürəyindəkiləri demək hissi baş qaldırmışdı. Artıq özündən asılı deyildi, Fidanın başı oğlanın köksündə idi.

Güclü bir kişi köksünə sığınıb əzizlənmək, sevilmək ehtiyacı gənc qadının varlığını elə çulğalamışdı ki, dinib-danışmağa taqəti də qalmamışdı. Röyal nəvazişlə köksünə sığınmış Fidanın saçlarını sığallayıb, bəndi dağıtmış sel kimi axan göz yaşlarını dodaqları ilə qurudub ovutmağa çalışırdı. Nəhayət, bir az sakitləşib eyvana çıxdılar. On yeddinci mərtəbədən şəhəri, uzaqdan görünən

dənizi birgə seyr etdilər. Axşam düşmüşdü, qonşuluqda tikilən yeni hündürmərtəbəli binada isə fəhlələr hələ də vurnuxurdular.

Röyal o gün bərk həyəcanlı idi, sanki özündə deyildi, tez getdi, Fidansa onun yubanmasını istəyirdi. Uşağın başı oyuncaqları ilə oynamağa qarışmışdı.

... Ayrılıq məqamı çatanda onlar sevgililər kimi bir-birinə sarılıb öpüşdülər.

Röyal Fidanın sidqi-ürəkdən öpdüyü ilk kişi idi. Bu ilk öpüşün dadı dodaqlarında qalan gənc qadın güzgü qarşısında dayanıb özünə baxa-baxa için-için ağlayırdı.

* * *

Fidan cürbəcür bəhanələr gətirir, valideynləri ilə görüşdən yayınırdı. Son vaxtlar nə özü ata evinə gedirdi, nə də anasının gəlib bir gün onunla qalmasına razı olurdu. "Mən tək qalmağa öyrəncəliyəm, tək qalmaqdan qorxmuram..." – deyirdi.

Bir gün anasının ürəyi ayrılığa tab gətirmədi, iki daşın arasında qızını arayıb tapdı:

- Nəvəmdən ötrü burnumun ucu göynəyirdi, elə darıxmışdım ki...

- Yaxşı oldu gəldin, ana, uşaq bir müddət sənin yanında qalsın, iş axtarmaq qərarına gəlmişəm, babat yer tapsam, uşağı bağçaya verərəm...

- Nədən narazısan, qızım, gül kimi evin-eşiyin, ərinin maşını, dəniz sahilində bağınız... Bir də axı, işi neynirsən, məgər Əfqan az qazanır?

Fidan təmkinini pozmadan dilləndi:

- Ana, ev-eşik, maşın-bağ ağ yalandı, o tərbiyəsiz sizi də aldadıb, məni də. Bu mənzil onun deyilmiş, dəm-dəstgah, dəniz sahilində malikanə uydurmaymış... Gəl otur, hər şeyi olduğu kimi sənə danışım.

Ana-bala oturub xeyli dərdləşdilər.

- Mənim kimi ananın başı batsın, sən "tək qalmağa öyrəncəliyəm" deyəndə Əfqanın yenə xaricdə olduğunu zənn etmişdim. Əgər atanın sağlamlığı imkan versəydi, bu işi belə qoymazdı... Fikir eləmə qızım, Allah kərimdi, təki

xəstələnməyəsən. Qaldı iş məsələsinə, gəl, "tök ətəyindən daşı", get rəfiqən Natəvanın yanına, o qədər edimizin çörəyini yeyib ki, bişirdiyim dolma üçün əldən gedirdi.

Fidan ürəyində anasının "xəstələnərsən" sözlərinə ürəyində gülürdü: "Hə, burda yanılmamısan ana, xəstələnməyinə xəstələnmişəm, amma başqa cür xəstələnmişəm, mən indi Röyalın xəstəsiyəm, o, məni bir öpüşlə xəstələndirdi, ona aşiq olmuşam, sənin yeni sevdamdan xəbərin yoxdur. Yadındadır, ana, evimizdə tənhalığa çəkiləndə, ürəyimdə, xəyalımda kiminlə danışdığımı soruşardın, bax, həmin şəxs gəlib məni tapıb, ana... Özü də ən pis günümdə tapdı, bağlı gözlərimi açdı, qorxulu röyalardan oyatdı... Mənə dünyaya gətirdiyim bu uşağın atasının əsl simasını göstərdi".

- Niyə fikrə getdin? – deyə anası əlini onun saçlarına çəkdi.

- Nəyin fikrini edəcəyəm ki?! İlk gündən içimdə bir boşluq vardı, ana, bu da tanımaza-bilməzə qurulan ailənin axırı... Atam – sənin tez-tez köhnə kişi adlandırdığın valideynim mənə arvadbaz ər, özünə - ailəsinə qənim kəsilən ələkeçməz dələduz kürəkən tapıbmış. Əcəb də yaxşını yamandan ayırmaq təcrübəsi varmış... O da, sən də elə bil bu zəmanənin adamı deyilsiniz. Heç birinizin görmədiyi, tanımadığı bu adam barədə ürəyinizdə şübhə oyanmadı? Məni az qala ittiham edəcəkdiniz. Guya sizdən geri qalıram. Kaş özümdə iradə, güc tapıb heç kəsə qulaq asmayaydım, bu izdivaca əzəl başdan razı olmayaydım. O, hətta təhsilimi davam etdirməyimə də maneçilik törətdi... Nahaq yerə deməyiblər ki, çox istəyən azdan da olur.

Fidan danışdıqca aşıb-daşır, haldan-hala düşür, göz yaşları yanağına süzülürdü. Övladının xoşbəxtliyi uğrunda çarpışan bir ana üçün bundan ağrılı gün ola bilməzdi.

Peşmançılıq və acı təəssüf hissi kövrək ana qəlbini yandırıb-yaxırdı. Fidan nə qədər qəzəbli görünsə də, əndazəni aşmır, özünü çox təmkinli aparırdı. Qəlbində: "Bilirəm, baş verənlər səni sarsıdır, ana, yaxşı ki, bu sınıq qəlbimi bürüyən məhəbbət alovu təzədən şölə saçıb, içimdəki boşluğu doldurur, əzablarıma məlhəm

qoyur. İlk dəfədir kiməsə lazım olduğumu duyub, sevincini yaşayıram... Əgər o olmasaydı, yəqin bu dərddən çərləyib ölərdim...” – düşünürdü.

- Mən başımın çarəsini qılaram ana, siz barı özünüzün, bacımın qayğısına qalın... Bilmirəm, bunu mənə kimsə demişdi, yoxsa nə vaxtsa yuxuda görmüşdüm ki, o binadan gəlin köçən qızların heç biri xoşbəxt olmur. Gərək atam vaxtında xarabanı sataydı... Nə isə... Təki bacım xoşbəxtlik tapsın, ana. Çünki o, təzə evinizdən gəlin köçəcək... Mənim bədbəxtliyimdən ibrət götürüb, daha onu sevib-bəyəndiyinə ərə verərsiniz...

Ana qəlbindən yanıqlı ah qopdu:

- Sən bizdən üz döndərməyi ağlına belə gətirmə!

- Sən nə danışırsan, ana. Mənim belə fikrim də yoxdur. Halbuki, iki il əvvəl siz özünüz məndən asanlıqla imtina etdiniz... İnan mənə, ana, biz Əfqan kimi dələduzun toruna düşüb, ona məğlub olduğumuz günə qədər qalib idik, şərəfli ömür sürürdük, pak və təmiz həyatımız vardı. Kasıb idik, amma bəxtəvər günlər yaşayırdıq. Ailəmiz cəmiyyətin diqqət mərkəzində idi. Bizi tanıyan qohum-əqrəbanın yanında başıuca gəzirdik... İndi nə yaxşı, qohum-qonşu, dost-tanış nə sizin təzə ünvanınızı bilir, nə də mənim kiminlə necə yaşadığımı.

- İndi zəmanə başqadı, heç qohumlar da əvvəlki kimi bir-birini arayıb-axtarmır, bala. Yoxsa lap biabır olardıq. Görünür, bəxtimiz, qismətimiz beləymiş, alın yazımız buymuş. Qocalıq hər adama sevinc gətirmir. Rəhmətlik baban həmişə deyərdi, Allah adamın axırını xeyirə calasın. “Kiminin əvvəli, kiminin axırı” deyiblər. Allah adamın əvvəlindənsə, axırını gətirsə yaxşıdır. Ömrümüzün bu çağında əl-qolumuzu rahat uzadıb övladlarımızın yaşayışından əmin-arxayın olmaq əvəzinə halal mirasımız da qismət deyilmiş, gözümüzün ilk ovu övladımızı bədbəxt elədik. Kişi bu günəcən heç özü də bilmir niyə evi satmağa razı oldu? Elə bil o gədə sehrbaz idi, falçıydı, onun dilini-ağzını bağlatdırdı. Əgər Əfqanın fırıldaqçı olduğunu indi də bilsə, inan bağrı çatlayar, onsuz da ev satılandan özündə-sözündə deyil... Nəsə hiss edir. Yuxulu adamlar kimi gəzib-dolaşır. Özüm sənə demək istəmirdim, axır vaxtlar ürəyi onu bərk incidir.

- Ana, atamın xətrinə bu sirri açıb-ağartmırdım, amma Əfqanın da sayğısızlığına daha biganə qalıb, özümü heç nə olmamış kimi apara bilməzdim... Mən ondan boşanmaq qərarına gəlmişəm.

- Bəs, bu sirri necə gizləyə bilərik, qızım? Məgər məhkəməyə bizi çağırmayacaqlar?

- Yaxşı, onda bəs nə edim? İstəyirsiniz, özümü avamlığa, abırsızlığa vurub, heç nə olmayıbmış kimi Əfqanın nə vaxtsa evə gələcəyini gözləyim? Sonra vərəmləmələrinə, sayıqlamalarına, təhqirlərinə dözüm, zorla yatağıma salıb, yuxuya verəndən sonra öldürüb, qatil olum? Bir gün atam ekran qarşısında sevimli kriminal xəbərlərinə baxanda qızının qatil, sevimli kürəkənininsə dələduz olduğunu öyrənsin? Məncə, qatil valideyni olmaqdansa, boşanmış qız atan-anası olmaq yaxşıdır. Bir də inanmıram ki, o çoxbilmiş tülkü quyruq ələ versin, məhkəməyə-filana gəlsin. Mən bu işin bir qısa yolunu tapıb ondan boşanmalıyam. Amma bir şeyə inanıram o, elədiklərinin cəzasını çəkəcək, - səsinin azacıq ahəngini qaldırdığına görə peşiman oldu, nəvazişlə, - ürəyini sıxma ana, - dedi, - belə bir şərəfsiz, axmaq faciə deyil, boşanandan sonra ikinci dəfə ailə quran o qədər xoşbəxt gəlinlər var ki... Allah qoysa, çox çəkməz, mən də olaram onlardan biri.

Bir neçə gün ötüb keçdi. Fidanın ad günü yaxınlaşırdı. Hər dəfə Röyalın telefonda sevgi dolu pıçıltılarını eşidəndə, onunla öpüşdüyü günü yada salır, ürəyi köksündə quş kimi çırpınır, nəfəsi təngiyir, sifətini soyuq tər basırdı. Necə olmuşdusa, bir dəfə telefonda danışanda ad günü barədə söz düşmüşdü. Bəlkə də Fidan qeyri-ixtiyari söz salmışdı, çünki həmin günü birlikdə keçirməyi çox arzulayırdı.

Bəzən Röyal hansısa kövrək hissin təsirindən duyğusal görkəm alır, nə vaxtsa oxuyub-əzbərlədiyi şeirlərdən parçalar söyləyirdi. Fidan mat-məətəl qalırdı, o bu cür gözəl şeirləri necə yaddaşında saxlaya bilir. Dediyinə görə, orta məktəbdə dərs oxumağa həvəsi olmayıb, ata-anasının köməyi ilə texniki-peşə kollecinə daxil olub, atası təsadüfi yol qəzasında dünyasını dəyişəndən sonra təhsilini yarımçıq qoyub. Anası isə doğum evində tibb bacısı işləyirdi. Birtəhər dolanırdılar.

Ad günündə həsrətini çəkməyə başladığı insandan hədiyyə-zad gözləmirdi, Röyalın saf sevgisi, ülvi məhəbbəti, hər bir görüşü onun üçün ən qiymətli hədiyyə idi. Əsmər bənizli, çinar boylu oğlanın surəti gecə-gündüz xəyalından çıxmır, ağlını çaşdırırdı.

Nəhayət, ad günü gəlib yetişdi, həmin gün səhər erkən oyandı, güzgünün qabağında oturub üzünə xeyli sığal çəkdi, üz-gözündən təbəssüm yağa-yağa eyvana çıxıb üzbəüz binaya baxdı. Iş hələ başlamamışdı, daha doğrusu, fəhlələr hələ gəlməmişdilər. Birdən gözü lap yuxarı mərtəbədə qırmızı hərflərlə yazılmış "Fidan, səni sevirəm" sözlərinə sataşdı. Həyəcandan az qaldı ürəyi dayansın. "İlahi, o, bu yüksəkliyə necə çıxıb?"-düşündü.

Içində ömrü boyu eşitmədiyi şən bir melodiyanın akkordları döyünürdü. Qəlbinə yeni günəş doğmuşdu. Havada uçan quşlar da, şəhərin dənizə uzanan mənzərəsi də gözlərinə başqa cür görsənirdi, hər yan sevgi nəğməsinə bələnmişdi. Fəvvarələrin şırıltılı səsi, gül-çiçək ətri bir-birinə qarışmışdı. Ilk dəfəydi xiyabanlarda əkilən güllərin qoxusunu belə yaxından duyurdu.

Çölü içinə sığmırdı... Röyalla tez görüşmək, onu bağrına basıb doyunca öpmək istəyirdi. Bu istəyinin qarşısını almağa heç bir qüvvənin gücü çatmazdı.

Qapıda atılıb boynuna sarıldı:

- Mənə görə o təzə tikilinin damına çıxmağa qorxmadın?

- Yox, eşqimin gücünə inam hissi məni hər təhlükədən keçirdi.

- Elə bil dünyanı mənə bağışladın.

- Ürəyindən nə keçir, gülüzlüm, gedək, dənizi də bağışlayım sənə. Uşağı da götür, çıxıb sahildə bir az gəzib-dolaşaq. Sonra...

- Hə, gəl sahil parkına gedək, çoxdandı ora yolum düşmür. Sonra evə qayıdarıq. Sənin üçün yaxşı süfrə açaram.

... Fidanın təklifiylə faytona mindilər. Onlar birlikdə illərin xoşbəxti kimi görünürdülər. Fayton bulvarı dövrə vurdu. Köhnə evlərinin yanından ötəndə Fidanın qəlbini qəribə hisslər bürüdü. Qarşı tərəfdən gələn faytonda bəylə-gəlin oturmuşdu. Fidanın yadına bəd ruzigarın əlindən atasının toy hədiyyəsi kimi bağışladığı malikanəni məcburən tərk edən milyonçu qızı düşdü.

- Bilirsən Röyal, bax, bizim evimiz burda idi...

- Gözəl yerdəymiş...

- Amma bu binadan gəlin köçənlərin çoxunun ilk nigahı uğursuz olub...

Sonra Əfqanı nzərdə tutaraq:

- Sənin dediyin kimi, o mənə yox, bu evə aşiq olubmuş...

- Elələri yalnız pula vurulurlar, nə yolla olur-olsun, təki pul gəlsin...

Qanı qaralmışdı Fidanın, əyilib Röyalın qulağına: “gəl qayıdaq,-canım, bu gün səninlə evdə baş-başa qalmaq mənə daha xoş olar”,-pıçıldadı, cavab gözləmədən evə tərəf səmt götürdülər...

Uşaq gəzintidən və dənizin təmiz havasından xumarlanmışdı, evə çatar-çatmaz yuxuya getdi. Bulvarın ab-havası ona düşmüşdü. Yeməkdən sonra Röyal getmək üçün izn istədi.

- Getmə, qal, bu gün mənim ad günümdür, istəyirəm, bu şad günümün sevincini səninlə paylaşım, gecəni səninlə keçirib, səhəri səninlə açım.

Gözlərini yumub toy gecəsini xatırladı. Sonra yenə kövrək pıçıltıyla:

- Bu gecə həmin gecədən fərqli olacaq, -dedi,-Röyal, bütün qəlbimlə, varlığımla sənin olmaq istəyirəm.

- Röyal onun saçlarını oxşadı, yanağından öpdü, dodaqlarına toxunmağa qorxdu, belini qucmağa əli gəlmədi. Bədənini soyuq tər basdı. Sanki saxta iş üstündə yaxalanır, əlləri-ayaqları əsirdi...

Fidan özünü onun ağuşuna atmağa hazır idi. xəyalən vurulduğu kişisinin təbəssümü şərab kimi dodaqlarından süzülüb qızı məst eləmişdi:

- Əsmərbənizlim, həyatıma xoş gəldin!

- Röyal yenə onun yalnız əllərini, qollarını, dodaqlarını öpməklə kifayətləndi. Sevgilisinin ağuşunda əriyib-itməyə, özünü təslim etməyə hazır bir qadının yalvarışı kimi səslənən:

Röyal, Röyal, əzizim, canım-gözüm...-sözləri oğlanın bütün vücudunu silkələdi, səsi əvvəlkindən də bərk xırıldadı, elə bil hansısa gözəgörünməz əl boğazından yapışıb ikiəlli sıxırdı:

- Gülüzlüm, ilk dəfə səninlə danışmağım yadına gəlir, o zaman ərli qadınla subay oğlanın telefonla eşq elan etməsini böyük qəbahət, günah olduğunu söyləmişdin...

- Onda mənim “kimsən?” sualıma “səni sevən kəs”-deyən adamın ərgən çağımdan xəyalımda sevib, əzizlədiyim əsmər bənizli oğlan olduğunu bilmirdim.

- Kaş, hər şey ayrı cür olaydı...

Ehtirasdan Fidanın dodaqları əsirdi:

- Söz verirəm, əzizim, bu andan hər şey sənin istədiyin kimi olacaq, yaxın gəl...

Röyal sanki çaşıb qalmışdı, yaxasını ondan qurtarmağa çalışırdı:

- Allah nigahlı-kəbinli qadınla yaşayan namərhəm kişini cəhənnəm odunda yandıracaq.

- Mən boşanmış qadından daha çox özümü sərbəst, azad hesab eləyirəm, əslində qəlbim, ruhum heç vaxt, heç kəsin olmayıb. Sadəcə, kağız üzərində olan bu birlik iki sevən insan üçün o qədər də əhəmiyyət daşımamalıdır. Əsas ruhların, qəlblərin birliyidir...

Röyal əllərini ovuşdurub üzünü yana çevirdi. Bədənindən bumbuz giziltilər keçdi, canı üşüdü, əti ürpəşdi. Onun ehtirasın zirvə məqamında özünü soyuq aparması, biganə davranışı Fidana toxunurdu. Az qalırdı diliylə desin: “sən necə kişisən ki, belə məqamda sevdiyin qadına qarşı laqeyd qala bilirsən, bu necə sevgidir, necə istəkdir?”.

Birdən yenə o məsum toy gecəsini xatırladı. Ürəyində: “Əgər bu ifadəni işlətsəm, onun xətrinə dəyər, onda mənim şantaj yolu ilə muradına çatan Əfqandan nəyim əskik olar? Yoxsa mənə də o fırıldaqçının təsiri keçib...”.

- Sənə nə olub? Bəlkə azarlamısan, haran ağrayır? Niyə titrəyirsən?

- Mən... mən bu gün getsəm yaxşıdı...

- Röyal, dayan, dayan, hara belə?

... O gedən getdi. Iki-üç gün aradan ötdü,  Röyaldan xəbər-ətər çıxmadı. Zəng edib anasından soruşdu.

“Evdə yoxdur...”-dedi.

*****

“Kaş ki, hər şey ayrı cür olaydı!”. Görəsən, Röyal bununla nə demək istəyirdi? Axı sevən oğlan illərlə xəyalı ilə yaşadığı sevgilisini yataqda bu cür qoyub gedə bilməzdi. Fikir-zikir Fidanı boğur, cavabsız sualların burulğanına atıb boğurdu. Daha dözə bilmədi, qadınlıq qüruruna sığışdırmasa da, bu məsələnin mahiyyətinə varmaq naminə Röyalın anasına zəng vurub, onunla görüşməyi xahiş etdi. Evlərinin yaxınlığındakı xiyabanda sakit bir guşədə oturacaqda əyləşib dərdləşdilər.

- Qızım, məni bağışla, - deyə Röyalın anası Fidanı çox intizarda qoymadı,-səndən oğlumun dərd-sərini, əsl bəlasını gizləməyə çalışırdım, bilirdim o, səni ürəkdən sevir, düşünürdüm ki, yəqin bu sevgi onu həyata qaytarar, ağlını başına yığar, kor-koranə getdiyi yoldan geroi döndərər...

Kövrəlib dərindən “ah” çəkdi, yerə dikilmiş gözlərinin kipriklərindən sanki qəm yükü asılmışdı,-deyirlər, “ziyanın yarısından qayıtmaq da xeyirdi...”, bilirəm, mənim qəbahətimi heç kəs əhv eləməz, sən də bağışlama. Bəlanın birindən qurtulmamış, o birinə tuş gəldin, mən də özümü baiskar sayıram. Mənim taylarım məscidə gedir, namaz qılır, oruc tutur, ziyarətgahlarda nəzir-niyaz paylayır. Mənsə oğlumun hansı yuvanın quşu olduğunu bilə-bilə əlinə bir dəstə gül verib yanına göndərdim. Sən mənim günahımdan keç, qızım! Axı mənim gözümün ağı-qarası bircə oğlum var, nə edə bilərdim? Allah pis əməlindən peşman olanları bağışlayandı. Görürəm, əgər müalicə olunmasa, onu əbədi itirəcəyəm. Bir ana üçün bunun nə demək olduğunu anlayarsan. Röyalı sevirsənsə, xilasına yardımçı ol! Görüm, bu ölkəyə narkotika gətirənin qapısı bağlansın, gül kimi oğlan idi, dağ boyda vücudu şam kimi əridi, gözümün qabağında məhv olub gedir...

Fidan təəccüblə soruşdu:

- O pis yola nə vaxtdan düşüb?

Qadın göz yaşlarını silib sözünə davam etdi:

- Atası rəhmətə gedən gündən, o günəcən tifil heç siqaret də çəkməmişdi.

... Günlərlə özünə gələ bilmirdi. Çox bərk sarsılmışdı. Üz-gözünü saç-saqqal basmışdı. Bu ağır itkinin təsirini yüngülləşdirmək üçün tay-tuşlarından biri ona

nəşə verir... Bir dəfə, iki-üç dəfə... Axır ki, o zəhrimara alışır. Sonra daiynəyə keçir. Daha gücüm-taqətim qalmayıb. Evdə qiymətli qab-qacaq, nə var, hamısını satıb müalicəsinə vermişəm.

- Mən isə onun ürək xəstəliyindən əzab çəkdiyini düşünürdüm.

Fidana yalnız indi agah oldu ki, o gün Röyal yataq otağında niyə haldan-hala düşürmüş. Gah titrəyir, gah da sakit, mehriban olur, bəzən də siması dəyişir, özündən çıxır, sifəti əcaib görkəm alırdı. “Bu mənim niyə ağlıma gəlməyib, axı bu vaxtacan onu qısaqol köynəkdə görməmişəm...”-fikirdən ayrılıb soruşdu:

- Bəs indi hardadır, telefona niyə cavab vermir?

- Narkoloji dispanserdədir, götürmürdülər, iş yoldaşlarımdan birinin orda tanışı var, birtəhər razı saldıq...

Fidanın çiyninə sanki ağır yük düşmüşdü. Nə deyəcəyini, nə edəcəyini ağlı kəsmirdi:

- Elə günü sabah gedib baş çəkərəm ora...

Ürəyindən: “Axı o, məndən həqiqəti gizlədib. Bəs niyə onu görməyə can atıram?!”-keçdi... Taleyi yeni bir sürprizlə üz-üzə qalmaqdan həzz alırdı. Fidan ağır düşüncələr burulğanında evə qayıdıb özünü çarpayının üstünə yıxdı.

- Allahım, günahım nədir ki, mənə bu əzabları çəkməyi rəva görürsən?

Röyalın narkoman olması ona bir anlıq rahatlıq vermirdi.

... Ertəsi gün ürək ağrısıyla dispanserə yollandı, içəri keçəndə öz-özünə: “Axı sənin burada nə ölmüşün var, Fidan, sən bura niyə, kimə görə gəlmisən?”-deyə fikirləşdi. Eyni zamanda vicdanı üzə durdu: “Röyalı bu vəziyyətdə, ağ ölümün pəncəsində təkbaşına qoyub kənardan seyr edə bilməzsən. Bu insanlığa rəva deyil. Axı sən onu sevirsən...”. Nədənsə, ona elə gəlirdi ki, Röyalı bu bəlanın əlindən təkcə o ala bilər, əgər Röyal həqiqətən onu sevirsə. Sevginin gücünə inanırdı.

Röyal onu görcək uşaq kimi kövrəldi. çarpayıdan qalxmağa taqəti qalmamışdı. Fidan əlindən tutub qalxmasına kömək etdi. Nəmli gözlərinə baxanda özündən xəbərsiz boynuna sarıldı.

-... Niyə məndən özün barədə həqiqəti gizlədirdin?

- Səni itirməkdən qorxurdum. Elə bilirdim, mənimlə bağlı hər şeyi öyrənsən, mənə nifrət edəcəksən... – Röyal günahkarcasına xırıltılı səslə pıçıldadı,-yaşadığın evin qarşısında təzə tikilən binanın sonuncu mərtəbəsinə çıxıb, “Səni sevirəm” sözünü yazdığım günün səhəri soruşdun ki, mənə görə ora çıxmağa qorxmadın? Mən həmin günəcən ora dəfələrlə qalxıb, özümü aşağı atmaq istəmişdim. Son anda intihar etməkdən vaz keçmişdim... Məni həyata bağlayan yeganə qüvvə sən idin...
Röyal Fidanın qarşısında diz çökdü, yalvarıb-yaxardı:
- Bağışla məni! Əgər məni tərk etsən, elə bil öz əlinlə qəbrə qoyursan! Mənə sənin köməyin lazımdır, məni bu bəladan yalnız sən qurtara bilərsən, Fidan!
Fidan susurdu. Nəhayət, ona uşaq kimi yalvaran Röyalı ayağa qaldırdı.
- Deyirlər, dən burda dəfələrlə müalicə olunmusan.
- Bu dəfə müalicə olunsam... mənə sənin yaxşı mənada təsirin, köməyin lazımdır... Əl uzat, əgər bunu bacarsam, bir də o lənətə gəlmiş zəhrimara yaxın düşmərəm... inan mənə, gülüzlüm. Iş taparam, uşaq, sən, mən, ailə qurub birlikdə yaşayarıq.
Fidan: “Neyləyim, İlahi, ona bu vəziyyətdə məndən savayı kim kömək edə bilər?” düşündü. – Dur gedək həkimin yanına,-dedi.

Bu dəfə müalicə çətin keçəcək,-deyə həkim Fidana bildirdi,-ciddi rejim altında olmalıdır. Təkcə müalicə yox, məsləhət görərdim səriştəli psixoloq-həkimlə də möhkəm əlaqə saxlayın... Psixoloji asılılıq onu yenə bura döndərə bilər. Ona görə maddi cəhətdən bu müalicənin öhdəsindən gəlmək asan deyil, qızım.

Psixoloq-həkim orta yaşlarında zərif simalı bir qadın idi. Fidanı çox mehribancasına qarşıladı:

- İki həftəlik müalicə kursundan sonra yenidən qəbuluma gəlin. Hər şey onun öz iradəsindən asılıdır... Narkomaniya dünyasının içinə girən şəxsin ordan geri qayıtması çox çətin prosesdir. Bu labirint kimi bir dünyadır, sirli quyudur, ordan yalnız sırf təsadüf, bir də böyük insan iradəsi nəticəsində qurtulmaq mümkündü... Röyal da başqaları kimi bu yola qədəm qoyanda elə bilirmiş istədiyi an bu bəladan qurtula bilər... Anasına demişdim, ilk növbədə onu narkoman tay-tuşlarından uzaqlaşdırmaq gərəkdi. Əgər köhnə məhəllə dostlarından zyrılmasa, müalicəyə bu qədər pul tökməyinizin faydası yoxdu. Onu da deyim ki, bu xəstəliyə

tutulanlar gizli həyat sürməyə imkan verir, yalanı inandırıcı formada danışırlar... Qarşısındakı adamın qəlbini ələ almaq üçün özlərini məsum göstərir, min bir dona girməyi bacarır, qəribə fikirlər söyləyir, qeyri-adi hərəkətlər edirlər.

*****

O gündən Fidan hər gün narkoloji dispanserə baş çəkirdi, bəzən qəbul etdiyi dərmanların təsirindən ayılmayan Röyalın çarpayısının yanında saatlarla oturur, onun sağalacağına böyük ümidlər bəsləyir, xoşbəxt olacağı günü səbirsizliklə gözləyirdi. Müalicə xərclərini çətinliklə ödəyirdi, Röyalın anasının imkanı sıfıra bərabər idi, aylıq az məvacibiylə yalnız keçmiş borclarını ödəyirdi.

Anasının bağışladığı qədim, yadigar üzükdən savayı üst-başında qiymətli zinət əşyaları nə varsa, hamısını dəyər-dəyməzinə satıb, Röyalın müalicəsinə xərclədi.

Yaşadığı binanın qonşuluğundakı həyət evlərinin birində hamamçı Roza adında bir qadın sələməyə borc verir, ortada dəllallıq edir, adamlardan qiymətli əşyalar alıb girov saxlayırdı. Cavan yaşlarında qadın hamamında müdir işləyən bu ətli-əndamlı ortayaş arvad Fidanın gözəlliyinin heyranı idi. Ağır xəstəsi olduğunu biləndə ondan verdiyi borca görə girov qoymasını tələb etmədi. Roza arvad hər dəfə Fidanı görəndə ona təzə ov kimi baxırdı.

Röyal da yavaş-yavaş özünə gəlməyə başlayırdı. Fidanın fədakarlığını görüb ona dönə-dönə dəlilər kimi aşiq olduğuna, zəhmətini yerə vurmayacağına and içirdi.

Fidan daha ağlına gətirmirdi ki, Röyal bir də narkotikadan istifadə edə bilər. Bu əziyyətləri görən adamın bir də öz canına qəsd edəcəyinə kim inanardı?

Bir dəfə xəstəxanadan evə dönəndə gördü ki, qapının ağzında bir nəfər kişi dayanıb. Liftdən çıxan kimi həmin adam onu səslədi:

- Fidan xanım, sənsən qızım?
- Bəli, mənəm.

- Bunları Mehman qədeş göndərib-deyə o, qapının ağzına qoyduğu sellafon torbaları göstərdi,-paydı, bağ sovqatı, bir də xırda-para bazarlıq.

Fidan ev sahibinin bu xeyirxahlığına mat qalmışdı. Təşəkkür etməyə söz tapa bilmirdi.

- Mən həm sürücüsüyəm, həm də bağında bağbanlıq edirəm, Mehman qədeş dedi ki, boşanmaq üçün şəxsiyyət vəsiqən lazımdı. Məşhur vəkil dostunun dediyinə görə Əfqan dələduzluğuna görə axtarışdadı. Ona görə orda-bura gün keçirir, ortada görünmək, gözə dəymək istəmir, tutulmaqdan qorxur.

Fidan çantasından vəsiqəsini çıxarıb ona verdi.

- Bəs Mehman usta özü hardadı?-deə Fidan qapını aça-aça xəbər aldı.

Kişiyə ərzaq dolu torbaları içəri daşımağa kömək etdi.

- Bir az naxoşdu, qızım.
- Allah şəfasın versin!

- Sağ ol qızım, hamısı o həbsxana xarabanın zibilidi, dərd canından çıxmır ki, dəfələrlə xaricdə müalicə olunub.

Fidan kişinin sadə, həm də söhbətcil adam olduğunu görüb maraqlandı:

- Mehman usta bəyəm həbsdə olub?

- Hə, nə az, nə çox, düz on iki il. Mən isə qoy gedim.

- Bir az oturun, bu istidə əziyyət çəkib bunları gətiribsiz, nəfəsinizi dərin, mən bu dəqiqə sizə çaydan-sudan bir şey verim.

- Sərin su olsa, içərəm.

Fidan sərin su gətirib nəvazişlə yer göstərdi. Ədəb qaydalarına uyğun özü də gəlib üzbəüz oturdu.

- Mən onu bircə dəfə görmüşəm, üz-gözündən ağayanalıq, nur yağan, zahirən sağlam görünən bu insanın da demə dərdi-səri varmış... Maraqlıdı, əmi mənə onun haqqında daha nə danışa bilərsiniz?

- Eh, ay qızım, bu fani dünyada dərdsiz adammı var? Mehman qədeşi bir yox, yüz dəfə görsən də dərd-sərini danışan döyül, onu çoxdan tanıyıram, qızıl kimi əlləriylə ad-san çıxarmışdı, maşının səsinə qulaq asıb, hansı hissəsinin xarab olduğunu o saat deyərdi, sonra balaca "baron" ləqəbli biriylə şərikli avtoservis açdı, ustalara ustad oldu... Dost-tanış yanında yaxşı xətir-hörmət qazanmışdı. Toyuna kimlər gəlmədi...

Bir gen şəriki işdən sonra onu öz bağına dəvət edir. Deyir, arvad-uşağı göndərmişəm istirahətə, evdə tək qalıb darıxıram, o vaxt qədeşin iyirmi yeddi, baronun qırxdan çox yaşı varmış. Cavanlıqda hamının səhvi olur, qızım, elə səhvlər var, adama ömrü boyu peşmançılıq gətirir, ustanın səhvinə isə günah da demək olmur, düz iş də... Uzun sözün qısası, "baron" deyir,usta, sənə çoxdandı yaxşı qonaqlıq vermək istəyirdim, əlimə göydən düşmüsən, gəlsənə əməlli-başlı kef eləyək, dəniz sahilində yaxşı bir sauna tanıyıram, zəng edib iki yeyib-içən gözəl canan da çağırarıq məclisimizə. Özümüzü əməlli-başlı masaj etdirərik. Usta da evinə zəng edib o gecə şəhərdən kənarda olduğunu, evə gəlməyəcəyini bildirir. Bağışla qızım, atan, bəlkə də baban yaşında kişiyəm, abırsızlıq olmasın, amma özün bilmək istədin, mən də...

- Buyurun, əmican, danışın, heç narahat olmayın!

- Narahatçılıqdan keçib, qızım, belə şeylər təkcə kinolarda olmur, baronun "canan" dediyi rəfiqələr gülə-gülə gəlib çıxırlar. Bu zaman çox gözlənilməz, dəhşətli hadisə baş verir, cavan, gözəl, vur-tut beş-altı ayın gəlini olan həyat yoldaşını yarımsərxoş halda görən ustanın cin vurur təpəsinə. Elə ordaca "baron"u da, arvadını da bıçaqlayıb ölümcül yaralayır. Arvadı elə hadisə yerində keçinir, şərikinin həyatını həkimlər xilas edir, istintaq zamanı məlum olur ki, qızları saunaya şəriki yox, onun sifarişirlə hansısa "mama Roza" göndəribmiş. Usta isə şərikinin bu işi düzüb-qoşduğunu, arvadını əvvəlcədən tanıdığını zənn edibmiş... Bax, belə, qızım, həbsxanada böyük nüfuzla, xətir-hörmətlə bərabər xəstəliklər də qazandı, qədeş üç il əvvəl çıxdı, o günü dostları-tanışları bir yerə yığışıb böyük bayram elədilər, kimisi ona maşın, kimisi ev bağışladı, bax, bu gördüyün evi, indi ustanın qaldığı bağı dostları bağışlayıb. Amma təmirdən sonra o burada bir gün də olsun yaşamayıb. Yay-qış bağ evində qalmağı xoşlayır...

Kişini böyük maraqla dinləyən Fidan soruşdu:

- Bəs həbsxanadan çıxandan sonra evlənmədi?

- Yox qızım, dost-tanışı nə qədər xahiş-minnət etsə də, fikrindən daşındıra bilmədi. "Mənim qadınlara inam hissim o bədnam gecədə öldü"-deyir.

Xudahafizləşəndə

Fidan üzünü kişiyə tutub dedi:

- Əmican, xahiş edirəm, boşanma məsələsində mənə kömək etdiyinə görə Mehman ustaya sonsuz təşəkkürümü çatdırın, istəsəm dəömrüm boyu onun borcundan çıxa bilmərəm. Amma inanın, bundan sonra hər gün Allaha dua edib, ona şəfa diləyəcəyəm. Siz də zəhmət çəkmisiniz... Əziyyətinizi, gətidiyinizi halal edin!

- Halal-xoşunuz olsun, qızım, böyük Llah mərhəmətinizi üstündən əskiltməsin!

*****

O gün Mehman ustanın başına gələn qeyri-adi qəzavü-qədəri eşidib məyus olsa da, Əfqandan tezliklə boşanacağı fikri Fidanın qəlbini fərəh hissiylə doldurdu.

- Sabah yəqin Röyal da bu xəbərə ürəkdən sevinəcək-dedi. Onunla keçirəcəyi xoş günlərin xəyalı ilə şirin düşüncələr qoynunda yuxuya getdi.

Aradan bir müddət ötüb keçdi. Xəstəxanadan çıxanda Röyalın anası:

- Əgər mənimlə qalsa, məhəllədə köhnə curlarına qoşulub, yenə pozulacaq, həkim "köhnə tanışlarından" ayırın, demişdi, imkanın varsa, qoy sənin yanında qalsın, qızım.

Fidan Röyalın gəlişinə təntənəli surətdə hazırlıq gördü. Süfrəyə hər cür naz-nemət düzdü.

Gecə yataq otağına keçən Röyal məhəbbətlə üzünə gülümsəyərək:

- Fidan, məni həyata qaytarmağın, bunun üçün çəkdiyin iztirablar, sevgimizə böyük dəyər verdiyinə işarədir. Hər dəfə gözlərimi yumanda səni ağ gəlinlik paltarında görürəm. O toyda mən də vardım. Köhnə məhəllədən çağırdığım uşaqlardan iki-üç nəfərlə birgə idik. Mən ömründə ilk dəfə ağ gəlinlikdə üz-gözündə heç bir təbəssüm, sevinc əlaməti olmayan qız görürdüm. Gözlərindən qəm yağırdı. O dəqiqə bilinirdi, ərə getdiyin adamı sevmirsən...

- Qəribədir, sən bunu mənə ilk dəfədir deyirsən...

- Mən sənə daha heç vaxt yalan danışmayacağam. Kişi sözü verirəm. Bu sözləri deyəndən sonra Fidanı bərk-bərk qucaqlayıb dodaqlarından öpdü.

- Mən sənə inanmaq istəyirəm, sevgilim.

Röyal onu ehtirası coşduran öpüşlərə qərq edə-edə: “İnan... inan... inan...”- deyir, Fidanın çılpaq sinəsindən, boynundan-boğazından, baldırlarından dönə-dönə öpüb oxşayırdı. Röyalın öpüşləriondən, onunla keçirdiyi intim məqamların həyəcanından məst olmuşdu Fidan:

- Əsmərbənizli sevgilim, bu anı o qədər gözləmişəm ki,..

Səhər Fidan dünyanın ən xoşbəxt qadını kimi yuxudan oyandı.

“İstəyirəm səninlə keçən bu xoşbəxt günlərim heç vaxt bitib-tükənməsin, Röyal...”.

Bir həftədən sonra anasına baş çəkmək adıyla məhəlləyə getmək istədiyini bildirəndə Fidan narahat olub, etiraz etdi. Röyal yenə şirin dilini işə salıb Fidanın saqqızını oğurladı:

- Darıxma, gülüzlüm, darıxma, tez qayıdacağam. Mahnıda deyildiyi kimi, “harda olsam gələrəm, təki sən səslə məni...”

- Yaxşı, get, başa düşürəm, anandı, ancaq unutma ki, xəstəxana xərclərinə görə xirtdəyəcən borc içindəyəm, hər ikimiz əl-ələ verib işləməliyik, borcdan yaxa qurtarıb yeni həyatımıza rahat başlaya bilək. Uşağı bağçaya verə bilmirəm. Pul lazımdı. Bir sözlə, mənim qayğılarım başımdan aşır. Bir yandan da səni nəzarətsiz qoymaq istəmirəm.

- Saata bax, söz verirəm, düz bir saatdan sonra evdə olacağam. Atamın qəbrinə and içirəm...

Fidan istədi desin narkotika tapmaq üçün bir saat da çoxdu. Amma atasının qəbrinə and içmiş adamın birdən-birə bu qədər də üstünə getmək, xətrinə dəymək istəmirdi. O gün Röyal doğrudan da sözünün üstündə durdu, dediyi vaxtda qayıtdı. Amma bir neçə gündən sonra yenə harasa getdi və dediyi vaxtda qayıtmadı, xeyli yubandı. Fidan dərhal Röyalın anasına zəng etdi. Dəstəyi Röyal qaldırdı.

- Elə indicə sənə zəng edəcəkdim. Qorxma, heç nə olmayıb, anamı gözləyirəm...

- Anan hələ işdən qayıtmayıb?

- Bilirsən, Fidan məsələ bir az başqa cürdür. Mənə üç yüz dollar təcili lazımdı, anam bir tanışından borc almağa gedib.

- Üç yüz dollar?

- İş tapmışam, əgər vaxtında aparıb verməsəm, əldən çıxacaq... Gülüzlüm, əgər anam tapmasa, sən mənə kömək edərsən?

Fidan bir anlıq fikrə getdi. Röyaldan bu sualı gözləmirdi. Belə çıxırdı, onun geri dönməsi üçün: "Hə, tapmışam!" deməliydi. Amma necə desin?

- Fidanım, niyə susdun?

- Bilmirəm, hələ düşünürəm, kimə ağız açım...

- Gülüzlüm, üççə gün vaxt veriblər, əgər tapıb verməsəm...

Fidan könülsüz:

- Üç gün az vaxt deyil, Allah kərimdi,-dedi.

Dəstəyi qoyandan sonra çox düşünüb-daşındı. Bircə yolu qalırdı, gedib Natəvandan birc götürmək, bəlkə yanında yaxşı bir işə də düzəldə bildi. Bu fikirlə onu arayıb-tapmaq qərarına gəldi.

*****

Natəvan rəfiqəsiylə bağlı büsbütün baş verənləri cikinə-bikinəcən öyrəndi. Fidan üçün tanıdığı adamın qarşısında sınmaq ağır idi, amma həmsöhbətinin yerli-yersiz suallarına cavab verməkdən ayrı çarəsi qalmadı. Yerli-yataqlı danışdı, ürəyini boşaltdı.

- Hə, həyat təlatümlü və zalımdır. Belə zəmanədə yaşamaq adamdan böyük məharət tələb edir, əziz rəfiqəm,-deyə Natəvan mentonlu siqaret yandırıb damağına qoydu,-uşaq vaxtı mənm də bütün qızlar kimi anama bənzəmək istəyirdim, onun kimi geyinməyi, xörək bişirməyi arzulayırdım. Şükür Allaha, böyüdüm, gözüm açıldı, söz verdim ki, mən  anamın çəkdiyi əzabları çəkməməliyəm, yalnız biş-düş qayğısına qalıb, ər danlağı eşidib, "neynim, necə edim" deyə-deyə ömrünün otuz ilini yelə verən bu qadın indi-indi xoş gün görür, ənlik-kirşanın, masajın nə olduğunu anlayır. Ağır fiziki iş görməkdən beli donqar olmuş atamısa ilk dəfə sanatoriyaya göndərəndə uşaq kimi kövrəlib ağlayırdı. Beş-altı il bundan qabaq məni görməyə gözü olmayan qohum-əqraba, tanış-biliş üçün indi az qala əlçatmaz İngiltərə şahzadəsi Dianaya çevrilim...

Nə isə... Özüm də bilmirəm, bunları sənə niyə danışıram. Bəlkə pula-zada ehtiyacın var, hə, uatnma de.

Fidan onun uzun-uzadı lüzumsuz söhbətindən usanıb eyhamlarından pərt olmuşdu.

- Bimirəm, necə deyim, dərd-sər başımdan aşır, bir yandan da heç kimi dilxor etmək istəmirəm... Bu dünyada almaqdandan dəhşətli şey yoxdur. Əgər yanında bir iş olsaydı...

- Eh, Fida, Fida, sən heç vaxt dəyişməyəcəksən. Axı bu nə həyatdı yaşayırsan. Bəsdir, özünü məğlubedilməz şahzadə kimi apardın... Sən ən çətin durumda belə özünü yersiz məğrurluğuna qurban verirsən. Al, - deyə danışa-danışa çantasından çıxartdığı bir dəstə dolların arasından beş yüz ayırıb rəfiqəsinin qabağına qoydu,-istədiyin kimi xərclə, amma gəncliyini heç olmasa, başına gələn bu hadisədən sonra hədər yerə xərcləmə. Sənin daha ixtiyarın özündədir, azad qadınsan, özün öz istəklərinin, gözəlliyinin, qəlbinin ağasısan... Amma aldanmaqdan da dəhşətli hadisələr var bu dünyada, aldanmaq, yalan-palan nə olan şeydir nə olan şeydir ki? Elə bilirsən ki, Cek mənə kələk gəlmir, yeni gələndə elə mən də onu bala-bala aldadıram.

Fidan heyrət içində gözlərini döydü:

- Demək istəyirsən ki, Cekə xəyanət edirsən?

- Ha, ha, ay qız, sən elə danışırsan, bişmiş toyuğun gülməyi gəlir, xəyanət nədir? Sən həyatda bacardığın kimi yaşamağa, istədiyindən zövq almağa xəyanət deyirsən? Biz bir-birimizi gözəl başa düşürük, o da uşaq istəmir, mən də. Biz tamam azad fərdlərik. O da xoşuna gələn başqa qadınla əylənə bilər, mən də bəyəndiyim kişiylə dostluq edə bilərəm, bir də unutma, hər hansı bir əcnəbiyə ərə gedib şorgöz türk kişisinin məşuqəsi olmaq, öz millətindən olan kişiyə ərə gedib Cekə oxşayan sısqa, qurumuş ingilisin məşuqəsi olmaqdan min qat olmaqdan yaxşıdır. Bilirsən, o, İçərişəhərdə tərcüməçisi olan məşuqəsinə ev alıb, hədiyyə edib. Belə olan halda niyə mən də özümə muzdla cavan sevgili tutub əylənməyim? Qadın qəlbinin iki qapısı var; biri sədaqət qapısıdı, digəri xəyanət. Sən nigaha sadiqlik göstərdin, əslində indi də orta əsrlərdə olduğu kimi itaətkarlıq

kompleksindən kənara çıxa bilmirsən. Nigah hər şeyi həll etmir, daha doğrusu, nigah müqaviləsi iki tərəf arasında öz şəxsi arzularını gerçəkləşdirmək üçün hüquqi sənəd rolunu oynayır.

- Sən nə danışırsan? Məgər bizim analarımız orta əsrlərdə yaşayıblar? Pis günlərini – yarıac, yarıtox vədələri nə tez unudub, üzünə gülən bəxt ulduzuna şıllaq atdın?

- Fida, sən yanılırsan, mən Londonda, ya da Parisdə maşın sürəndə rütubətli zirzəmidə kirayə qaldığım günlər, ata-anamın onun-bunun bağ evində bir qarın çörək üçün nökərçilik elədiyi vaxtlar kino lenti kimi gözlərimin qabağından gəlib keçirdi. Desəm ki, kövrəlib ağlamadım, ağ yalan olar. Amma ürəksıxan bu şeylər arxada qaldığından özümü tez ələ alıb sabahkı planlarım barədə düşünür, hərdənbir özüm-özümə gülüb deyirdim, bax, sən öz bacarığınla Avropanı fəth etdin Natəvan, sənin bacarmadığın işə qurd düşər, quzum, bircə qalıb Amerikaya getmək... Bu il ora mütləq gedəcəyəm, inşallah, Vaşinqtonun, Nyu-Yorkun küçələrindən kirayəyə götürdüyüm bahalı maşınlar şütüyəcək... Hə, Amerika dedim, yadıma düşdü, bizim bir əcnəbi şərikimiz var... Mən səni ona subay qız kimi təqdim edəcəyəm... Bəlkə sən də bir vaxt Londonun, ya da Parisin küçələrində maşın sürəndə bu çətin gününü xatırlayacaqsan. Onda mənə “çox sağ ol” deyəcəksən, təsəvvür edirsən, pinəçi Səlimin qızı Avropanın göbəyində bahalı avtomobil sürür, inanılası deyil, eləmi?

Fidanın üzünün rəngi qaçmışdı, dil-dodağı əsirdi. Natəvan məsuliyyətsiz davranışıyla, sərsəm danışığıyla mənliyinə toxunmuş, heysiyyətini tapdalamışdı:

- Bəsdir, Natəvan, mən sənin yanına alçalmaq üçün gəlməmişəm... İstəmirəm, al, verdiyin pullar mənə gərək deyil. Mənə nə təklif elədiyini də yaxşı anlayıram. Vaxtilə o ingilis gədəsini toruna salmaq istədiyini mənə deyəndə səndən küsmüşdüm, indi o günlərin heyfini almaq üçün məni hansısa əcnəbinin məşuqəsi edib alçaltmaq istəyirsən. Demək istəyirsən ki, bundan ayrı yol yoxdu. Var, Natəvan, namusunu əcnəbilərə tapdadıb , yağlıplov yeməkdənsə, təmiz vicdan, alnıaçıq, soğan-çörək yemək daha şərəflidir.

- Axı sən özün iş istədin... O adam multimilyonerdir.

- Bəli, mən səndən iş istədim, hansısa əcnəbi işbazın məşuqəsinə çevrilməyi yox. Səndə heç bir günah yoxdur, səni tanıya-tanıya səndən kömək umandadı günah...

Dönüb arxasına baxmadan getdi.

Natəvan iş masasının üstünə atılmış pulları yığıb onun arxasınca:

- Axmaq, bu ağılla hara getmək olar? Sən get, get, axı, "eşşək nə bilir zəfəran nədir", ay yazıq.

*****

Yenə ümid qalırdı qonşuluqda yaşayan hamamçı Roza arvada. Satmağa, girov qoymağa zinət əşyaları qalmamışdı, bircə anasının yəkqaşlı brilliant üzüyündən başqa, onu da bu günəcən gözbəbəyi kimi qorumuşdu. Çünki bu üzük anasına böyük nəvəsindən yadigar qalmışdı. Onu nə satmaq, nə də girov qoymaq istədi. Hamamçı Roza da elə bil Natəvan ilə sözləşmişdi, onunla hal-əhval tutandan sonra:

-Fidan, qızım, görürəm, zəmanənin üzü qara olsun,çətindi,-dedi,-borclar səni yaman sıxışdırır. Maşallah, gözəlsən, ay parçası kimisən, qızlıq təravətini hələ itirməmisən, necə deyərlər, bir üzün gəlindi, bir üzün qız, məncə sən... – qəfil susub sınayıcı baxışlarla gözlərinin içinə baxdı, sonra dərindən köks ötürüb sözünə davam etdi,-uzun sözün qisası, özünə bir arxa-dayaq tapsan, yaxşı olar. Yoxsa bu borc-xərc bataqlığından çıxa bilməzsən... Gəlsənə, səni yaxşı bir Allah bəndəsiylə tanış edim, o, sənə hər sahədə kömək etsin, həyan dursun. Onsuz da həyatında gec-tez kimsə olacaq, ürəyini bir şəxsə açacaqsan...Sənin kimi gənc qadının bu çətin dövrdə tək yaşaması mümkün deyil. Hələ üstəlik, uşağın var. Nə deyirsən?

Fidan fikirləşmədən birbaşa:

- Yox, yox, elə şey ola bilməz,-dedi.

- Cavab verməyə tələsmə, qızım, al götür, üş yüz dollar sənin qara gözlərinə qurban, ancaq get yaxşı-yaxşı fikirləş, düz bir həftədən sonra mənə fikrini bildir, kişinin ünvanını verim, otur taksiyə özün get görüş, yaxşı bağı-bağçası var, otur-dur elə, xoşuna gəlməz, başqasını taparam. Bu dünyada nə çoxdu pullu-paralı kişilər...

Belə çıxırdı bir həftəyə ya üç yüz dolları qaytarmalıydı, ya da taleyin istəklərinə boyun əyib, özünü hamamçı Rozanın ixtiyarına buraxmalıydı. Roza da ondan – daha doğrusu, onun bədənindən qazanc məqsədiylə istifadə edəcəkdi. “İlahi, sən mənə arxa ol, məni pis yola düşməkdən qoru!”.

Durub gedəndə arxadan hamamçı Rozanın amiranə səsi gəldi:

- Bir həftədən sonra cavab gözləyirəm, haa...

O gecə Fidan qarışıq yuxu gördü. Guya çar-naçar hamamçı Rozanın yazıb verdiyi ünvana gedir. Qapısı açıq bağ evində bir otağa daxil olur, hündür tavanlı geniş mənzilin ortasındakı masaya içkilər düzülüb, mer-meyvə qoyulub, amma otaqda heç kəs yoxdur, səs-səmir gəlmir, kimsə duş qəbul edir, qızın gəldiyini hiss edən həmin naməlum şəxs: “Gözəl qız, sən özünçün məzələn, mən bu dəqiqə çıxıram”-deyə səslənir. Qəribə də olsa səs Fidana tanış gəlir, az sonra qurulana-qurulana lüt-üryan vanna otağından bayıra çıxan həmin səs sahibi onu görcək heykəl kimi yerində donub qalır, özünü o qədər itirir ki, qurşaqdan aşağısını örtən hamam dəsmalının yerə düşməsindən xəbəri olmur, sərxoş və çılpaq halda qarşısında peyda olan Əfqanın dili topuq vurur:

- O qo..ca, çox...bilmiş qəh..bə səni qəs...dən bura göndərib. Fidan özünü itirmir, dişi aslan kimi axtardığı ovunun üstünə yeriyir:

- Bişərəf, namərd, məni pis yola düşməyə sən vadar etdin, iblis kimi atamın qılığına girib, ailə tifağımızı dağıtdın, murdar nəfsin Allah bilir, mənim kimi daha neçəsini bədbəxt edib, çirkaba batırıb...

- Məni izləyirdilər, istəmirdim, arvadım olduğunu bilsinlər...

- Qorxurdun ki, aldatdığın adamlar birinci arvadın kimi məni qaçırdarlar, ay namussuz, dələduz, gözüylə görən... – deyə Fidan da çığıra-çığıra masaya meyvə soymaq üçün qoyulmuş mətbəx bıçağını əlinə alıb beş-altı dəfə dalbadal onun peysərinə, köksünə saplayır... Hər dəfə zərbəni endirəndə: “Al, ailəmin şərəfini iki qəpiklik etdiyinə görə bu atamdan, bu anamdan, bu bacımdan, bu məndən, bu da oğlumdan sənə hədiyyə”-deyir. Əfqan qan gölündə üzsə də, hırıldaya-hırıldaya danışır: “Qanım sənə halaldı, dayqızı, məni bıçaqla yox, baltayla doğra, tikə-tikə elə, daha orda-burda gizlənməkdən usanıb bezmişəm, yarasa kimi gecədən-gecəyə

yuvamdan çıxıram... Ancaq məni öldürməmiş sənə bir vəsiyyətim var, o qara gədədən uzaq dur... Röyalı de..yi..rəm, o narkoman manyakdı...".

Yuxudan hövlnak ayılıb bir qurtum su içdi. Özünə gələndə düşünüb-daşındı ki, yəqin bu yuxunu usta Mehmanın ərzaq göndərdiyi sürücünün danışdığı əhvalatın təsiri ilə görüb. "Kim bilir, bəlkə Roza arvadın mənimlə tanış etmək istədiyi "harın kişi" Əfqandı elə? Yox, Allah eləməmiş, birdən "harın" dediyi o kişi Mehman ustanın özü olar? Deyir, yaxşı bağı-bağçası var. Bu nə boş-boş fikirlərdi gəlir başıma? Məgər malikanəsi, bağ-bağçası olan təkcə Mehmandı? Amma bir şey gün kimi aydındı, ev sahibi Allah eləməmiş, mənim pis yola düşdüyümü bilsə, mütləq burdan qovacaq... Dərdimin üstünə bir dərd də əlavə gələcək onda. Çalışıb üç-dörd günə Roza arvadın pulunu aparıb qaytararam. Məni zorla onun-bunun altına yıxmayacaq ki?! Bəs "Röyaldan uzaq dur, o, manyakın biridir" xəbərdarlığı, özümü ona görə oda atıb, bu qədər borcun altına girməyim, doğrudanmı, bütün bu fədakarlıqlar əbəsdir".

Oddan qaçmaqla oda sarı qaçmaq başqa-başqa şeylərdi. Birində od yalnız düşdüyü yeri yandırıb-yaxır, o birində söndürməyə gedəni də külə döndərir.

Yuxuda Əfqanın Röyalı "manyak" adlandırması yadına psixoloqla etdiyi söhbətləri saldı: "Narkomanlar yalanı inandırıcı formada danışır, qarşısındakı adamın qəlbini ələ almaq üçün özlərini məsum göstərib, qəribə fikirlər söyləyir, qeyri-adi hərəkətlər edirlər...".

Nə etməli, haranın külünü başına tökməli? Düşündü ki, tutalım öz məhəbbəti naminə həyatını xilas etdiyi Röyala görə gedib tanımadığı kişilərlə görüşdü, yaşadı... Məgər bu şərəfsizlik Röyalın özünə xəyanət deyildimi? Əfqana xəyanəti qəbahət saylmırdı, o bic buna layiq idi, amma xəyalında yaratdığı, həyatdasa taleyin narkoman kimi qarşısına çıxartdığı Röyala xəyanət edəcəyini ağlının ucundan belə keçirə bilmirdi... "Axı, onun gözlərinə necə baxaram. Biləndə -səni narkotika bataqlığından xilas edib, həyata qaytarmaq, işə düzəltmək, bir sözlə, adam eləmək üçün özümü küçə fahişəsi kimi pula satdım-deyəcəyəm? Lənət sənə, kor şeytan, bu fikir ağlına hardan gəldi?"

Özü də nəetdiyinin, nə düşündüyünün fərqində deyildi, maddi vəziyyəti onu o qədər sıxmışdı ki, başını tamam itirmişdi. Iki gün idi Röyal evə gəlmirdi. Üçüncü gün sübh tezdən zəng edib bildirdi ki,anası pul tapa bilməyib.

- Deyəsən, o üç yüz dollar tapılmayınca heç bura dönmək fikrin yoxdur. Yaxşı, gəl apar, mənə kişi kimi verdiyin sözü də unutma, işə düzəlmək adıyla aldığın pulu aparıb beynini dumanlandıran o zəhrimara versən, bəxtindən küs!..

Röyal sevinə-sevinə, uça-uça gəldi. üzündən-gözündən öpüb getdi.

*****

Həmin gecə evə zəng edib, onu işə düzəldən dostugildə qaldığını bildirdi. Səsi yenə bərk xırıldayırdı. Bu hadisədən sonra Fidanın Röyalın sağalacağına bəslədiyi ümidləri zəncir halqaları kimi bir-bir qırılıb tökülməyə başladı. Bir-iki gün də keçdi. Böyük kədər hissiylə Röyalın anasına zəng etdi.

- Ay gəlin, başına dönüm, qaranı görüm, qara günlərə qalsın, mənim günümü də qara edib, kaş öləydi, mənim də canım qurtaraydı, sənin də...

Hansı ana övladını belə qarğıyardı. O qısa telefon söhbətindən belə məlum oldu ki, yazıq arvad oğlunun məhəlləyə gəldiyi gündən narkotika qəbul etdiyini bilirmiş, ancaq bu dəfə xəcalətindən Fidabna zəng etmirmiş... Deyirdi ki, bir daha ağlaya-ağlaya yalvarıb, oğluna kömək istəməyəcək. Çünki oğlu öz əli ilə özünə qəbir qazır. Küçədən tapılan meyitini də bu gün, sabah yəqin televizorda göstərəcəklər.

Amma Fidan onun ölümünə razı deyildi. Ürəyində “Allah eləməsin!” deyirdi. Doğrudan da bu dünyada heç kimə etibar yoxmuş. Bəs bundan sonra Fidanın aqibəti necə olacaq? Yəqin bacardığı qədər gədəni özündən uzaqlaşdırmağa çalışacaqdı. Qəlbində ilk dəfə idi ki, “Allah belə məsləhət bilirmiş” ifadəsinə acığı tutdu, “məgər Allahın mənim qabağımda Əfqan kimi dələduzu, Röyal kimi narkomanı çıxartmaqdan başqa işi-gücü yox idi? Yox, bu adamlara ürcah olmaqda mənim də səhvlərim, günahım var, biri qismətimlə barışıb, iradəsizlik göstərməyimdir, o biri üyəyiyumşaqlığımın, sevgimin, mərhəmətimin ucbatından.., bunlar bir yana, hələlik hamamçı Rozanın borcundan çıxmaq barədə düşünmək lazımdı”, axı verdiyi vaxt-vədə get-gedə daralırdı. Röyalın bu hərəkətindən sonra,

Natəvanın dediyi kimi özünü həyatın axarına buraxmaqdan başqa çarəsi qalmamışdı.ünün qabağından Röyalla keçirdiyi intim anlar gəlib keçdi. “Allah eləməsin, o manyakdan uşağa qalım...”-deyə pıçıldadı.

*****

Həftənin axırıncı günüydü. Fidan fikir-zikir içindəydi, qəm dəryasına batmışdı, birdən qapı bərkdən döyüldü. Fidan qapını açmağına peşman oldu:

- Mənə pul lazımdı, gözəlim mənim...

Fidan qaşqabaqlı surətdə başını buladı:

- Əvvəla, salaməleykim, ikincisi, sən de, pulu hardan, kimdən tapım?

- Üçüncüsü və sonuncusu, bilmirəm, hardan tapırsan, tap, bir nəfərə pul verməliyəm, məni aşağıda gözləyir, xahiş edirəm...

- Sən axı yaxşı bilirsən, mənim pulum yoxdu, o üç yüz dollara görə...

Röyal sözünü kəsib:

- Cəhənnəm olsun, o üç yüz dollar! Get, çantanı bura gətir...

Gözlərinin içindən sanki o deyil, yarıyuxulu, mürgülü başqa bir məxluq peyda olub key-key baxırdı Fidana. Bəlkə bu, adına cin, şeytan deyilənin özüydü. Bu durumda dünya gözəli olan ən şirindil, ən hiyləgər qadın belə onu sakitləşdirib ovundura bilməzdi.

- Vəziyyəti qəlizləşdirmə, çıx get! Bilmirsən, bilmək də istəmirsən ki, məni qarşıda hansı müsibət gözləyir. Bu gün sənə verdiyim o üç yüz dolları qaytarmasam, gedib yad bir kişinin altına yıxılmalıyam, başa düşürsən, axı məni sevdiyini söyləyirdin, məgər sənin üçün həyatda müqəddəs heç kim, heç nə qalmayıb? Ananın, sevdiyin qadının qədd-qaməti heçdirmi səninçün? Məgər bu dünya o bir parça zəhrimarın dumanından aldığın yalançı ləzzətdən ibarətdir? O yalançı həzz keçib-gedəndən sonra gör nə hala düşürsən? Niyə özünü göz görə-görə məhv edirsən, Röyal, niyə?

Röyal rişxəndlə:

- Hə, mnə nə qədər istəyirsən ağıl ver, haqqın var, de ki, o zəhrimar çörəyi-suyu əvəz edib, mənimçün, de ki, bir qram narkotik zibili əldə etmək üçün mənim kimilər lap öz anasını, arvadını da pula satar. Ancaq mənə bu dəqiqə pul lazım

olduğunu da unutma! Düz deyirsən, səni sevirdim, amma necə deyərlər, bu “qara” da məni sevir, onun sevgisi mənim sevgimdən güclüdü. Bu həyat nədir axı? Səncə, hamımız üçün ölümü gözləmək səhnəsi deyilmi, çox gözəl, füsunkar dediyimiz bu həyat? Çəkən üçün də, çəkməyən üçün də... Bu səhnənin yalnız bir qalibi var. Gülüzlüm, mənim, onun da adı Ölümdü. Istər ağ olsun, istər qarası, bəlkə yaşılı, mavisi də olur, amma sən də unutma, ölüm elə ölümdür.

- Röyal, mən doyunca yaşamaq, sevmək, oğlumu böyütmək istəyirəm. Söz vermişdin, dil tökmüşdün, diz çökmüşdün, yalan danışmayacaqsan, köhnə vərdişindən əl çəkəcəksən, son günlər müxtəlif bəhanələlərlə evə gəlməyəndə, sanırdım ki, xroniki yalançılıq xəstəliyinə tutulmusan. Demə, sənin içindəki tərki-dünyalıq həvəsi ondan da güclüymüş, bu həvəs vərdişə çevriləndə fəlakət baş verir. Eynən intihar kimi...

- Mən pis oğlanam, ona görə də məndən təzədən adam olacağına boş yerə ümid bəsləmə...

- Sən elə bilirsən, qadın üçün həyatda ən qorxulu şey ərsiz, kişisiz qalmasıdır? Ac-susuz, pal-paltarsız qalmaq, tənhalığın ağrı-acısı ürəyini yandıra-yandıra kirayədə ömür-gün keçirtmək nə qədər ağır olsa da, Əfqan kimi dələduza, sənin kimi islaholunmaz narkomana rast gəlməkdən yaxşıdır... Mən onun köləliyindən qurtuldum, sənin əsirin oldum. Bir qadın üçün ən dəhşətli şey ehtirasların quluna dönüb, özünün öz gözündən düşməsi, daxilinə, keçmişinə xəyanətidir. Mən bu gün sənə görə qəm-kədərlə gözlərimi dolandırıb, göz yaşlarımı içimə axıda-axıda harın, pullu bir kişiylə sevişməyi bir az əvvəl fədakarlıq, az qala qəhrəmanlıq sayırdım, indisə bədbəxtlik...

Röyalın yenidən gic damarı tutdu, elə bil gözlərində uyuyan şeytan yuxusundan oyanıb bağırdı:

- Yaxşı, bəsdir, - səsini qonşular eşitməsin deyə aşağı saldı,-onsuz da ürəyimdə kövrək hissiyyatım qalmayıb, deyirsən, pulun yoxdu, amma sən bayaqdan gözəl-gözəl nitq söyləyirsən, mən də o zərif əllərinə, barmaqlarına baxıram, orda axtardığım puldan da artıq pul görürəm, çıxart ver, gedim. Dostlarım pul əvəzinə, üzüyə də qane olarlar, hələ bəlkə qalığını da qaytardılar.

- Sən nə danışırsan, vermərəm, bu üzük nənəmdən yadigardı.

- Sevimli nənəni o dünyada pərişan eləmək istəmirsənsə, lal-dinməz çıxart ver, gedim, yoxsa, o gözəl barmağın şikəst olar, mən qan görən kimi əsəblərim sakitləşir.

- Manyak, əclaf, sənin biqeyrət Əfqandan heç nəyin əskik deyil, o, atamı aldadıb, babamdan miras qalan evi satdı, sən də məni aldadıb, üstəlik hədə-qorxu gəlməklə nənəmdən yadigar qalan yeganə qiymətli üzüyümü almaq istəyirsən. Bir çimdik ağ tozdan ötrümü? Bu üzük...

Hay-küy səsinə uşaq səksənib zarın-zarın ağlamağa başladı.

Röyal havalı-havalı bir əli ilə başını tutub, o biri əlini divara çırpdı:

- Bu üzük, bu üzük, hər halda sənin o gorbagor nənən nə padşah qızı olub, nə də xan-bəy arvadı... Sənə dedim ki, çıxart ver, vəssalam-şüttəmam.

Hirslə Fidanın üzərinə yeridi. Fidan dal-dalı çəkilib, divara qısıldı. Özünü necə müdafiə edəcəyini bilmirdi. Röyalın birinci şilləsi başını gicəlləndirdi, ikincisi yerə sərdi. Müqavimət göstərirdi, sıxılmış ovcunu açmaq istəyən Röyalı inəsindən itələdi. Bu zaman Röyalın gözü qızdı, daha da quduzlaşdı, yumruqlarını işə salıb, huşunu itirənəcən Fidanı döydü.

*****

Uşaq yatağından düşdü, döşəmədə huşsuz vəziyyətdə hərəkətsiz qalan anasının yanına yüyürdü. Ağlamağına ara verdi:

- Ana, ana, duy, su vey, su, su...-deyə onun saçından dartışdırırdı. Fidan özünə gəlib, birinci boş qalmış barmağına baxdı. Sonra uşağa su verib, güzgü qabağında üzünün, alnının göyərib-şişmiş yerlərinə buz qoyub için-için ağladı.

Bu zaman mobil telefonu zəng çaldı. Fidan birtəhər toxtayıb, ekrana baxdı. Zəng edən hamamçı Rozaydı. “Keçi can hayında, qəssab piy axtarır”-pıçıldayıb barmağının ucuyla yaşıl düyməni basdı. Başqa bir barmağı da telefonun səsgücləndiricisinə toxundu:

- Ay qız, harda qaldın, mən səninçün yaxşı çay, şirniyyat süfrəsi açmışam, adamın da başımı xarab edib, zəngimi gözləyir...

- Roza xanım, məni bağışlayın, qoy bu məsələ başqa vaxta qalsın, üz-gözüm pis gündədir, görsən, tanımazsan.

- Mənə bax, bəhanə gətirmə, o pulu səndən yüksək fazilə geri alaram, elə bilirsən, xəbərim yoxdu, balam, his-pas basmış “silyotka” narkomanın qoynunda nə həzz alırsan, başa düşmürəm...

- Bəhanə gətirmirəm, elə onun qoynuna girmədiyinə görə məni əməlli-başlı döyüb, inanmasanız, bu dəqiqə telefonunuza üz-gözümün şəklini çəkib göndərərəm, baxın görün, nə haldayam, ən azı bir-iki həftəyə sağalmaz...

- Ay qız, bəs niyə polisə vermirsən, nədən çəkinirsən, istəyirsən, bu dəqiqə zəng edim, bassınlar içəri, canın qurtarsın.

- Yox, yox, sizi and verirəm Allaha, lazım deyil, çünki anası məni tanıyır, uaxşı düşməz, inanmıram bir də bura gələ...

- Ay-hay, sən nə danışırsan, narkoman dadandığından belə asan əl çəkmir. Mənə qulaq as, ondan birdəfəlik qurtulmaq istəyirsəndə, yaşayış yerini dəyiş...

Fidan candərdi söhbəti bitirmək xatirinə:

- Yaxşı, bu haqda fiirləşərəm, sağ olun!-dedi.

Üzük əhvalatından sonra tamam sarsıldı, ağır depressiyaya düşmüş kimi, bir neçə gün yataqdan qalxmadı, ev telefonunu xətdən ayrırdı. Cib telefonunu söndürdü. Bir müddət sakit həyat tərzi yaşadı.

Telefonuna üç ismarıc gəlmişdi; hər üçü Röyaldan idi. fidan düşündü ki, yəqin elədiyinə peşman olub üzr istəyir. Ona görə ismarıcları oxumadan telefonun yaddaşından silmək istədi, maraq güc gəldiyindən gözucu nəzər saldı, gördü ki, üzrxahlıqdan əsər-əlamət belə yoxdur. Elə bil nə o üzük əhvalatı olmuşdu, nə də Fidanı şillənin, yumruğun altına salıb əzişdirmişdi, “bəs o manyak ismarıclarında nə demək istəyir”, maraq hissi güc gəldi, birinci ismarıcı oxudu: “Mən səndən qaçıram, çünki sənsizlikdən ölmək istəyirəm. Istəmirəm ki, mənim ölümüm sənin gözlərinin qabağında olsun! O dünyaya getməyi bacarmaq asan iş deyilmiş. Sənə yaxın ola-ola səndən uzaqda ölməyi öyrənirəm, əlvida, sevgilim”. Görünür, cavab almadığından ikinci məktub ismarıcda yenidən Fidanın ürəyini ələ almağa cəhd edirdi: “Bu nə cəzadı, taleyimiz bizə verir, gülüzlüm? Hər ikimiz iradəsizliyimizin

əzabını çəkirik, mən sənə layiq olmaya-olmaya qəlbinə yol tapdım. Dərdini-sərini yüngülləşdirəcəyimi zənn edirdim. Tale əks tərəfə sürüklədi. Əvvəl təkcə anam əzab yükünü daşıyırdı, indi sənin də əzab yükünü artırdım. Bu gün anam səni incitdiyimə görə məni evdən qovdu, rəva görmə ömrümün son günlərini bomj kimi yaşayım... Mənə bir dəfə də fürsət ver". Nəhayət, üçüncü ismarıcda Röyal narkoman fəlsəfəsiylə etdiklərinə haqq qazandırır, əsəbləşir, ondan əl çəkməyəcəyionə eyham vururdu: "Niyə mənə cavab vermirsən, düşünürsən, kişi sarıdan bəxtin gətirməyib? Yox, məni suçlayıb, betərin betəri varmış demə, çünki məni qadir Allah sənin yoluna, bu şəkildə həyatdan ibrət dərsi almağın üçün çıxartdı. Dörd divar arasında kölə kimi yaşayan sənin kimi bədbəxt qadınlar az deyil, düzü, səni xəyallarında təsəvvür elədiyin xoşbəxtliyə qovuşdura bilmədim, amma dənizdə dalğaların yırğaladığı solğun mayak kimi köləlikdən azad olmağın yolunu nişan verdim... Səni dələduz bir adamın əsarətindən qurtardım. Illər ötəcək, itirdiklərinə rəğmən qazandıqlarına sevinəcəksən, taledən qaçmaq olmur, bu əsmərbənizli oğlana evinin və qəlbinin qapılarını aç! Gəlirəm..."

Fidan təşvişlə qapıya yaxınlaşıb kilidi təkrar-təkrar yoxladı, havalanmış adamlar kimi öz-özünə danışmağa başladı:

- Gəlir? Yox, bu qapı heç vaxt onun üzünə açılmayacaq. O manyaka heç vaxt, heç zaman məni alçaltmağa, təhqir etməyə bir daha fürsət verməyəcəyəm – danışdıqca əsəbləşib coşurdu, - daha başqa bir Fidanam, başqa ürəyimə daş bağlayıb, narkotik maddənin əsirinə çevrilmiş bu xəstənin ismarıclarına da, zənglərinə də cavab verməyəcəyəm... – deyə çığırıb cib telefonunu zərblə parket döşəməyə çırpdı. Cingilti səsinə o biri otaqda şirin-şirin mürgüləyən oğlu diksindi.

Fidan dəli kimi eyvana çıxdı, qarşı tərəfdə tikinti işləri gedən təzə binanın son mərtəbəsinə baxdı, yenə Röyal yada düşdü, yox, artıq əsmərbənizli, çinar boylu oğlana bənzətdiyi Röyaldan əsər-əlamət yox idi, "Fidan, mən səni sevirəm" sözlərini yazdığı o yüksəklikdən dərin dərənin dibinə əbədi yuvarlanmışdı.

Onun düşdüyü nəhəng xəndək böyük uçurum xəyalında canlandı. Orada Röyal yaşında cavan, nə vaxtsa, ata-anasının əziz-xələfi, məktəbli qızların vurulduğu gözəl-göyçək, sağlam oğlanlar əqrəb sürüsü kimi qaynaşırdı...

Zəhər ehtiyatı tükənən əqrəblər özünəməxsus təbii instinqlə sıraya düzülür, uçurumdan yuxarı dırmaşırlar, onlar qarşılarına çıxan canlıları sanca-sanca artıb çoxlaırlar. Sonra əqrəblər nizamlı ordu kimi böyük şəhərlərə soxulurlar. Röyalın başçılıq etdiyi dəstə Fidanın yaşadığı göydələni mühasirəyə alır...

Fidan bhirdən diksinib ayıldı, özünə gəldi, bu nədir, xəyalın gerçək, yoxsa gerçəyin xəyal şəklində təcəssümümü? Qorxa-qorxa eyvandan üzüaşağı boylandı.

“Yox, Fidan, belə olmaz...” – deyə bədbinlikdən yaxa qurtarmaq istədi. Bu ür xəyalların, şbühələrin içində qovrulmaqdansa, elə günü bu gün uşağını da götürüb atangilə get, yoxsa dəli olarsan. Içəri keçib güzgüdə sifətinə baxdı, göy yerlər hələ tam sağalmamışdı. Ata-anai deməzdimi, bu nə sir-sifətdi? Düzdü, o, bu vəziyyətə düşdüyünə görə valideynlərini günahkar sayır, onları qəlbən bağışlamır, görmək belə istəmirdi.

Bəs neyləməli? Qalıb Natəvanın dediyi kimi, taleyini zamanın axarınamı buraxsın? Onunla sərt davranan amansız iqballa döyüşdən əl çəkib Roza arvada sığınsın, gündə bir kişinin qoynuna girib, fahişəlikmi etsin?

Çantasına baxdı, uşaq üçün yemək almağa heç qəpik-quruşu da yox qalmamışdı. Üzünə nə qədər ənlik-kirşan çəksə də, göy yerlərin izi bilinirdi.

Tutalım, durub indi getdi o aradüzəldən hamamçı Rozagilə, dedi ki, razıyam, hansı “harın kişi” ona yaxın düşər?

Ev telefonunu xəttə qoşdu.

- Alo, Roza xanım, mənəm, Fidan, cib telefonumun danışıq müddəti bitib, dedim bəlkə zəng edib məni axtarmısız... hə...hə, bir azca qalıb bədənimdə, bu dəqiqə baxım,-tələsik nazik ev xalatını soyunub, yarıçılpaq qaldı, - hə, inanın, bu, heç, ağlıma gəlməyib, göbəyimin ətrafında qara qançır yerlər var...

Deyirsiz, bir az da gözləyim... Onda,-sözünü bitirməmiş dəllal Roza dərhal dəstəyi asdı,-duud, duud... Fidan bu qırıq-qırıq səsləri dinləyib, güzgü qabağında xeyli çılpaq dayandı. Deyəcəkdi, “onda qoy sizə gəlim, heç olmasa, danışıq kartı almaq üçün pul verin”, sonra da dükana gedib uşaq üçün bir şey alardı. Söz yox qadın imkan vermədi. Evdə bir az quru peçenye qalmışdı. Dükançının borc dəftərində adı var idi, məbləğ şişmişdi, daha şörəyi də nisyə almağa utanırdı.

Özünə yer tapa bilmirdi. Evin içində o küncdən bu küncünə gedir, bu küncündən o küncünə gedir, rabitəsiz halda vurnuxurdu... Geyinib mətbəxə keçmək istədi, birdən gözləri televizorun yanındakı büllur güldana sataşdı. Güldanın içində ilk dəfə Röyalın gətirdiyi çiçək dəstəsindən quruyub qaralmış ləçəklər qalmışdı. Büllur qabı hər dəfə silib təmizləyəndə, getdikcə gül ləçəyindən çox tütün yarpağına bənzəyən o çürüntünü atmaq istəsə də, əli gəlməmişdi. Indi güldanı aparıb yaxşı-yaxşı yudu, təmizləyə-təmizləyə Röyaldan da bu dünyada bir iz qalmayacağını düşündü. Sonra güldanı silib yerinə qoydu, ağlına daha bir fikir gəldi: "Görəsən, bu qabı satmaq istəsə, müştəri nə qədər pul verər?"

*****

Bir neçə gündən sonra oğluyla oturub televizora baxanda, gözləri ekranın aşağı hissəsində qaçan sətirlərə sataşdı. "Fidan, hardasan, mənə cavab ver... səni sevən kəs... Fidan, Fidan, Qara, Qara-23..." Başqa sətirdə isə kiminsə arzusu ifadəsini tapmışdı: "Gözəl, sədaqətli, peşəsi həkim, evi, maşını olan 35-40 yaş arası bir qadınla tanış olmaq istəyirəm. Imza: Kasıb oğlan..." Bir azdan Qarabalanın yazıb göndərdiyi sətirlər təkrar göründü.

- Qəribədir, görəsən, o bədbəxt belə şeylərə pulu hardan tapır? – Fidan uşağın oyuncaq kimi fırlatdığı sınmış cib telefonuna baxıb təəssüflə başını yellətdi.

Dünyada onun ən çox dözmədiyi, hövsələsi çatmadığı şey riyakarlıq idi. bu qisim adamlar həyasızcasına soxulur, hətta, ekran-efir məkanından da öz məqsədləri üçün istifadə edirlər.

Qapının zəngi çalındı. Fidanın boğazı qurudu. "Yəqin odur, həyasıza bax, yenə pul istəməyə gəlib, bəlkə heç o deyil?". Qapı hər dəfə döyüləndə, telefon zəng çalanda az qala dəli olmaq dərəcəsinə çatırdı.

Qorxu qara quş kimi səksəkəli ürəyini pəncəsinə alıb göy üzünə qaldırmışdı. Fidanın ayaqları yerə dəymirdi. Nəfəsini içinə çəkib gözlükdən içəri boylandı. Şükürlər olsun, gələn o deyildi, Mehman ustanın sürücüsü idi. yenə əli dolu gəlmişdi. Fidanın həyəcanı sovuşdu, üzünə qəlbinin dərinliyindən doğan gizli süvincin işığı düşdü:

- Xoş gəlmisiz əmican, bağışlayın, bir az qapını gec açdım.

- Elə bildim evdə yoxsan, az qalmışdı, qayıdıb gedirdim.

- Siz içəri keçin, bunları özüm apararam.

Kişi dəhlizdə ayaqqabılarını soyunub çıxartdı, sonra qoltuğunda tutduğu kağız qovluğu Fidana uzatdı,-Dayan qızım, sən bunu al, mən bu ayın-oyunu özüm mətbəxə daşıyaram.

Fidan əlindəki qovluğu qeyri-ixtiyarı yellədə-yellədə kişinin arxasınca getdi. Kürəyini soyuducunun qapısına söykəyib:

- Gəlin, qonaq otağına keçək, - dedi – siz Allah, əyləşin, sonra mən özüm bunları yerbəyer edərəm.

- Elə bura da pis deyil, qızım, mən tez gedəcəyəm.

Əl-üzünə su vuran dünyagörmüş kişi diqqətlə Fidana baxdı:

- Hə, yaxın gəl görüm, gözümə birtəhər dəyirsən, yaman sınızmısan, bəlkə səni incidib-eləyən var?

- Yox, elə belə...

- Nə elə belə? De, qorxma, qədeş bilsə, səni incidən hər kimdisə, dəxli yoxdu, ağzının payını verər... Allahın köməyi, ağlının gücü ilə özündən deyən oğlanları yerində oturtmağa gücü çatar. Al, sənə pul da göndərib, dedi, birdən Fidan xanımın pula ehtiyacı olar. Düz beş yüz manatdır...

Fidan sürücünün əlindəki yüzlüklərə baxıb təəccübdən heykəl kimi donub qaldı, sevincindən ağlasınmı-gülsünmü ağlı kəsmirdi, amma üzünə işıq salan daxili sevincini gizlədə bilmədi, həyəcanla iki əlini irəli uzadıb pulu ovuclarına basdı:

- Allah sizi sevindirsin, əmican, bu lap yerinə düşdü, hə bir nəfər qonşu arvad... – birdən üzündəki işıq yox oldu, elə bil günəşin qabağını qara bulud aldı,- hə, yaman məni sıxma-boğmaya salmışdı, axı...-tez özünü ələ alıb, sözünə düzəliş verdi: - hə, uşaq zəhərlənmişdi, təcili yardım çağırdım, dərman almağa qarıdan bir az əlborcu götürmüşdüm, gecikdirdiyimə görə bir az əvvəl gəlib ağzına gələni deyib getdi. Yaman pərt idim. Onun qorxusundan çölə-bayıra da çıxa bilmirdim. Allah Mehman ustadan və sizdən razı olsun, Tanrı ömrünüzü uzun eləsin, sizə qıymasın.

- Bu harasıdır hələ, sənə bir şad xəbərim də var. Hərçənd buna şad xəbər demək olar-olmaz, orasını mən bilmirəm, əlqərəz o yalançı-fırıldaqçı gədəni tutublar. Necə deyərlər, "çoxbilmiş quş dimdiyindən tələyə düşər". Bu qovluğu aç, orda vəkilin sənin adından yazdığı sənədi imzala...

Fidan tez qonaq otağından qələm gətirməyə getdi. Bu zaman kişi durub soyuducunun qapısını açdı. Və gözlərinə inanmadı, soyuducu bomboş idi.

Fidan qayıdıb, gələnəcən, keçib yerində oturdu.

Qız sənədi imzalayan kimi kişi qovluğu götürüb:

- Hə, mən gedim, - elə bil səsi quyunun dibindən gəldi.

Fidanın sevincindən ruhu təzələnmiş, ovqatı durulmuş, qulaqları tutulmuşdu.

Qəlbindən "Məni qınayan olmasa, elə bu saat gedib, Mehman ustanın əllərindən, ayaqlarından öpərdim..." fikri keçdi.

- Qızım, - deyə kişi səsini qaldırdı, - fikrin-xəyalın haralara uçub, deyirəm, mən getmək istəyirəm. Bir istəyin-filanın varsa, söylə, çəkinmə.

- Nə tez, əmican? Mən heç Mehman ustanın hal-əhvalını əməlli-başlı xəbər ala bilmədim...

Kişi dərindən köks ötürüb, sözlü adam kimi başını tərpətdi. Yəni əhvalı yaxşıdı, sonra ilk dəfədi ki, bir qadına uzaqdan-uzağa da olsa, ilgi, diqqət-qayğı göstərdiyinin şahidi oluram. Məndən olsa, uşağı da götür, bir dəfə özün bağa gəl. Həm ona təşəkkürünü bildir, həm də ki, iki-üç gün qalıb dincəl. Bu dörd divar arasında qalmaqdan rəngi-ruhunuz saralıb, uşaqçün də yaxşı olar, gen bol-həyət-bacada ürəyi istədiyi kimi qaçıb-oynayar...

- Əmi, siz elə bir ürək oxuyursuz...

- Ürək-zad oxuyan deyiləm, mənim balam, insanam, həyatın qalın kitabını hər adam oxuya bilmir, ona görə sənə çətindir.

- Bir həftə mənə möhlət verin, o deyingən qarıdan özgə borclu olduğum adamlar var.

- Yaxşı, sən o acıdil qarıya gətirdiyim tumsuz, şirin üzümdən pay ver, qoy, doyunca yesin, bəlkə dili şirinləşə... Bir həftədən sonra şəhərdə vacib işim

olduğunu bəhanə edib, gələrəm, sizi də bağa apararam. İstəyirəm, Mehman qədeş ta o günəcən gəlişinizdən xəbər tutmasın...

Kişi qapıdan çıxanda Fidan dedi:

- Əmi, məni bir sual narahat edir, Mehman usta kimi bir adam necə olub ki, bu cür şəraitli mənzili Əfqan kimi avaragora kirayəyə verib?

- Məgər o kürəkən dələduz özü bu barədə bir söz deməyib? Onlar çox qısa müddət ərzində həbsxanada bir yerdə olublar. Bir də axı, kirayə nədir, qızım, Mehman usta ona rəsmi etibarnamə vermişdi... Hətta dövlət rüsumunu da özü ödəmişdi. Nə isə... Di, sağlıqla qalın, mən getdim.

- Yaxşı yol!

Bu dəfə kişinin dalınca bir stəkan su da atdı.

* * *

... Düz bir saat sonra hamamçı Rozanın evindən çıxanda vaxtından əvvəl azadlığa buraxılmış məhbus kimi Fidanın sevincdən uçmağa qanadı yox idi.

Həyat kitabını sonacan oxumuş qocanın dediyi kimi, pay apardığı ağ şanı hamamçı Rozanın bərk xoşuna gəldi. Üç yüz dollar əvəzinə üç yüz manat pulu görən dəllal arvadın elə bil çiçəyi çırtladı:

- Bu, nədir? Deməli, mən deyənə razı olmadın? – soruşanda, Fidan uşağını da götürüb, atası evinə dönəcəyini bildirdi:

- O narkoman oğlan hər dəfə qapımı döyəndə ürəyim tir-tir əsir, yerindən qopur. Qorxuram, özüm cəhənnəm, uşağa xətər yetirər. Siz özünüz də məsləhət bildiniz ki, ondan can qurtarmağın yeganə yolu yaşayış yerimi dəyişməkdi.

- Başqa yol da vardı, - hamamçı Roza üzümdən ləzzətlə yeyə-yeyə hiyləgərcəsinə söz atdı: - amma razı olmadın, neynəyək, ha vaxt fikrini dəyişsən, yanıma gəl... Əli qırılaydı, o, “silötkə” köpəyoğlunun, gül kimi qızdın, bir gör səni nə hala salıb? Çox sınıxmısan, get, özünə fikir ver. Ye-iç, ətə-qana dol, əmələ gəl, bir az kökəlsən, yenə gözəgəlimli, diqqətçəkən xanım-xatın çağına qayıdacaqsan...

Xudahafizləşmək istəyərkən titrədə-titrədə uşağa baxıb soruşdu:

- Aaz, bu kişi qırığı o gədədəndi? O cür qapqara pıspısadan bu cür gözəl uşaq?

Fidan başını bulayıb:

- Yox, bunun atası türmədədir...

- Dedim, axı, nəşəxor uşağına oxşamır, sən də lap gül vurmusan, ha, özünə kişi tapa bilmirdin? Biri türmədə çürüyür, digəri də küçələrdə nəşəxorluq edib sülənir. Eybi etməz, atalar üçdən deyib, bir az kökəl, qayıt gəl yanıma, canımçün, Roza xalan bir abırlı kişi tapar ki, vallah səni gözlərinin üstündə saxlayar...

Fidan da:

- Hardaydı məndə o bəxt? Birinə atam zorla vermişdi, o biri yetimi də özüm sevmişdim, heç birində yarımadım. Üçüncüsündənmi yarıyacam – deyəndə arvad gözlərini bərəldib:

- Bura bax, kişi sarıdan bəxtin gətirmirsə, günahı özündə gör, onun-bunun üstünə yıxma, bir nəşəxordan ötrü boyun-boğazının gül kimi qır-qızılını, briliant sırğa-üzüyünü atdın çölə... İndi get, ata evinə, ağlın gəlsin başına...

Oğlunun totuq əllərindən tutdu, yaşadığı binanın yaxınlığındakı parkda gəzə-gəzə hamamçı Rozanın ibrətamiz sözlərini son kəlməsinəcən yada saldı, fikrə daldı. Uşaqların əlində dondurma görən oğlu onu dartışdırıb:

- Ana, mən ondan istiliyəm – dedi. O, fikirdən ayrılıb oğlunu bağrına basdı, üzündən-gözündən öpüb: "canım-gözüm, nə istəsən, allam..." dedi, çantasından çıxartdığı şax yüzlüyü dondurma satana uzatdı.

- Bacım, xırdam yoxdu, indicə alverə başlamışam, amma siftə eləmişəm, diyircəkli buz dolabından götürdüyü dondurmanı uşağa verib, - qoy məndən bu kiçik bəyə pay olsun! – dedi.

O, dondurmasatana təşəkkür edib, pulu çantasına qoydu. Utandığından üzü qızarmışdı. Sanki dondurmanı havayı aldığına görə yox, cəmi bir-iki saat əvvəl uşağının ehtiyacı üzündən özünün yad, tanımadığı kişinin ağuşuna atmaq fikrinə düşdüyünə görə vicdanı əzab, xəcalət çəkirdi...

Mehman ustanın göndərdiyi puldan 200 manat qalmışdı, onun da yarıdan çoxunu binanın yaxınlığındakı ərzaq dükanına borcunu ödəyəcəkdi. Son vaxtlar

daha nisyə ərzaq götürməyə üzü gəlmirdi. Borc-xərcin kəllə-çarxa qalxması Fidanı çəkindirirdi.

Dükanda çalışan satıcı qız onu görcək qaşqabağını salladı. Amma Fidanın nisyə ərzaq istəməyə yox, borcunu ödəməyə gəldiyini bilən kimi sevindi, vitrikndən götürdüyü şokoladlı kökəni uşağa uzatdı:

- Al, bu da sənə xaladan pay olsun! – Borc dəftərini götürüb, - Fidan xanım, cəmi borcunuz 127 manatdır... – Pulun qalığını qaytaranda, - nəsə götürəcəksiz? – nəzakətlə soruşdu.

Fidan xeyr dedi və yenə üzünə qızartı çökdü. “Fidan xanım”, “Fidan xanım” – satıcı qızın ona bu günəcən “xanım” deyə müraciət elədiyini xatırlamırdı.

“Pul adamın üzünə bütün bağlı qapıları açar” – deyirlər, amma o gün Mehman ustanın qoca sürücüsüylə göndərdiyi pul onun özünün də ağızdolusu “Fidan xanım” çağırdığı bu gənc qadının üzünə fahişəlik dünyasına gedən qapıları bağlamışdı... O qapılar heç kəsə bəxtəvərlik vəd etmir, yalnız müvəqqəti əyləncələrlə, intim münasibətlərə yadda qalır, ötəri xoşbəxtliyin zahiri təmtərağın ömrü isə böyük gələcəyə bəslənən ümidləri pərən-pərən edir, kölgə altına alırdı.

* * *

- Bu da bizim bağ, - maşından enən kimi hündür, üzüm talvarının altında qoyulmuş masaya yaxınlaşdılar. Masanın yan-yörəsində çoxlu göyərçin vardı, onlar heç kəsdən qorxmur, dən axtara-axtara quruldaşırdılar. Uşaq sevincək halda quşların üstünə yüyürdü.

- Yaz çağları burada qaranquşların civiltisi, göyərçinlərin qurultusuna qarışır, bir təbii, harmonik musiqi yaranır ki, gəl görəsən, adam qulaq asmaqdan usanmır.

Fidan özü ilə gətirdiyi sillafon torbadan iki qutu çıxarıb masanın üstünə qoydu. Onlardan birini götürüb kişiyə uzatdı:

- Əmi, bu köynəyi sizə almışam, bu da Mehman ustanın hədiyyəsi.

- Bıy, ay qızım, niyə özünü xərcə salmısan?

- Bu boyda yolu əliboş gəlməyə utandım...

- Hə qızım, sən uşaqla otur burda, kölgədə, - tavanın dirəyindən asdığı torbadan bir-iki ovuc tum götürüb masanın üstünə tökdü – bu tumu yavaş-yavaş göyərçinlərə atım, sizə öyrəşsinlər, mən gedim, qədeşi çağırım, yəqin balıq tutmağa gedib...

- Uzağa gedib?

- Yox, budey, bağın o üzü dənizdir, istəyirsən, gəzə-gəzə birlikdə gedək. Uşağı da ver mən götürüm qucağıma...

- Zəhmət çəkməyin, özü yeriyər, böyük oğlandı, bu gün-sabah üç yaşı tamam olacaq.

- Maaşallah, həqiqətən yekə kişidi, bəs bu qoçağın adı nədir?

- Türkel.

- Türkel, Türkel, nə yaxşı addır, diləyatımlı, sadə...

- Əmi, bəs sizin adınız nədir? Neçə vaxtır tanışıq, mənə bu qədər yaxşılıq etmisiz, indiyəcən adınızı soruşmağa utanmışam.

- Dədə-baban Niftullahdı, uşaq vaxtından hamı mənə Nifti deyir, Mehman qədeş isə məni "Məşdi" çağırır.

- Onda mən də sizi "Məşdi əmi" çağıracağam.

- Ürəyin necə istəyir, elə də çağır, bax, budur, gəlib çatdıq.

Mehman usta başında iri həsir şlyapa, qısaqol idman köynəyində sahildə oturub sonsuz maraqla tilovlara baxırdı.

Səsə dönüb baxanda gözlərinə inanmadı, ayağa qalxıb bir-iki addım irəli gəldi, heyrətlə:

- Fidan xanım, - dedi, - siz hara, bura hara? – Sonra üzünü Məşdi kişiyə tutub, - heç bunu səndən gözləmirdim, Məşdi, zəng edib xəbər verəydin barı...

Məşdi kişi bu iraddan zərrə qədər də pərt olmadı, əksinə, qəddini şax tutdu. Mehman ustanın gözlərində çoxdan bəri görmədiyi sevincqarışıq heyrəti sezdiyinə xoşhallandı:

- Qədeş, bu gün şəhərdəki dəhşətli istini görsəydin, heyrətlənərdin, özün də Fidan xanımı bağa dəvət edərdin, uşaq havaya uyğunlaşmır, tez-tez xəstələnir, o, heç kondinsioneri də işlətmir...

- Əcəb eləmisən, Məşdi, lap xoş gəlib, səfa gətiriblər, deyirəm, zəng etsəydin, evdə gözləyərdim, day bu görkəmdə, bu geyim-gecimdə - deyə idman paltarına işarə elədi, - qarşılarına çıxmazdım.

- Rəhmətliyin oğlu, noolub eyy, camaat şəhərin küçələrində, parklarda elə bu qiyafədə gəzir də, kostyum geyinib, qalstuk taxmır ki...

Sahildə xəfif meh əssə də, günəşin istisindən qovrulmuş qumun qızmarı, adamı gendən vururdu. Mehman usta nəvazişlə Fidana baxdı:

- Yaxşı, gəlin gedək evə, uşağı bu havada günün altında saxlamaq günahdı, - sonra üzünü Məşdiyə tutub, - sən də tilovları yığışdır, balıqları götür, - dedi və əyilib balaca Türkelin əlindən tutdu...

Fidan Mehman ustanın onu belə səmimi qarşılayacağını gözləmirdi. Yaşadığı həbsxana həyatından sonra heç bir qadına gözünün ucuyla baxmayan, maraq göstərməyən bu 42 yaşlı kişinin nəzakətli rəftarı, xeyirxahlığı, ağayana davranışı qəlbini riqqətə gətirmişdi. Təşəkkür üçün deyəcəyi sözləri belə unutmuşdu, oğlunun əlindən tutub, onu şirin dilklə əzizləyən xilaskarını seyr edə-edə həftələrlə, aylarla çəkdiyi iztirablar gözlərinin önündən keçirdi. Həmin gün dənizin sahilindən evəcən olan 4-5 dəqiqəlik yolda sanki yenidən dünyaya göz açmışdı. Düşünürdü ki, qadın təkcə uşaq dünyaya gətirmir, həm də illər boyu çəkdiyi əzab-zəiyyətlərin içindən özünü də qadın kimi doğur, yaradır. Belə doğuluşun, belə yaranışın sevincini yaşayırdı Fidan. Göz açdığı bu təzə dünyada mavi dəniz, qumlu sahil, sərin meh, meyvə ağacları, böyük hovuz, göyərçinlər... – bir sözlə, hər şey ona Mehman ustanın, Məşdi əminin özləri kimi doğma, sözləri kimi şirin gəlirdi... İlk gördüyü gün “siz” deyə xitab etdiyi Fidana Mehman ustanın “sən” deməsi bu doğmalıqdan soraq verirdi.

Birlikdə nahar etdikdən sonra Fidanın dəmlədiyi nanəli çaydan içə-içə söhbət əsnasında Mehman usta soruşdu:

- Bəs ailənizə vurduğu maddi-mənəvi ziyana görə o nadürüstdən təzminat tələb etməyəcəksən?

- Rəhmətlik nənəm deyərdi ki, “itdən çox çarıq oğurlayan yoxdur, amma ayağı yenə yalındır”. Onu avaragor-dələduzun nəyi gedib tələb edəcək? Bir də dediyim kimi, atam bu əhvalatdan bixəbərdi...

- Hə, haqlısan. Rusların bir yaxşı atalar sözü var: “yalanla uzağa gedə bilərsən, amma geri qayıda bilməzsən”. O yelbeyin fırıldaqçı məni də aldatdı – birinci kərə içəri düşəndə dedi ki, guya məmur işləyən qaynatası ona şər atıb, ailəsini dağıdıb. Çıxandan sonra yanıma gəldi, dedi: inandım, kömək etdim ona. Söz vermişdim, əlimə keçsin, ona yaxşıca qulaqburması verim, amma ürəyimlə yenə bacarmadım, deyəsən qocalıqdandı... Deyirlər, yaşlaşdıqca, adamın ürəyi yuxaya dönür...

- Sizin nəyiniz qocadır, Mehman usta, - Fidan həmsöhbətini nəvazişlə süzdü, - bir az saçınız ağarıb, o da sizə yaraşır.

- Nə bilim, hərdən mənə elə gəlir, haqqımda geniş məlumatın var... – dönüb mənа dolu gözlərini Məşdi kişiyə dikdi. Məşdi kişi əvvəl çiyinlərini çəkdi, sonra üzünü aşağı tutub:

- Biz Türkel balamla enirik həyətə, göyərçinlərə dən verməyin vaxtıdır... Hə, Fidan, qızım, sağ ol, maşallah, bişirdiyin yemək dadlı, dəmlədiyin çay ləzzətli.

Fidan:

- Nuş olsun, əmi, - dedi və gözlərini Məşdi kişinin üzünə zillədi, baxışları bir-birilə toqquşanda, çoxbilmiş kişi bic-bic güldü, təcrübəli insana məxsus tərzdə göz vurdu. Fidan bir an onun nəyə işarə etdiyini anlamayıb duruxub qaldı.

- Qədeş, deyirəm, bu Fidan xanım, bir-iki həftə burda qalsa, ağzımız əməlli-başlı dada gələr, mədəmiz də toy-bayram edər.

- Məşdi, sənin ağzının tama gəlməsi üçün bir-iki həftə az deyilmi?

Kişi gülə-gülə:

- Neynək, qədeş, Fidan xanımdan xahiş eləyək, onda ilin yarısını burda, yarısını da şəhərdə qalsın. Məşdi kişi zarafata salıb, ürək sözünü kişiyanə dediyindən böyük fərəh hissi keçirirdi və qəlbinə sığmayan elə bu fərəhlə uşaqla bərabər həyətə endi. Fidan da bayaq anlamadığı mətləbi indi sezdi və fərəh hissi onun da könlünə-gözünə doldu.

Mehman usta arxasınca baxıb:

- Məşdinin xətrini öz atam kimi istəyirəm, o da bu istəkdən sui-istifadə edib mənə lap dədəlik eləyir, ha, - dedi.

Fidan məmnun-məmnun Mehman ustanın üzünə baxıb gülümsündü:

- O, mələk kimi saf, təmiz adamdı.

- Yəqin mələk dediyin bu şəxs sənə haqqımda az-çox nəsə danışıb, istərdim, mənə özün barədə danışasan...

Mehman usta ilk dəfə göründüyündən daha cazibədar, yaraşıqlı görünürdü. Fidan öz taleyi haqda danışa-danışa hərdən onun gözlərinə baxır, söylədiyi fikrə, üzləşdiyi ağrı-acılara münasibətini öyrənməyə çalışırdı. Olub-keçənləri ardıcıllıqla, olduğu kimi nağıl eləmək susmaqdan da çətinmiş. Bu söhbətlərdə qızını sevmədiyi adama ərə getməyə məcbur edən sadəlövh ata-ananın, çətin günlərində ona arxa-dayaq durmaq əvəzinə, əcnəbi iş adamının məşuqəsi olmağı təklif edən yelbeyin rəfiqənin, narkomaniyanın caynağından qurtarmaq üçün zinət əşyalarını satıb müalicə etdirdiyi üzüdönük əsmər bənizli oğlanın, verdiyi borc pulun qarşılığında ələ aldığı qız-gəlini əxlaqsız yuvasına sürükləyən qonşu sələməçi qadının da obrazı vardı... “İlahi, mən günah işlədirəm. Bunları yerli-yataqlı öyrənəndən sonra bu kişinin məndən zəndi-zəhləsi getməzmi, axı bunları öyrənmək nəyinə lazımdı. Ailəmizin o dələduz Əfqan tərəfindən aldadıldığını bilmək kifayət deyildimi?”.

Öz qadın qəlbinin dərinliklərində, düşüncələrində təzədən doğulub, dirçələn Fidan bircə onunla təsəlli tapırdı ki, Allah Mehman ustanı qabağına təkcə xeyirxah bir insan kimi deyil, dar ayaqda pənah, dayaq, ömrünə yaxın həmdəm, dərdinə şərik etibarlı dost kimi çıxarıb. Mehman usta onu səbrlə, təmkinlə dinləyirdi. Bəzən həyəcanla köks ötürüb asta-asta sifətini dəyişir, bəzən də eitdiklərinə bərk təəssüflənirmiş kimi başını bulayırdı.

“Hə, Fidan, tərəddüd eləmədən danış, dünya xali deyil, ürək-göbəyini əbəs yerə yemə, erkən gəncliyini zindanda keçirib, saçlarını ağartmış bu namus-qeyrət dağarcığına ürək q ızdırmaq olar!... Bundan sonrakı həyatını onsuz keçirməyi ağlının ucundan belə keçirmə, Məşdi demişkən, həbsxanadan çıxandan sonra heç bir qadına göstərmədiyi xoş qılığı, ilgini sənə göstərir, məhz onub xeyirxahlığı

sayəsində pis yola düşməkdən qurtuldun, deməli, sənin başına gələnləri bilməyə də bu kişinin haqqı çatır" – Fidan öz-özünə danışır, ürəyində götür-qoy edirdi.

Yox, yox, daha o, məktəbli qızlar kimi xəyala qapılmırdı, bəsit düşüncələr ümidi ilə yaşamırdı. Bu dəfə Tanrının rastına çıxartdığı kişi ilə münasibəti səhrada yalnız gözlə görünən, ələ gəlməyən ilğıma bənzəmirdi. Ona görə də başına gələnləri olduğu kimi, heç nəyi gizlətmədən, əskiltmədən danışmağa çalışırdı. Bəzən kövrəlsə də, göz yaşlarını güclə saxlayır, özünü ələ alıb, çətin də olsa, söhbətinin davamını gətirməyi bacarırdı.

Danışdıqca, qızışır, dənizdən əsən xəfif meh saçlarına asta-asta tumar çəkir, içində sönmüş ümid ocağını yenidən közərdirdi.

Fidan acı hekayətini danışıb qurtaran kimi çiyinləri əsdi, bayaqdan bəri kipriklərinin ucunda zorla saxladığı gildir-gildir göz yaşları yanaqlarından süzülüb sinəsində gölləndi.

Mehman usta təsəlli verməyə, ovundurmağa çalışdı.

- Özünü ələ al! – dedi, - elə hesab elə ki, pis yuxu görmüsən, keçib gedib... Burada ürəyin istədiyi qədər qala bilərsən. İşləmək, ya da təhsilini davam etdirmək sitəsən, mən sənə yardımçı olaram, arada-bir anana zəng vur, nigaran qalmasın.

İstəyirdi desin ki, "Mənim səninlə oxşar cəhətlərim var, mən bir pozğun qadının günahı ucbatından az qala bütün qadınlara etibarımı itirmişəm, sən həyatında iki etibarsız, zalım kişiyə rast gəlmisən, beləcə, ikimizin də könül dünyası nifrətlə zəhərlənib – hər ikimiz bizimlə amansız rəftar edən, qəflətən alçaldan taleyin istəklərinə nifrət edə-edə küskün həyatla barışmış, bu nifrət sevigimizi içimizdə boğmağa, bizi guşənişin həyat sürməyə gətirin çıxarıb. Axı, sevgi təkcə ani həzzdən, ehtirasdan ibarət duyğu deyil ki Əsl sevgi...". Fikrini nə qədər kərəkurd etdisə, sevgi, məhəbbət barədə ağlına özgə heç bir orijinal fikir gəlmədi.

... Son vaxtlar gecə yuxuları tez-tez çəkilir, qaçaq düşürdü. Bəzən səhərəcən gözünə yuxu getmirdi. Tək-tənha qalmağa, qadınsız yaşamağa vərdiş eləsə də, qəlb sirdaşına ehtiyac hissi duyurdu. Fidanın faciəvi hekayətinə qulaq asa-asa öz qəlbinin də səsini dinləyirdi: "Bəzən insanın bədən üzvlərini maşın hissələrinə bənzədirlər. Bəlkə də haqlıdırlar. Sevgi, məhəbbət hissləri də təzəlik tələb edir,

əgər onu vaxtında cilalamasan, pas atacaq. Qanun qarşısında cəzamın müddəti başa çatıb, amma özüm-özümə cəza verməkdən çəkinmirəm, üç ildir ki, azadlığa çıxmışam, qadın dünyasından isə iraq düşmüşəm...”

Fidan oğluyla onlar üçün ayrılmış yataq otağına keçəndə həm Mehman ustayla, həm də kişiylə sağollaşdı:

- Gecəniz xeyrə qalsın!

- Xeyirə qarşı.

- Yuxunuz şirin olsun, qızım...

Xeyirə qarşı gedirdi, şərə lənət çarpayıya uzanıb gözlərini bərk-bərk yumdu, yanaqlarına süzülən göz yaşları yastığını islatdı, o gecə şirin yuxuya gedə bilmədi, əvəzində şirin xəyallara dalıb, sabahın açılmasını səbirsizliklə gözləyirdi. Mehmanın “burada ürəyin istədiyi qədər qala bilərsən...”, sözləri dönə-dönə qulaqlarında əks-səda tapdı. Səhər erkən durub ev-eşiyə yaxşı-yaxşı əl gəzdirəcəkdi, səliqə-sahman yaradacaqdı... “Mən bu evdə qulluqçu olmağa da razıyam, təi şərdən-şürədən uzaq olum”.

* * *

Bir həftə keçməmiş Fidanın xarici görkəmi tamam dəyişdi, yanaqları ətlə dolub yumrulandı, sinəsi qabardı, rəngi duruldu, qaşlarına, üz-gözünə əl gəzdirdi. Rahat həyat şəraiti, nikbin ovqat, hər cür dedi-qodudan uzaq xoş mühit qısa müddətə qızı dəyişdirdi, əvvəlki görkəminə qaytardı.

“Bir az kökəlsən, yenə əvvəlki kimi gözəgəlimli, diqqətçəkən xanım-xatın qız olacaqsan!” – bu sözləri qırmızı-qırmızı hamamçı Roza həris-həris söyləmişdi. İndi o, qəlbində “getsin o günlər, bir də gəlməsin” – deyirdi.

Bir gün isə Mehman ustayla Məşdi kişi nahar vaxtı evə dönəndə uşağa da, ona da xelyi pal-paltar alıb gətirdilər.

- Bax, bunları mən bəyənmişəm, qızım, bu biriləri isə qədeş, sağlıqla geyin, mübarəkdir – Məşdi kişinin gözlərinin içi gülürdü. Bir azdan o tələm-tələsik yeməyini yeyib, harasa getdi. Mehman ustasa nahardan sonra divanın bir küncünə çəkilib, çay içə-içə Fidana səsləndi:

- Aldıqlarımızı geyin, bax, əgər bəyənməsən, ya da ölçüləri düz gəlməsə, ticarət mərkəzinə Məşdiylə birlikdə gedərsən.

Fidan güzgünün qabağına keçib bir-bir geyindiyi üst geyimlərini, müxtəlif ayaqqabıları Mehman ustaya göstərirdi, o, çayını yarımçıq qoyub həyəcanla moda göstərən manikenlərə bənzəyən Fidanın gəlişini-gedişini, yerişini-duruşunu məftunluqla izləyirdi.

- Bu rəng sənə çox yaraşır, elə bil Məşdi zövqünü dəqiq bilirmiş.

-Axı, o dedi bunları siz bəyənmisiz.

- Ölçünü də, rəngi də seçim edib.

Növbə gecə paltarlarına, çimərlik geyimlərinə çatanda Fidan qaşlarını dartıb öz-özünə:

- Daha ağ eləmə, Fidan! – dedi.

Ev üçün aldıqları təzə idman geyimində Mehman ustaya yaxınlaşdı:

- Aldıqlarınızın hamısı yaxşıdır, təşəkkürümü bildirirəm, elə bil nağıllar aləminə düşmüşəm, özü də rəngbərəng nağıllar aləminə...

- Yaxın gəl, gözlərini yum, əlini mənə uzat, - Mehman usta cibindən çıxartdığı kiçik qutunu açıb, brilliant qaşlı üzüyü sağ əlinin adsız barmağına taxandan sonra, - aç, - dedi.

Fidan gözlərinə inanmadı. Barmağında par-par parıldayan üzüyü görcək əvvəlcə duruxdu, sıxıldı, sonra qeyri-ixtiyari dizləri üstə çökdü, Mehman ustanın əlindən öpdü və kövrəlib başını dizləri üstə qoydu.

- Dayan, dayan, sən neyləyirsən, ayağa dur!

O, fağır-fağır ayağa qalxdı, amma məktəbli qız kimi qarşısındakı kişinin boynuna atılıb üz-gözünü öpməkdən özünü güclə saxladı...

- Əlbəttə, bu üzük nənəndən qalan yadigar üzüyə bənzəmir, lakin sənin barmağında pis də görsənmir.

- Çox gözəldi, elə bilirəm, həmin üzük tapılıb.

- Sənin gözəlliyin qarşısında bu üzük nədir ki...

Mehman usta ilk dəfə dilinə belə söz gətirib, onun gözəlliyindən danışırdı. Sanki bu etirafıyla Fidanın gözəlliyi qarşısında tab gətirmədiyinə eyham vururdu. Beləcə, Fidan get-gedə ona bağlanırdı. O, harasa gedəndə, evə gec dönəndə bərk darıxırdı. Mehmansız özünü kimsəsiz və yazıq sayırdı... Çox vaxt gecələr yatağına girəndə Mehman ustanın aldığı gecəköynəklərdən birini əyninə taxır, güzgü qabağında saçlarını daraya-daraya qapıya boylanırdı. Ona elə gəlirdi ki, o üzük əhvalatından sonra Mehman usta onun yatdığı otağa gəlib, gecəni yanında keçirirdi. Bəlkə də başqa kişi olsaydı, təəccüblü deyildi. Amma Mehman usta ürəyini daşa döndərib gəlib çıxmırdı. Fidanınsa hər gecə içini isindirən, könlünü həyəcana gətirən duyğularının bir adı vardı – saf məhəbbət. Şübhəsiz bu, hörmətdən yaranan məhəbbətə oxşayırdı, bəs niyə Mehman usta onu intizarda qoyur və hər an cavabsız məhəbbətinə görə özüylə mübarizə aparırdı...

"Bəlkə mən yenə səhv edirəm, o yalnız göstərdiyi diqqət, etdiyi hörmətlə qane olur, başqa məsələ barədə düşünmür? Bəlkə qadınlardan zəhləsi gedən bir adamın mənimlə bir yastığa baş qoyacağı boş xülyadı?"

Günlərin bir günü Məşdi kişi Fidanı, söhbət edə-edə hasarın o tərəfində özünün qaldığı köhnə bir evə apardı. Ondan ata-anasının adını, doğulduğu günü, ayı, ili dəqiq xəbər aldı...

İstirahət günü Mehman usta həyətdə balaca Türkelin üçtəkərli velosepet sürməyinə tamaşa edirdi. Darvazanın ağzında maşın dayandı. "Görəsən, gələn kimdir?" – Məşdi öz-özünə danışa-danışa darvazaya sarı getdi. Həyətə üç-dörd nəfər kişi daxil oldu. Fidan oğlunu götürüb, ikinci mərtəbəyə qalxdı.

Bir azdan onlar gedəndən sonra Məşdi kişi gəldi, onlarln ikisinin həbsxanadan təzə çıxdığını bildirdi. "İşə düzəltmək üçün qədeşin yanına gəlmişdilər. Qədeşin iş-gücünün adı belədir, qızım, ya ordan çıxanlara kömək edib əl tutur, ya da ayda bir-iki dəfə ora ərzaq, siqaret göndərir... Gələnlərdən biri isə vəkildi, qədeş onu sənin boşanma işini həll eləmək üçün tutmuşdu..."

* * *

Əfqan valideynlik hüququndan məhrum edildikdən sonra Mehman usta balaca Türkelə öz soyadını verdi: Türkel Mehman oğlu Kazımlı. Balaca Türkel onun timsalında özünə yaxşı ata, Məşdi əminin simasında sevimli baba tapmışdı.

Payız axşamlarının birində Fidanın qadın ömrünə yaz günəşi doğdu.

"Taledən qaçmaq olmur", bu fikri indiyəcən təkrar-təkrar eşitmişdi, özünü bədbəxt hesab etdiyi anlarda ağlının süzgəcindən keçirmişdi. Bu payız axşamı isə o xoşbəxtlik astanasının qapısında dayanmışdı. Bircə işarə kifayət idi ki, bu qapıdan keçib sevinc piyaləsini başına çəkib məsti-xumar olsun.

Bir az əvvəl Məşdi kişinin söylədikləri də ibrətamiz idi:

- Həyatını onunla qurmağa dəyər, qızım, mən sizin kəbininizi də kəsdirmişəm. Bir damın altında naməhrəm kişilə qadının birlikdə yaşaması günahdır. Hətta aralarında məhrəmana yaxınlıq olmasa belə. Bundan sonra hər şey sənin özündən asılıdır...

- Siz mələksiniz, Məşədi Niftulla əmi.

- Yox qızım, mələk deyiləm, mənə dua et ki, Allah keçmiş günahlarımı bağışlasın!

- Mən sizin kimi bir adamın nə indi, nə də keçmişdə günah işlətməsinə inanmıram.

Məşdi kişi fikrini topladı, ağır-ağır söhbətə başladı:

- Qul xətasız olmaz, qızım, insan öz nəfsinə qul olanda, səhvə yol verir ki, ucbatından başqaları bəlaya düçar olurlar... Mən Mehman qədeşin səninlə ailə qurmasını çox istəyirəm, lap çox. Bir zaman mənim günahım üzündən ailəsi dağıldı, həbsxanada ikən anası dözmədi, dünyasını dəyişdi. Onu qanun, məni isə Allah cəzalandırdı, ailəmi ağır yol qəzasında itirdim, iki oğlumu, sən yaşda tələbə qızımı, arvadımı öz əllərimlə qəbrə qoydum. Bu müsibətdən sonra havalanmışdım, hər gün ölümlə üz-üzə, göz-gözə dayanırdım. Qədeş içəridə idi, məni ölümün, intiharın pəncəsindən qutardı, göz-qulaq olmaq üçün arxamca inandığı adamlar saldırdı, ona görə mənə dəyib-toxunmaq istəyənlər gen qaçdı.

Fidan həyəcanla onun sözünü kəsdi:

- Deməli, o zaman “həyat kitabını sonacan oxumuşam” deyəndə, siz ölümü nəzərdə tutmuşsunuz?

- Həya kitabının son nəsli ölümdür, qızım, mən də ölümün dəfələrlə soyuq nəfəsini duymuşam. O zaman Məşhədə ziyarətə getdim, orada – Qərib İmam Rzanın türbəsində əhd elədim ki, qədeş sağ-salamat çıxsın, ölənəcən qulluğunda dayanaram. Şərikdən, ortaqdan çox xidmətçisi olaram. Alla-təala dualarımı eşitdi, indi də səhər-axşam Allahıma dua edirəm ki, böyük Yaradan sənin məhəbbətini onun qəlbinə salsın... Sən onun qəlbindəsən, amma özü bunu büruzə vermir, mən hər şeyi apaydın görürəm, qızım, oğlunla sənin gələcəyin daha etibarlı əllərə keçib. Bundan sonra puldan-paradan korluq çəkməyəcəksiniz. O, sənin də, uşağın da adına açdırdığı şəxsi hesaba xeyli pul köçürdüb. Qədeş dünyanın altını da bilir, üstünü də - qorxur ki, başına qəfildən bir iş gələr, ömrü yarımçıq qalar, amma inanıram ki, sənin məhəbbətin onun ömrünü uzadacaq, dizlərinə taqət, qollarına güc verəcək. Sənin də cavan yaşda başın daşdan-daşa dəyib axı. İndi zəmanədə belə şeylərə görə cəmiyyəti qınamaq çox çətindi, adamların qəlbində mərhəmət hissi zəifləyib, biganəlik, laqeydlik artıb. Dələduzlar, narkomanlar, aravuranlar günü-gündən çoxalır. Pul qazanmaq ehtirası kimini məhvə aparır, kimini əbədi tənhalığa sürükləyir... Bax, beləcə ömür bitir, söz-söhbət bitmir, qızım, sən qədeşlə aranızda olan yaş fərqinə görə qətiyyən utanıb eləmə...

- Əmican, utanmıram, bu da Allahınm bir qismətidir, anam orta məktəbi bitirən kimi ərə gedib, onda atamın qırxdan çox yaşı varmış

- Бу эцн щава чох булудлуду, гой мян эедим, бир аздан йягин мющкям йаьыш тюкяъяк. Щавайа булуд эялян кими нямишлик олур, гядяшищ сцмцкляри йаман сызылдайыр, Тцркел бала йатандан сонра эялиб онун айагларыны цзцм сиркяси иля овушдурсан, йахшы олар.

***

Ертяси эцн пямбя булудлар Танрынын йаратдыьы рясм мянзярясиня бянзяйирди, дяниз тяряфдян эюй цзцня даьылмышды… Мещман уста

айагларында аьры щисс етмирди, эеъя Фидан дюня-дюня цзцм сиркяси иля ойнагларынын сызылдайан йерлярини овушдурмушду. Кишинин бядяни дямйя торпаг кими гадын нявазишиня сусамышды, зяриф яллярин тямасындан интим дуйьулар баш галдырмыш юзцня йер тапмамышды. О нлляр йаваш-йаваш кюксцнцн цстцндя эязиб-доланмыш, бойнуна доланмышды. Сящяр йатаьындан галханда юзцнц хейли эцмращ щисс едир, ичиндя йцнэцллцк дуйур, ев-ешикдя эянълик щявясиля эязиб-долашырды. Инди диванда отуруб телевизора баха-баха щярдян Фиданы оьрун-оьрун сцзцр, мямнун-мямнун эцлцмсцнцрдц.

Фидан она нясиб олан азаъыг хошбяхтлийин дадыны щеч вахт дойунъа чыхара билмирди, талейинин эямиси фыртыналы сяйащятдян сонра тязяъя хошбяхтлик.

Адасына йан алырды ки, йеня туфанлар ойнады, гасырьалар гопду.

Анасы иля тез-тез дярдляшян Фидан бу эцн севинъини бюлмяк цчцн ону ахтарыб арады. Гызынын талейиндян ниэаран, эяляъяйиндян эядэцман анайа шад хябяр чатдырыб, севиндиряъяйиня эюря Фиданын щяйаъандан цряйи бярк-бярк дюйцнцрдц. Анасы телефонун дястяйини эеъ эютцрдц. Аз сонра о башдан боьуг сяс эялди:

-Ало, кимдир?

-Ана, мяням ня олуб, сясин нийя тутулуб?

Анасы йана-йана аьлады:

- Гызым, атан башына эялян ящвалатдан хябяр тутуб. Щансы дили йанмышса бешини дя цстцня гойуб, чатдырылыб. Киши ики эцн щавалы кими эязди. Еля щей «балмы юз ялимля ода атдым, о дцуйада ъавабыны неъя веряъям?» -дейиб сызылдайырды. Дцняндян йорьан-дюшяйя дцшцб. Дейясян, ифлиъ олуб. Щеч билмирям, башыма щаранын дашыны салым.

- Мян инди эялирям, ана, дарыхма, юзцнц яля ал.

Мещман уста Фиданын телефонла ня данышдыьыны ешитмяйя дя, цзцнцн ифадсиндян сарсыдыъы хябяр алдыьыны дуйурду. Цзц пянъяряйя аьлайан гызн титряйян чийинляриндян тутуб юзцня сары дюндярди:

- Ня олуб, ня щадися баш вериб?

- Атам, атам хястяляниб, вязиййяти писдир.

- Аьламагла щеч бир чаря гылмайаъагсан, йыьш эедяк.

Сялим киши гызыны эюряндя щяйаъандан щалы даща да писляшди. Мещман цста:

- Тяъили хястяханайа апармаг лазымдыр – деди Фиданын ичи аз да олса ращатланды. Минятдарлыгла Мещман устанын цзцня бахыб кюврялди.

Ата мящяббяти бцтцн инъиликляри цстяляди. Фидан щяр эцн ъцрбяъцр йемяклярля,тязя мейвя, тярякзля, мухтялиф бащалы ширялярля хястяханайа эялир, юз яли иля атасыны йедирдир-ичирдир, гуллуьнда дурурду. Гызынын мящяббят долу нявазишиндян Сялим кишинин гялби пиггятя эялир, севинъ кюксцндя ъювлан еляйирди. Эцндя нечя дяфя цзцнц эюйя тутб дуа гылырды: «Шцкцр сяня, Худайа, мян сящвя йол вердим. Сян сящвими дцзялтдин. Сонда пешманчылыьа йол вермядин».

Эюстярилян гайьы, онун мцалиъя юз еффектини верди. Сялим киши артыг аста-аста дуруб эязя билирди. Мещман уста гайнатасынын ращат эязмяси цчцн голтуг аьаъы да алыб эятирмишди. Фидан бир эцн хястяханадан йениъя кцчяйя чыхмышды ки, Рюйалын анасы иля растлашды. Эюркяминдян гям-гцсся йаьан, гады нону эюряъяк эюз йашыны сел кими тюкдц:

- Бяхтсиз баламын истяклиси – дейиб, ону баьрына басды. Фидан гарынын аь сачларындан, сольун бянзиндян опцб сакитляндирмяйя чалышды:

- Аьлама хала, щярянин бир гисмяти вар, гисмятдян артыг йемяк щеч кяся нясиб олмайыб, нейляйяк , йягин гисмят беля имиш .

- Баламын гисмяти аъы зящяр, мянимки дя эюз йашы олду, гызым. Мяндя эялин гуллуьу эюрцб, нявя бойу эюрмяк истяйирдм. Талещ мяня бунлары явязиндя бир гуъаг торпаг нясиб еляди. Аллащ мярдимазарын евини йыхсын, баламы о зящирмара алышдыранын тыфагыны даьыдсын. Даьыдылар баламын ханиманыны эцня гара эцня гойдулар дцнйасны. Сяня

цмцд еляйирдим, еля билирдим балам, сяня эюря бу йолдан дюняъяк, щеч демя, дюнцшц олмайан йола чыхыбмыш бядбяхт.

Фидан ананын ащу-зарындан няся олдуьуну анламышды. Амма горхусундан соруша билмирди, цряк елямирди. Ана санки Фиданын цряйиндян кечянляри анлады:

Бал даьы, бала даьы.
Бцрцйцб лала даьы,
Щяр йара саьалса да ,
Саьалмаз бала даьы,

Дяйирманын пцскцня
Чахмаэына, пцскцня,
Юзц юлдц, гуртарды
мяни гойду пис эцня

Фидан дярдли ананы йаралы кюксцня сыхыб, щычгырды.

Йолбойу юзцнц сакитляшдирмяйя, щеч ня щисс етдирмямяйя чалышса да пяймурдялийи Мещманын эюзцндян йайынмады:

- Нийя кефсисян, анамын вязийяти писляшиб?

- Йох, атам йахшыды. Щяким бир щяфтяйя евя бурахаъаг.

- Бяс сяни наращат едян нядир?

Мещманан эюзлярини ичиня бахды:

- Рюйалын анасыны эюрдцм.

- Сонра?

- Рюйал рящмятя эедибмиш- киприкляриндян асылан бир ъцт йаш дамласы йанагындан сцзцлцб цзц ашаьы йуварлана-йуварлана сифятиндя гоша ъыьыр ачырды.

- Щяля онун цчцн аьлайырсын? Сяня елядийини зцлцм ня тез йадындан чыхды.

- Онун цчцн гятиййян аьламырам, ичимизя сохулуб ъаванларымызы мящв едян, кюрпя балалары атасыз, эялинляри ярсиз, аналары оьулсуз гойан о «аь зящримар»ын ъямиййятя эятирдийи фялакятляря аьлайырам. Бунун чаряси йохдурму?

Мещман дяриндян кюкс ютцрцб фиданы гцввятли голларыйла юзцня тяряф чякди, синясиня сыхды. Щяр гадынын арзуладыьы, амма щамыйа нясиб олмайан эцълц киши кюксцня сыьынмаг,

арзуламыр?

Беля хошбяхт сящялярин бириндя Тцркел анасынын кейфиня соьан доьрады.

Сящяр йемяйиндян сонра китаб долабынын цстцндяки глобуса ялляриni узадыб, гышгырды.

- Ону вей, ону истяйилям. Сяня вей дедим, вей, вей…

Бу гядяр ойунъаг гала-гала ушаьын йалныз глобусла ойнамаг истямяси Фиданы щювсялядян чыхарды.

- Олмаз.

Мещман уста:

- Гой ойнасын – деди, - вя глобусу эютцрцб Тцркеля узатды, -бу глобусу бабам мяня баьышламышды. О ъоьрафийа мцяллими иди, синиф отаьына эиряндя щямишя ялиндя узун нар чубуьу оларды. Мян бешинъи синифя эедирдим, рящмятлик о вахт мяктябимиздя директор ишляйирди. Амма щямин чубуьу йеря гоймур, щятта синифляри эязиб-долашырды. Чубугла ушаг вурдуьуну хатырламырам, ди эял ки, эюряндя щамы юзцнц лал-динмяз апарырды. Бу глобусу мяня веряндя деди ки, Мещман, бала арзу едирям, Аллащ сяня о гядяр пул йетирсин ки, йер кцрясиндя бцтцн гитяляри эязиб-долашмаг имканын олсун. Бабамын дуасы ялли фаиз мцстяъяб олуб! Бу эцняъян цч гитядя истиращятдя олмушам. Дейирям ки, гой индии Тцркел баламыз бу глобусу фырлатсын, сонра бармаьыны щансы юлкянин цстцня

тушлайыб гойса, сянинля бирликдя ора эедярик. Бу дцнйада эязмякдян, сяйащятдян эюзял истиращят йохдур.

- Бялкя онун бармаьы еля бир юлкянин цстцндя дайанаъаг ки, ъящяннямдян бетярди?

Мещман уста онун ялляриндян тутуб юзцня сары чякди, йалныз икисинин ешидя биляъяйи тярздя пычылдады:

- Мяня бяхш етдийин то хош анлар, севэин, нявазишляринт бу дцнйаны эюзцм дя ъяннятя дюндярди. Мян сянинля дцнйанын лап о башына эетмяйя дя щазырам…

Бу вахта Мяшди киши дя йцнэцлъя юскцрцб пиллякяндян йухары галхырды.

Фидан ъидди бахышларла Мещман устаны сцздц.

- Эетмяк истядийим бир мямлякят варса, о да Франсады.

- Нийя? Мяэяр ондан эюзял юлкяляр аздыр?

- Парисин мцщаъир гябристанлыьында гяриб бир гадынын мязары вар. Мян щямин мязары тапыб зийарят етмяк истярдим, онун мязарына тбурдан бир овуъ вятян торпаьы, бир дястя чичяк апармаг, синядашыны эюз йашларымла йуйуб, рущуна дуалар охумаг мяним цчцн ян бюйцк сяваб оларды…

- Йухунда тез-тез эюрдцйцн гызынымы, дейирсян?

- щя , истяйирям, онун ниэаран рущу шад олсун, гой кюнлц-эюзц тох олсун, архада галмасын.

-онда эяряк Мяшдини дя апараг юзцмцзля, о гяриб гадынын мязары цстцндя мцгяддяс Гурани-Шярифин «Йасин» сурясини охуйар.

Мяшди киши юзцнямяхсус данышын тярзийля диллянди:

-Гядеш, мяним тайларым Мяккяйя, Кярбялайа эедир, сянся…

- Бу да пис зийарят дейил, ай Мяшди, дцнйанын щяр эушяси мараглыды, чцнки Аллащ йарадыб, иншаллащ, дедийин о йерляря дя зийарят едярсян. Сян ахы ариф адамсан…

О эцн Фиданын хяйалы Парисин цстцндя ганад ачмышды, мцщаъир гадынын рущу она бахыб гымышыр, разылыгла башыны тярпядирди. Санки Гяриб Рущ бир вахт атасынын ъещиз вердийи, амма йашамаг щеч вахт она нясиб олмайан щямин маликанядян бу эцн эялин кючян бцтцн гызлара хейир-дуа вериб, хошбяхтлик диляйирди.

## СЮЗАХЫРЫ

… Онлар Бакыдан Парися йола дцшдцкляри эцн щава лиманынын эюзлямя залында Натяванла растлашдылар. Мобил телефон гулаьындан дцшмур, щяйяъанла саьа-сола бойланыр, пяришан щалда эязя-эязя ора-бура вурнухурду. Санки эюзлямя залында кимися ялимйандыда ахтарыр, тапа билмирди.

Фидан юзцнц эюрмямязлийя вуруб йанындан саймазйана ютмяйя чалышса да, Натяван щювлнак ону эюрцб, дяли кими цстцня шыьыды.

- Фида, Фидаъан, сянсян? – гящярли-гящярли инилдяди, голларыны кющня ряфигясинин бойнуна долады, - Ъек мяни атды, -деди,- мяндян цз дюндярмяйи ъящянням, щям дя, банкдакы щесабымыздакы пуллары да эютцрцб, дедийим о тяръцмячи гызла бирликдя шящяри эизлинъя тярк едиб. .. Байагдан ян азы ялли дяфя зянэ етмишям, телефону ачмыр. Чашыб галмышам, ня едяъяйими билмирям. Бу яъняби кюпяйоьлу мяни мцфлис етдиб, гуру йурдда гойуб.

Мещман уста Фиданын фикирли-фикирли сусдуьуну эюрцб диллянди:

- яэяр сизин пула ещтийаъыныз варса, кюмяк ялимизи узада билярик, мянъя, Фидан ханым юз шяхси щесабындан сизя истянилян мябляьдя йардым эюстярмяйя етираз етмяз. Амма Франса сяфяриндян дюняндян сонра…

Натяван ешитдикляриня инамады, эюзляри щейрятдян бяряля галды:

- Мян, мян…- дейиб дили топуг вурмаьа башлады.

Мещман уста хяфиф-хяфиф эцлцмсцндц:

- Щя, _деди, - тяшяккцр етмяйя ещтийаъ йохдур, ханым, мяэяр биз инсан дейилик, дара дцшмцш баъы вя гардашларымыза кюмяк елямяк щяр биримсизин боръудур. Ди, саламат галын!

Онлар бир-биринин голуна эириб эедяндя архадан Натяванын щычгыртысы ешидилди.

Фидан бир ан айаг сахлады, амма щансы гцввяся ону иряли дартда,

Цряйиндя дцшцндц ки, эюрясян, кечмиш ряфигяси хяъалятиндян щюнкцрцб аьлайыр, йохса Ъекин мяшугясийля бирликдя Лондона дюнцб ону тяк-тянща гоймасындан? «Ещ Натявян, Натяван, бу да сянин аьыздолусу тярифляйиб, «биз бир-биримизи чох йахшы баша дцшцрцк, о да ушаг истямир, мян дя», дейя разылыг елядийин яъняби яр… Бяс о мухдла тутдуьун мили севэилин щара итди? Бялкя ора-бура бойлана-бойлана онун ахтарырсан?! Йохса о да мцфлисляшдийини эюрцб арадан чыхыб? Аллащ гой, бу дцнйада алдадылан щяр бир гадына кюмяк олсун, онлары чякдикляри сыхынтылардан гуртарсын…».

Onların Paris səfəri yaddaqalan, unudulmaz məqamlarla dolu idi. Belə xoş saatların birində səfirliyin mədəniyyət ataşşesinə gedib şura hökuməti qurulandan sonra Bakıdan Fransaya köçən mühacirlərin sonrakı aqibəti ilə maraqlandılar. Rəsmilər konkret ünvan göstərdilər. Sonra Per-Laşez qəbirstanlığında axtarıb tapdıqları “bəxtsiz qızın” – qoca qarının məzarını ziyarət elədilər. Məşdi yanıqlı səslə yasin oxudu...

Məzarı üstə səpilən vətən torpağının hərarətindən isinən Qərib Ruhun sevinci yerə-göyə sığmır, Fidanın qəlbində əks-səda tapırdı. Vətənə dönəndə içinə sonsuz rahatlıq, əbədi xoşbəxtlik duyğusu vardı. Axı, Qərib Ruhdan Vətəndə doğulub-böyüyən ərgən qızlara əbədi xeyir-dua gətirdi...

Aprel-sentyabr 2010.